

# Xidmətə Qalxmaq



Ruhi İnstitutu





Kitab 2

# Xidmətə Qalxmaq

Ruhi İnstitutu

Silsilədəki kitablar:

Aşağıda Ruhi İnstitutunun tərtib etdiyi silsilədəki mövcud kitabların adları verilir. Kitabların gənc və böyük insanların öz icmalarına xidmət etmə qabiliyyətlərini yüksəltmək məqsədilə sistematik səylərdə əsas kurslar ardıcıllığı kimi istifadə olunması nəzərdə tutulur. Ruhi İnstitutu Bəhai uşaq dərsləri müəllimlərinin təlimi üçün silsilədə üçüncü kitabdan ayrılan bir sıra kurslar dəstini, həmçinin yeniyetmə qruplarının animatorlarının yetişdirilməsi üçün Kitab 5-dən ayrılmış digər dəsti də hazırlamaqdadır. Bunlar da aşağıdakı siyahıda verilir. Qeyd etmək lazımdır ki, fəaliyyət meydanında təcrübə toplandıqca bu siyahıda dəyişikliklər ola bilər və hazırda hazırlanmaqda olan tədris proqramının elementləri geniş şəkildə təqdim edilə biləcəyi mərhələyə çatdıqda yeni kitabların adları əlavə olunacaqdır.

| | |
|---|---|
| Kitab 1 | *Ruhun Həyatı Üzərində Düşüncələr* |
| Kitab 2 | *Xidmətə Qalxmaq* |
| Kitab 3 | *Uşaq Dərslərinin Tədrisi, I Sinif* |
| | *Uşaq Dərslərinin Tədrisi, II Sinif* (budaq kurs) |
| | *Uşaq Dərslərinin Tədrisi, III Sinif* (budaq kurs) |
| | *Uşaq Dərslərinin Tədrisi, IV Sinif* (budaq kurs) |
| Kitab 4 | *Qoşa Məzhərlər* |
| Kitab 5 | *Yeniyetmələrin Güclərinin Azad Edilməsi* |
| | *İlkin İmpuls: Kitab 5-in birinci budaq kursu* |
| | *Genişlənən Çevrə: Kitab 5-in ikinci budaq kursu* |
| Kitab 6 | *Əmrin Təbliği* |
| Kitab 7 | *Xidmət Yolunda Birgə Addımlamaq* |
| Kitab 8 | *Həzrət Bəhaullahın Əhdi* |
| Kitab 9 | *Tarixi Perspektivin Əldə Edilməsi* |
| Kitab 10 | *Canlı İcmaların Qurulması* |
| Kitab 11 | *Maddi Vəsaitlər* |
| Kitab 12 | *Ailə və İcma* |
| Kitab 13 | *Sosial Fəaliyyətlə Məşğul Olmaq* |
| Kitab 14 | *İctimai Diskursda İştirak Etmək* |

Müəllif hüquqları © 1995, 2021 Ruhi Fondu, Kolumbiya
Bütün hüquqlar qorunur. Versiya 2.1.1.PE nəşr 2021-ci il iyun ayı
Printed in Azerbaijan

Originally published in Spanish as *Levantémonos a servir*
Copyright © 1987, 1996, 2020 by the Ruhi Foundation, Colombia
ISBN 978-958-52941-0-3

Permission for a limited printing of this book in Azeri has been granted to the institute in Azerbaijan by the Ruhi Institute.

Ruhi İnstitutu
Kali, Kolumbiya
Elektron ünvan: instituto@ruhi.org
Veb-səhifə: www.ruhi.org

# Mündəricat

Aparıcı üçün bir neçə fikir ......................... v

Təbliğin Sevinci ......................................... 1

Ruhyüksəldici Söhbətlər .......................... 17

Dərinləşmə Mövzuları .............................. 37

# Aparıcı üçün bir neçə fikir

Ruhi İnstitutunun təklif etdiyi əsas kurslar ardıcıllığında ikinci olan bu kitab bizi mənalı və ruhyüksəldici söhbətə töhfə verməyə qadir edən qabiliyyətlər barəsindədir. Kitabın diqqəti üzərində cəmlədiyi xüsusi xidmət aktı üçüncü fəsildə təsvir edilir. Qüdrətli qüvvələrin icma bağlarını qırıb parçaladığı bir dünyada cəmiyyətin həyatı üçün mərkəzdə duran mövzuları araşdırmaq məqsədilə dostları və qonşuları evlərində ziyarət etmək praktikası, əgər mədəniyyətin nəzərəçarpan bir xüsusiyyətinə çevrilərsə, getdikcə artan təcridolmanın yaratdığı bəzi bəlaların əlacı ola bilər. Həmin fəsil təklif edir ki, bu cür yaradılan yoldaşlıq bağları, canlı və ahəngdar icmaların qurulması prosesini möhkəmlətməyə xidmət edir.

Qonşuluqda və ya kənddə evlərə dayanıqlı ziyarət proqramı zəruri inzibati təsisatlar və agentliklər tərəfindən dəstəklənən sadiq bir dostlar nüvəsini cəlb edərək müəyyən bir dərəcədə təşkilatçılıq tələb edir. Qrupa kitab boyu bələdçilik edərkən, aparıcı yadda saxlamalıdır ki, iştirakçılar belə bir davamlı səyə qoşulmaq üçün hazırlanırlar. Onlar üçün kitabı öyrənmələrinin bir komponenti kimi təşkil olunan ziyarətlər illər ötdükcə xidmət həyatının vacib bir cəhəti olan bu səylərdə iştirak etmək öhdəliyinə gətirib çıxarmalıdır.

Əlbəttə, ruhani və sosial əhəmiyyətli mövzuları araşdırmaq kimi aşkar bir məqsəd üçün evləri ziyarət etmək praktikası icmanın mədəniyyətini zənginləşdirir. Bu cəhətdən evdə, iş yerində, məktəb və alış-veriş yerlərində baş verən çoxlu qeyri-rəsmi müzakirələr də eyni dərəcədə mühümdür. Ona görə də gündəlik söhbətə yeri gəldikcə ruhani prinsipləri daxil etmək diqqətəlayiq bir qabiliyyətdir. Bu qabiliyyətin inkişaf etdirilməsi ikinci fəslin diqqət mərkəzindədir ki, bu yolla da üçüncü fəsildə həyata keçiriləcək öyrənmənin bünövrəsi qoyulmuş olur.

Əgər dostlar və qonşularla söhbətlərimizin ruhyüksəldici olmasını istəyiriksə, biz onlarla qarşılıqlı münasibətimizə sevinc qatmağı bacarmalıyıq. Bu, "Təbliğin Sevinci" adlanan birinci fəslin mövzusudur. Ruhi İnstitutunun tövsiyə etdiyi bütün xidmət aktları mahiyyət etibarilə, Həzrət Bəhaullahın Vəhyinin dəryasında kəşf etdiyimiz ilahi hikmət gövhərlərini başqaları ilə bölüşməkdir. Birinci fəslin öyrənilməsinin məqsədi bu məşğuliyyətə xas olan sevinc barədə agahlığı yüksəltməkdir. İştirakçılardan bir neçə bölmədə Allah Kəlamı haqqında və onu başqaları ilə bölüşməyin necə bir nemət olması barədə düşünmələri xahiş edilir. Bu fəslin nəzərdə tutduğu aktdan xidmət yolu ilə addımladıqca addımlarımızı sürətləndirən sevinc doğur. Amma hətta bu dərin ruhani həqiqətə tam inandıqda belə, əgər biz xidməti fərqləndirən keyfiyyət və münasibətlərə fikir verməsək, təbliğ ruhunu itirə bilərik. Bunlar silsilədəki çoxlu ardıcıl kitabların müzakirələrinin predmetidir və burada Bölmə 7-dəki inqitadan başlayaraq onlardan yalnız bir neçəsi nəzərdən keçirilir. Bəhai Yazılarından seçilmiş sitatlar bu keyfiyyət üzərində düşünmək üçün əsası təşkil edir, bir keyfiyyət ki, zahiri amillərin xidmət sevincini azaltmaması üçün əvəzedilməzdir. Vacib olan budur ki, dərsdə iştirakçılar inqitanın biganəlik, yaxud laqeydlik demək olması kimi yanlış bir fikrə qapılmasınlar. Biz getdikcə daha yaxşı nəticələr əldə etməyə çalışırıq deyə, daim səylərimizi intensivləşdirməyə və xidmətimizin səmərəliliyini yüksəltməyə cəhd göstərməliyik. Bu,

səylərin səciyyəsi barədə adekvat anlayış tələb edir ki, bu mövzu da Bölmə 8-də nəzərdən keçirilir. Xidmət yolu üçün fundamental olan iki münasibət – nikbinlik və şükranlıq növbəti və son bölmədə qısaca müzakirə edilir.

Kitabın ikinci fəsli, "Ruhyüksəldici Söhbətlər" qeyri-rəsmi söhbətlərin səviyyəsini imkan düşdükcə ruhani prinsiplərə istinad edərək yüksəltmək bacarığı üzərində fokuslanır. Bu fəsil müxtəlif mövzular üzrə bir sıra qısa müddəalardan ibarətdir ki, dəqiq iqtibaslar olmasa da, onlar Həzrət Əbdül-Bəhanın bəyanları üzərində qurulmuşdur və Onun istifadə etdiyi çoxlu söz və ifadələri ehtiva edir. Bu sözlər universal müraciətlər səciyyəsində olmaqla bütün mənşələrdən olan insanların canatma və qayğılarından bəhs edir. Ümid edilir ki, bu müddəaları öyrənməklə iştirakçılar Həzrət Əbdül-Bəhanın ruhani prinsipləri izah etdiyi tərzdən ilham alacaq və Həzrət Bəhaullahın Vəhyinin dəryasında gizlənən gövhərləri kəşf etməyə, Onun Atasının təlimlərindəki məna və niyyətləri başa düşməyə və onları başqaları ilə səxavətlə bölüşməyə çalışdıqca Ona üz tutmaq vərdişi qazanacaqlar.

Fəslin məqsədinə nail olmaq üçün iştirakçılara hər bir müddəanın üzərindən bir neçə dəfə keçmək, fikirlərin ardıcıllığını müəyyən etmək, ideyaları təbii olaraq ifadə edə biləcəkləri dərəcədə mənimsəyənə qədər təkrarlamaq üçün şərait yaradılmalıdır. Bəziləri başlanğıcda müddəaları əzbərləyəcək, onları az ya çox dərəcədə fəsildə verilən kimi təkrar edəcəklər. Bu halda gözləmək lazımdır. Onların Əmr haqqında bilikləri dərinləşdikcə və təcrübələri artdıqca, daha geniş ölçüdə materiala və daha zəngin lüğətə çıxışları olacaq və bu da onların başqaları ilə ünsiyyətlərində əks olunacaq. Aparıcı başa düşməlidir ki, bu mərhələdə nəzərə alınmalı olan məsələ ikilidir: təlimlərin izahındakı asanlıq dərəcəsi və Həzrət Əbdül-Bəhanın fikri ilə uyğunluq.

Qrupun üzvləri hər bir müddəanın məzmununu təqdim etməyi öyrəndikdən sonra başqa bir fəaliyyətə keçirlər ki, burada onlar öyrəndikləri ideyaları ailələrinin, dostlarının və həmkarlarının qayğısı olan məsələlərlə bağlamağa təşviq olunurlar. Bu məqsədlə, onlardan söhbətdə meydana çıxan bəzi mövzu və suallar üzərində düşünmək və onlardan hansıların ideyaları müzakirəyə daxil etmək imkanı verdiyinə qərar vermək xahiş olunur. Bir neçə müddəada Həzrət Əbdül-Bəhanın açıqladığı ruhani prinsiplərin hər yerdə insanların qayğısı olan məsələlərə necə işıq saldığını göstərmək məqsədilə bir, yaxud iki nümunə verilir. Əgər kitabın öyrənilməsi hələ davam edərkən, aparıcı müddəalardan birini seçməkdə və o müddəadakı ideyalar üzərində söhbət etmək üçün tərəfmüqabil seçməkdə hər bir üzvə kömək edə bilsə, bu çalışma daha yaxşı səmərə verəcəkdir. Bu yolla görüş zamanı iştirakçılara vaxt verilə bilər ki, etdikləri söhbətlərin dinamikasını bir-birilərinə təsvir etsinlər.

Fəsildəki hər bir müddəaya əzbərləmək məqsədilə Həzrət Bəhaullahın Yazılarından bir neçə parça daxil edilmişdir. Ruhi İnstitutunun artıq silsilənin birinci kitabında aydın görünən əzbərləmək məsələsini vurğulaması Kitab 2-də daha da önə çıxır. Fərz edilir ki, iştirakçılar artıq bu nöqtədə Yazılardan parçaları vaxtaşırı olaraq yada salmaqdan aldıqları ruhani bəslənmənin fərqindədirlər. Odur ki, onlar bu kitabda Allah Kəlamının insan qəlbinə təsirləri barədə düşünməkdə davam edəcək, ikinci fəsildə olduğu kimi, üçüncü fəsildə də Yazılarda rast gəlinən prinsip və ideyaları öz nitqlərində təqdim etməyi və münasib olanda parçaları bilavasitə iqtibas etməyi öyrənəcəklər. Təlimləri başqalarına saf halında çatdırmaqla dəqiq izah etmək xidmət yolu ilə gedərkən bizim inkişaf etdirmək istədiyimiz qabiliyyətlər arasındadır. Buna başlamağın ən yaxşı yolunun Həzrət Əbdül-Bəhanın izahatlarını öyrənmək və Onun tərzində onları ifadə etməyə çalışmaq olması ikinci fəslin strukturunun əsasında duran mühakimədir.

Yuxarıda göstərildiyi kimi, “Dərinləşmə Mövzuları” adlanan üçüncü fəsil bu kitabda baxılan xidmət aktı məsələsinə – yəni, dostları və qonşuları icma həyatı üçün vacib olan müzakirəyə cəlb olunmaq məqsədilə ziyarət etməyə – həsr olunub. Fəsildə üç tipdə söhbət nəzərdə tutulur və hər biri üçün xüsusi məzmun təklif edilir. Birinci tip söhbət sistematik ziyarətlər proqramında kəndin və ya qonşuluğun sakinləri ilə birgə araşdırılmalı olan silsilə mövzular ətrafında dövr edir. Hərçənd, müəyyən edilmiş məzmun maraqlanan auditoriyalarla çeşidli yollarla paylaşıla bilər, amma mövzuların ilkin məqsədi – ailələrin üzvlərinin Bəhai Dini haqqında biliklərini dərinləşdirmək üçün imkan yaratmaq – ən əsas məsələ olaraq qalır. Ona görə də, bu fəsildə bu tip söhbətə daha geniş yer verilir.

Bununla belə, ev ziyarətləri praktikası son illər xüsusilə, getdikcə daha kiçik coğrafi vahidlərdə, kənd və şəhər qonşuluğu səviyyəsindəki yerlərdə aparıcı, yeniyetmə qrupu animatoru və uşaq dərsi müəllimi kimi xidmət edə biləcək fərdlərin sayında artım müşahidə olunduqca yeni bir miqyas qazanmışdır. Aşkardır ki, bu praktika təkcə Əmr haqqında biliyi yaymaq məqsədi baxımından vacib deyil; bu həm də yeniyetmələrin ruhani gücləndirilməsi və uşaqların ruhani təlim-tərbiyəsi proqramlarının uğurlu inkişafı üçün vacibdir. Burada aydın olan budur ki, animator və müəllimlərin hər iki proqramda olan azyaşlıların valideynlərini o proqramlara forma verən konsepsiya və yanaşmaları müzakirə etmək məqsədilə müntəzəm ziyarət etməyinə ehtiyac vardır. Bu cür müzakirələr 14 və 15-ci Bölmələrdə nəzərdən keçirilən ikinci tip söhbətləri təşkil edir. Bu bölmələrdə əhatə olunan məzmun geniş deyil, çünki iştirakçılar gələcək kurslarda bu iki təlim-tərbiyə proqramı ilə daha da yaxından tanış olacaqlar. Lakin bu tip söhbətin əhəmiyyətindən agah olmağın və uşaq dərsi müəllimlərini və yeniyetmə qrupu animatorlarını valideynləri ziyarətdə müşayiət etməyin bu erkən mərhələdə çox səmərəli olması üzə çıxır.

Bu fəsildə nəzərdə tutulan üçüncü tip söhbət çox xüsusi bir məqsədə xidmət edir. Bir çox gənc oğlan və qız dünyanın yaxşılaşdırılmasına töhfə vermək üçün atəşli arzularının öz ifadəsini tapacağı sahələr axtarışındadırlar. Onlar cəmiyyəti dəyişmək üçün istifadəsini gözləyən, sözün doğrusu, bunu şövqlə istəyən son dərəcə böyük bir qabiliyyət ehtiyatını təşkil edirlər. Yaşıdlar arasında baş tutan – hansında ki, özünün bütün enerji və qeyri-adi potensialı ilə birlikdə gənclik dövrü üçün misilsiz olan fürsət və məsuliyyətlər barəsində düşünürlər – söhbət, bir qayda olaraq xidmət ətrafında müzakirəyə gətirə və yer kürəsi boyunca kəndlərdə və qonşuluqlarda görülən işə maraq oyada bilər. Öz növbəsində çoxlu sayda insanlar yetişməkdə olan nəsillərə uşaq dərsi müəllimi və yeniyetmə qrupu animatoru kimi ruhani təlim-tərbiyə vermək üçün bir qabiliyyət əldə etmək vasitəsi kimi institut kurslarına qoşulmaq dəvətini xoş qarşılayacaqlar. Bölmə 9 və 10 bu tip söhbətdə araşdırıla biləcək bəzi ideyaları ortalığa qoyur.

Fərdləri mənalı söhbətlər başlatmağa və onları davam etdirməyə qadir edən qabiliyyətləri möhkəmləndirmək üçün bu fəsil, əlbəttə, geniş mövzular və müvafiq məzmun təklif etməkdən daha uzağa getməlidir. İdeyaları aydın ifadə etmək qabiliyyətindən əlavə, iştirakçılar zəruri münasibət və ruhani keyfiyyətləri də inkişaf etdirməlidirlər. Bunlar fəsildə açılan hekayətin böyük hissəsinin əsasında dayanır, lakin sözü gedən qabiliyyətlər üçün onların vacibliyi isə iştirakçıların ziyarətə hazırlaşarkən bizim ürək və beynimizi hansı hiss və fikirlərin doldurmalı olması üzərində düşündükləri Bölmə 4-də, həmçinin onların təvazökarlıq keyfiyyəti üzərində düşündükləri Bölmə 5-də aydın olur. Aparıcı təmin etmək istəyəcək ki, iştirakçılar bu bölmələrə kifayət qədər diqqət ayırsınlar, çünki biz nə qədər bilik əldə etsək də, ideyaları nə qədər yaxşı ifadə etsək də, söhbətlərimizin effektivliyi bizim onlara qatdığımız keyfiyyət və münasibətlərdən asılı olacaqdır.

Bunu qeyd etmək lazımdır ki, bu kitablar silsiləsində təsvir olunan xidmət aktları icmanın böyüməsi və inkişafı üçün mərkəzi yerdə dursa da, onlar hər şeydən əvvəl öyrənmək və hərəkət vasitəsilə fərdi qabiliyyəti yüksəltməyə çalışan bir prosesin elementləridir. Hər bir aparıcı bunu başa düşməlidir ki, kitabdan-kitaba keçdikcə mürəkkəbliyi getdikcə artan bu aktların biri digərinin üzərində qurulur. Hər bir xidmət aktını effektiv şəkildə yerinə yetirməyi öyrənmək ondan sonra gələn aktları həyata keçirmək üçün tələb olunan qabiliyyət baxımından çox mühümdür. Bu kitabda nəzərdə tutulduğu kimi, bir evə bir neçə ziyarətin gedişində söhbətin davamlılığını qorumaq Kitab 1-də təşviq olunan fəaliyyət, yəni təkbaşına, yaxud bir neçə nəfərlə əməkdaşlıqda müntəzəm dua görüşlərinə ev sahibliyi etməkdən daha tələbkar olmaqla, daha artıq bacarıq və səy tələb edir. Və bunu görmək elə də çətin deyil ki, qarşıdakı daha mürəkkəb xidmət aktlarını yerinə yetirə bilmək üçün burada baxılan qabiliyyətləri irəlilətmək necə mühümdür.

Kitab 1-in müqəddimə qeydlərində göstərildiyi kimi, institut kurslarının dünya üzrə iştirakçıları çeşidli mənşələrdən gəlirlər və başlanğıcda, Bəhai təlimləri ilə fərqli dərəcələrdə tanışlığa malik olurlar. Bu ikinci kitaba başlayanda onların hər biri doğrudan da kursların açdığı xidmət yoluna düşmüş olacaqlar. Lakin bəzi fərqlər qalır. Məsələn, gənclərin halında, onlar uşaqlar və yeniyetmələr üçün təlim-tərbiyə proqramlarından keçməyincə, kitabda təqdim olunan çoxlu müddəa və mövzular onlar üçün yeni olacaq və kitabın öyrənilməsi Əmr haqqında onların öz biliklərini dərinləşdirmək vasitəsi kimi xidmət edəcək. Bu cəhətdən, aparıcı qrupun hər bir üzvündə anlayış bəsləmək üçün zəruri çeviklik və yaradıcılıq sərgiləməli, bu zaman, kursun əsas məqsədinə – iştirakçıları mənalı və ruhyüksəldici söhbətlərə cəlb olunmağa qabil etməyə – nail olunmasını təmin etməlidir. Bundan əlavə, kitabın öyrənildiyi minlərlə nahiyədə üç fəslin töhfə verməyə çalışdığı icma quruculuğu prosesi eyni inkişaf mərhələsində deyil. Odur ki, öyrənilməkdə olan şeyləri hərəkətə çevirmək nahiyələrdən asılı olaraq necəsə fərqli forma ala bilər və bunun özü də qrupu bu səhifələr üzrə irəli apararkən aparıcının hər bir üzvün ehtiyaclarına cavab kimi nümayiş etdirməli olduğu qayğı və hərtərəfli yanaşmanın göstəricisi kimi çıxış edir.



# Təbliğin Sevinci

## Məqsəd

Təbliğin sevincinin Allah Kəlamının başqaları ilə bölüşmək aktında olduğunu dərk etmək

# BÖLMƏ 1

Öyrənmə və hərəkəti birləşdirməyə çalışan *Xidmətə Qalxmaq* Ruhi İnstitutunun kurslar ardıcıllığında ikinci kitabdır. Onun məqsədi sizin ikili məqsədi – özünüzün ruhani və intellektual inkişafınızın qayğısına qalmaq və cəmiyyətin transformasiyasına töhfə verməyi – yerinə yetirməyə çalışarkən daxil olduğunuz xidmət yolu boyunca irəliləməkdə sizə kömək etməkdir. Birinci kursdakı iştirakınızdan siz artıq bilməlisiniz ki, bizim qeyd etdiyimiz yol silsilə xidmət aktları ilə müəyyən olunur, o aktlar ki, biz gözümüzü Həzrət Bəhaullahın Yazılarında öngörülən yeni dünya nizamı barədə hədəfə dikərək onları yerinə yetiririk. Beləliklə, bizim "xidmət yolu ilə getmək" deyə adlandırdığımız şeyin əksər hissəsi Onun təlimlərini öz həyatımıza və bəşəriyyətin həyatına tətbiq etmək səylərimizdən ibarətdir. Öz Vəhyi haqqında O bu istilahlarla danışır:

> **"Ey Mənim bəndələrim! Mənim müqəddəs, Mənim ilahi Vəhyim elə bir dəryaya bənzəyir ki, onun dərinliklərində saysız-hesabsız, son dərəcə qiymətli, incə və parlaq gövhərlər gizlənmişdir. Hər bir axtaran kəsin vəzifəsidir ki, hərəkətə gəlsin və həmin dəryanın sahillərinə yetişməyə çalışsın ki, axtarış şövqünün və cəhdinin nisbətinə uyğun olaraq Allahın gizli və qəti Lövhlərində öncədən müəyyən olunmuş faydalardan öz qismətini əldə etsin".**[1]

Bu birinci fəsildə biz Həzrət Bəhaullahın Vəhyinin dəryasında olan hikmət gövhərlərini kəşf etdikcə və onları başqaları ilə bölüşdükcə, fikirlərimiz qəlblərimizi dolduran sevincə tərəf dönür. Kitab 1-i öyrənməyinizdən artıq görmüsünüz ki, Onun Yazılarında yer alan ilahi hidayət gövhərləri necə zərif və gözəldir. Gəlin daha bir neçə çıxarış üzərində düşünək:

> **"Allahın nitqi işığı bu sözlər olan bir çıraqdır: Siz bir ağacın meyvələri və bir budağın yarpaqlarısınız".**[2]

> **"Mənim nəzərimdə ən sevimli şey insafdır; Məni istəyirsənsə, ondan üz çevirmə. Səndən əmin olmağım üçün ondan qafil olma".**[3]

> **"Yaşadığınız zəmanənin ehtiyaclarına ciddi qayğı göstərin və müzakirələrinizi onun zərurətləri və tələbatları üzərində cəmləşdirin".**[4]

> **"Bütün insanlar daim inkişafda olan sivilizasiyanı irəli aparmaq üçün yaradılmışlar".**[5]

> **"Dünya keçib gedir, əbədi qalan isə Allahın məhəbbətidir".**[6]

> **"Sən Mənim çırağımsan və Mənim işığım səndədir. Ondan nurlan və Məndən başqasını axtarma. Çünki Mən səni zəngin yaratmışam və nemətimi sənə tamamlamışam".**[7]

Siz zamanla bu qısa parçaları əzbərləmək istəyə bilərsiniz.

## BÖLMƏ 2

Bu fəslin əsas mövzusu üzərində müzakirələrinizə başlamaq üçün əvvəlki bölmədə istinad edilən birinci parçanı bir daha oxuyun və aşağıdakı çalışmaları yerinə yetirin:

1. Aşağıdakı cümlələri tamamlayın:

   a. Bizim vəzifəmizdir ki, ________________________________________________ və Həzrət Bəhaullahın Vəhy dəryasının __________________________________.

   b. Biz Həzrət Bəhaullahın Vəhyinin dəryasının sahillərinə yetişməyə çalışmalıyıq ki, Allahın gizli və qəti Lövhlərində öncədən müəyyən olunmuş _____________ __________ öz qismətimizi əldə edək.

   c. Həzrət Bəhaullahın Vəhy dəryasından qismətimiz olan faydalar bizim _________ ______________________________________________________________ uyğun olacaqdır.

2. “Hərəkətə gəlmək” nə deməkdir? __________________________________________
   ____________________________________________________________________

3. Nəyəsə “yetişməyə çalışmaq” nə deməkdir? ___________________________________
   ____________________________________________________________________

4. Hər bir axtaran nəyə yetişməyə çalışmalıdır? _________________________________
   ____________________________________________________________________

5. Bir şeyin başqa bir şeylə “nisbətdə olması” nə deməkdir? ______________________
   ____________________________________________________________________

6. Həzrət Bəhaullah bizə buyurur ki, biz qoyduğumuz cəhdlərin nisbətində Onun Vəhy dəryasından faydalar alacağıq.

   a. Bizim bu faydaları əldə etməyimizə səbəb olan cəhdlərə aid bir neçə misal çəkin:

   ________________________________________________________________
   ________________________________________________________________
   ________________________________________________________________
   ________________________________________________________________
   ________________________________________________________________
   ________________________________________________________________
   ________________________________________________________________

b. Bizim əldə etdiyimiz faydalara aid bir neçə misal göstərin: ________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

________________________________________________________________

## BÖLMƏ 3

Həzrət Bəhaullahın Vəhyinin, dərinliklərində qiymətəgəlməz gövhərlər olan bir dərya olduğunu bilərək onun faydalarından pay almaq və başqalarının onun sahillərinə yetişməsinə kömək etmək üçün bütün səylərimizi qoyuruq. Amma biz özümüzdən soruşa bilərik: Bu dəryanın sahilləri bizdən nə qədər uzaqdadır? Həzrət Bəhaullah bəyan edir:

> **“Ey Mənim bəndələrim! Tək haqq Allah Mənim şahidimdir! Bu əzəmətli, bu dərin və dalğalanan Dərya sizə heyrətamiz dərəcədə yaxındır. Baxın, o hətta sizə şah damarınızdan da yaxındır! Əgər istəsəniz, bir göz qırpımında ona yetişib bu əbədi feyzdən, bu sübhani fəzldən, bu dəyişməz lütfdən, bu ən qüdrətli və ehtişamlı nemətdən öz nəsibinizi ala bilərsiniz!”**[8]

1. “Bu əzəmətli, dərin və dalğalanan Dərya” ifadəsi nəyə işarədir? ________________

   ________________________________________________________________

2. Bu dərya bizə nə qədər yaxındır? ________________________________________

   ________________________________________________________________

3. Bu dəryaya biz nə qədər tez yetişə bilərik? ________________________________

   ________________________________________________________________

4. Aşağıdakı cümlələri tamamlayın:

   a. Həzrət Bəhaullahın Vəhyinin bu əzəmətli dəryası bizə ____________________ ________________ yaxındır.

   b. Həzrət Bəhaullahın Vəhyinin dəryası şah damarımızdan da ________________.

   c. Əgər istəsək, biz ______________________________ Onun Vəhyinin dəryasına ______________ və ondan ________________________________.

   d. ________________ biz bir göz qırpımında yetişib Onun Vəhyinin dəryasından nəsibimizi ala bilərik.

## BÖLMƏ 4

Həzrət Bəhaullahın Vəhy dəryasının sahilinə yetişdikdən sonra biz onun xəzinələrindən istifadə edir və bizim öz öyrənməmizdə, dua və meditasiyamızda, Onun Əmrinə və bəşəriyyətə xidmət səylərimizdə davamlı olaraq kəşf etdiyimiz ilahi hidayət gövhərlərini səxavətlə və qeyd-şərtsiz olaraq başqaları ilə bölüşürük. Siz aşağıdakı parçanı, bu vəzifənin müqəddəsliyini daim xatırladan sözləri əzbərləmək üçün bir qədər vaxt ayırmaq istəyə bilərsiniz:

> **"Ey Allah yolunun yolçusu! Onun fəzl dəryasından öz qismətini al və özünü onun dərinliklərində gizlənmiş şeylərdən məhrum etmə. Onun xəzinələrindən nəsibini alanlardan ol. Bu dəryadan bircə qətrə, göylərdə və yerdə olanların üzərinə səpilsə, Qüdrət Sahibi, Hər Şeyi Bilən, Hikmət Sahibi Allahın kəraməti ilə onları zəngin etməyə kifayət edər. Təmənnasızlıq əlləri ilə onun həyatverici sularından götür və bütün yaradılmışların üzərinə səp ki, onlar bütün bəşəri məhdudiyyətlərdən təmizlənib, Allahın qüdrətli taxtına, bu müqəddəs və nurlu Məkana yaxınlaşsınlar".[9]**

## BÖLMƏ 5

Biz institut kursları boyunca onların tələb etdiyi öyrənmə və hərəkətləri yerinə yetirərək irəlilədikcə xidmət üçün bizim qabiliyyətimiz artacaq, ürəyimizə sonsuz sevinc bəxş edən və ikili məqsədimizi yerinə yetirməkdə bizə kömək edən xidmət aktlarını – uşaqların ruhani təlim-tərbiyələri üçün dərslərin aparılması, ruhani güclənmələri üçün yeniyetmələrin proqrama cəlb olunmaları və əsas ardıcıllığın kitablarını öyrənməkdə dostlar qrupuna kömək etmək kimi aktları – üzərimizə götürməyə qabil olacağıq. Bütün bu səyahət ərzində başqaları ilə, həm gənc, həm də yaşlılarla bölüşəcəyimiz Allah Kəlamı bizim üçün sabit bir ilham mənbəyi olacaqdır. Odur ki, bizim onun gücü və onun insan qəlbinə təsiri üzərində tez-tez düşünməyimiz sadəcə zərurətdir. Həzrət Bəhaullah aşağıdakı sitatda bu gücdən bəhs edir:

> **"Allahın Kəlamı insanların qəlblərinə əkilmiş fidana bənzər. Siz gərək onu hikmətin, arınmış və müqəddəs sözlərin kövsəri ilə bəsləyib böyüdəsiniz ki, onun kökləri bərkisin, budaqları isə fələkləri ötüb keçsin".[10]**

1. Allahın Kəlamı nə ilə qiyaslana bilər? ________________________________________

   ____________________________________________________________________________

2. Allah Kəlamı ağacının kökləri harada əkilmişdir? ______________________________

   ____________________________________________________________________________

3. Bu ağacın böyüməsini biz necə bəsləyə bilərik? ________________________________

   ____________________________________________________________________________

4. Bu ağac hansı yüksəkliyə qədər ucala bilər? ____________________________________

   ____________________________________________________________________________

5. Allah Kəlamının başqaları ilə bölüşülməsinin niyə olduqca vacib bir şey olmasını bir neçə cümlə ilə izah edin.

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

## BÖLMƏ 6

Gəlin bizim gündəlik həyatımızı məşğul edən müxtəlif fəaliyyətlər barəsində düşünək. Biz bədənimizi bəsləyirik. Bilik əldə etmək üçün oxuyuruq və əqli qabiliyyətimizi artırırıq. Biz işləyir və bizi cəmiyyətin faydalı üzvləri kimi yaşamağa qadir edən qabiliyyətləri inkişaf etdiririk. İdmanla məşğul olur, istirahət edirik. Hamısı bizim intellektual tərəqqimiz və maddi rifahımız üçün vacib olan bu kimi çoxlu fəaliyyətlər vaxtımızın böyük hissəsini alır. Bununla yanaşı, hər gün biz dua edəndə; ilahi təlimlər barəsində biliklərimizi tək, yaxud başqaları ilə birlikdə dərinləşdirəndə; saysız-hesabsız yollarla ətrafımızdakı insanlara Həzrət Bəhaullahın Vəhy dəryasında gizlənən gövhərləri kəşf etməkdə kömək edəndə ruhaniyyətlə yüklənmiş xüsusi anlar da vardır. Bu anlar ölçüyəgəlməz dərəcədə qiymətli anlar deyilmi? Bu səmavi xeyir-bərəkətlərdən pay almağa qabil olmaqdan daha böyük bir sevinc ola bilərmi?

Biz həmişə Həzrət Əbdül-Bəhanın özümüzü bəşəriyyəti yüksəltməyə həsr etməyə bizi necə təşviq etdiyini xatırlamalıyıq:

> **“Bizim hamımız vahid İlahi məqsəd ətrafında birləşmişik, bizim heç bir maddi niyyətimiz yoxdur və bizim ən əziz arzumuz Allahın Məhəbbətini dünya boyunca yaymaqdır!”[11]**

Fərz edək ki, Bölmə 1-dən əzbərlədiyiniz sitatlardan birini bir dostunuzla paylaşmaq imkanı üzə çıxır. Ürəyinizdə hiss etdiyiniz sevinc haradan gəlir? Təbii olaraq, siz dostunuzun Həzrət Bəhaullahın sözlərindən ruhlanacağına ümid edirsiniz. Amma əgər o sizin gözlədiyiniz şövqü göstərməsə, onda necə? Sizin ürəyinizdəki sevinc sadəcə olaraq yoxa çıxacaq? Nə üçün yox?

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

## BÖLMƏ 7

Biz həyatımızda etdiyimiz bütün şeylər haqqında düşünərkən Allahın Kəlamını başqaları ilə paylaşaraq keçirdiyimiz anlara xüsusi bir xeyir-bərəkət əta edildiyini başa

düşəndə çox əhəmiyyətli bir qənaətə gəlirik: bizim xidmətdən əldə etdiyimiz sevinc elə aktın özündədir. Əlbəttə, biz ümid edirik ki, bizim yerinə yetirdiyimiz xidmət aktları dəyərli nəticələr verəcəkdir, lakin əgər biz nəticələrə həddən artıq çox bağlansaq, əgər biz tərif və tənqiddən həddən çox təsirlənsək, onda təbliğ sevincini itirəcəyik. Bizi xidmətə ruhlandırmalı olan şey müvəffəq olmaq, fayda əldə etmək, yaxud tanınmaq arzusu deyil, Allaha məhəbbətdir. Bütün bunlardan inqita etmək sevincli xidmətin zəruri şərtidir. Aşağıdakı sitatları oxumaq bu mövzu üzərində düşünməkdə sizə kömək edəcək:

> **"Ey İki Gözün Sahibi! Bir gözünü yum və digərini aç: Birini yum, dünyaya və dünyada olanlara. Digərini aç, Cananın müqəddəs Camalına".[12]**

> **"Ey Dostlar! Əbədi Gözəlliyi fani gözəlliyə dəyişməyin və bu ötəri torpaq dünyasına könül bağlamayın".[13]**

> **"Ey Bəyan Oğlu! Üzünü Üzümə çevir, Məndən başqa hər şeydən imtina et; çünki Mənim hökmranlığım əbədidir, heç vaxt zaval tapmaz və Mənim səltənətim daimidir, əsla dağılmaz. Məndən başqasını axtarsan, kainatı əzəldən əbədə qədər arasan da, axtarışların əbəsdir".[14]**

> **"Ey Yeganəyə Biganə! Ürəyinin şamı Mənim qüdrət əlimlə yandırılıb. Onu nəfs və ehtirasın müxalif külələri ilə söndürmə. Sənin bütün xəstəliklərinin təbibi Mənim zikrimdir, onu unutma. Məhəbbətimi özün üçün sərvət bil, onu gözün və canın kimi əziz saxla".[15]**

> **"İnqita günəş kimidir; hansı ürəkdə parlarsa, tamah və nəfs odunu məhv edər. Anlayış nuru ilə gözləri işıqlanan kəs, şübhəsiz, dünya və onun faniliklərindən inqita edəcəkdir... Dünya və onun rəzaləti sizi kədərləndirməsin. Xoşbəxtdir o kəs ki, sərvət onu lovğa etmir, kasıblıq onu kədərləndirmir".[16]**

1. Bu dünyadan inqita etmək dərviş kimi yaşamaqmı deməkdir? ___________________

2. Bu dünyadan inqita etmək və eyni zamanda nələrəsə malik olmaq mümkündürmü? ________________________________________________________________________

3. Həyatının faktiki olaraq hər bir saatını işinə həsr edən bir şəxs bu dünyaya aid şeylərdən inqita etmişdirmi? ________________________________________________

4. Ancaq təməl ehtiyaclarını ödəmək üçün işləyən və qalan vaxtda heç nə etməyən bir şəxs bu dünyadan inqita etmişdirmi? ________________________________________

5. Xidmət meydanında maddi narahatlığa dözə bilməyən bir şəxs bu dünyadan inqita etmişdirmi? ______________________________________________________________

6. Maddi mal-mülkdən əlavə bizim bağlana biləcəyimiz çoxlu başqa şeylər də vardır. Siz nəyə bağlanmış olardınız, əgər siz:

– bir xidmət aktını yerinə yetirir və heç kim xidmətinizi vurğulamadıqda xidmətinizdən geri durmaq istəsəydiniz? _______________________________
_________________________________________________________________

– irəli sürdüyünüz ideyaları kimsə qəbul etmədikdə ruhdan düşsəydiniz? _________________________________________________________________

– başqaları tərəfindən rədd edilmə qorxusundan inancınızı gizlətsəydiniz? _________________________________________________________________

7. İnqita biganəlik və ya laqeydlik demək deyil. Aşağıdakılardan hansılar kiminsə inqita etmədiyinin bir əlaməti ola bilər?

_____ Başqalarının inkişafını görməkdən sevinc almaq

_____ Bir neçə uşağın davranışı yaxşı olmayanda uşaq dərsini dayandırmaq

_____ Öz nailiyyətləri ilə öyünmək

_____ Ciddi səylə oxumaq və öz irəliləyişindən məmnuniyyət duymaq

_____ Ümumi rifaha xidmət etmək üçün qabiliyyətini inkişaf etdirmək məqsədilə ciddi səylə işləmək

_____ Öz məşğuliyyətində mükəmməlliyə can atmaq

_____ Təmizkar olmaq və evi təmiz və səliqəli saxlamaq

_____ Öz əşyalarının qayğısına qalmaq

_____ Başqalarının rifahının qayğısına qalmaq

_____ Qoyduğu səylərə görə tərif almayanda ruhdan düşmək

8. İnqita hər birimiz üçün o qədər vacibdir ki, təklif edirik, bu bölmədəki sitatları əzbərləyəsiniz.

## BÖLMƏ 8

Bəşəriyyətə xidmətin nəşəli həyatının nemətlərini almaq üçün biz səy qoymaq istəməliyik və bu vaxt bizim səylərimiz müəyyən bir dərəcədə fədakarlıq tələb edə bilər. Biz gündəlik həyatımızda “fədakarlıq” sözünü tez-tez işlədirik. Əgər dostumuz sübh çağı səfərdən qayıdırsa, biz ertədən oyanıb onu qarşılaya bilərik. Deyə bilərik ki, bir neçə saatlıq yuxumuzu fəda etdik. Bizə əziz olan bir şəxs xəstələnir; əyləncə ilə keçirə biləcəyimiz bir neçə saatlıq vaxtımızdan keçib onun qayğısına qala bilərik. Həyatda elə hallar olur ki, biz son dərəcə

gərgin işləməli oluruq və bu vaxt düşünə bilərik ki, hədəfimizə nail olmaq üçün rahatlığımızı qurban veririk.

Bizim hamımızda vaxt və enerjimizi, mümkün qədər maddi resurslarımızın bir hissəsini səxavətlə verərək Əmrə xidmət etməklə bağlı çox dərin bir istək vardır. Bunu edərkən yadda saxlamalıyıq ki, xidmət yolunda bu dünyaya aid olan şeyləri qurban verə bilərik, lakin bizim ruhani cəhətdən böyüdükcə aldığımız şey əsl sevincdir. Gələcək kurslarda fədakarlığın təbiəti üzərində daha çox düşünmək üçün fürsətimiz olacaqdır. Lap əvvəldən etiraf edilməsi vacib olan şey budur ki, fədakarlıq yüksək olanın xatirinə aşağı olan şeydən imtina etməkdir, necə ki, bir ağacın doğulması üçün toxum özünü qurban verir. Fədakarlıq sevinc daşıyıcısıdır və ardıcıl səy qoymaq istəməyincə bu sevinc bizim olmayacaq.

Həzrət Bəhaullah təsdiq edir:

> **“Əgər biz Onu axtarmaq istəyiriksə, zəhmət lazımdır; əgər Onunla vüsal şərbətini içmək istəyiriksə, canfəşanlıq gərəkdir; əgər biz bu qədəhdən içsək, dünyanı atarıq”.**[17]

Həzrət Əbdül-Bəha isə bizə nəsihət edir:

> **“... dincəlməyin, sakitlik axtarmayın, bu müvəqqəti dünyanın cah-calalına könül verməyin, özünüzü hər bir bağlılıqdan azad edin, cani-dildən çalışın ki, Allahın Mələkutunda möhkəm yer tutasınız. Səmavi xəzinələri toplayın. Günbəgün daha nurani olun. Birlik astanasına daha və daha da yaxınlaşın”.**[18]

Bizim hamımız inanırıq ki, məqsədlərimizə çatmaq üçün biz səy qoymalıyıq. Lakin bu sadə inamın əməldə müəyyən mənaları vardır ki, biz onları unutmamalıyıq. Məsələn, bunu yadda saxlamaq lazımdır ki, tələb olunan enerji ilə qarşıdakı hədəf və ya vəzifənin çətinliyi arasında bir uyğunluq vardır. Əgər biz o vəzifəyə daha az enerji ilə nail olacağımızı düşünürüksə, özümüzü aldadırıq. Lakin nəzərə alınmalı olan yeganə amil səyin miqyası deyildir. Ardıcıllıq və əzmkarlığa da ehtiyac vardır. Fokuslanmaq tələb olunur. İşi yarımçıq saxlamadan, birindən o birisinə keçmədən onu sona çatdırmaq vərdişi mühümdür. Yarıkönül səy səmərə vermir. Uşaqların ruhani təlim-tərbiyəsi üçün həftəlik dərsləri təsəvvürünüzə gətirin. Müəllim hər bir dərsə hazırlaşmaq üçün müəyyən saat vaxt sərf etməli, dərsin məzmununu başa düşməkdə şagirdlərə kömək etmək üçün dərs boyu bütün diqqətini cəmləşdirməli, uşaqların valideynlərini müntəzəm ziyarət etməli və həftələr ötdükcə onların fərdi inkişafını izləməlidir. Müəllimin dərsə ancaq aradabir hazırlaşdığı, yorulanda dərsi tez, yaxud qəfildən bitirdiyi, hər bir uşaq haqqında düşünmək və onların inkişafını valideynlərlə müzakirə etmək üçün kifayət qədər vaxt ayırmadığı bir sinfin aqibəti necə olar? Müəllim hər dəfə başqa bir öhdəliyi yerinə yetirmək istəyəndə, deyək ki, şəhər kənarından gələn dostla görüşmək üçün dərsi eləcə ləğv etsə nə olar?

Bu bir neçə qeyd bizi buna inandırmaq üçündür ki, biz üzərimizə götürdüyümüz hər bir fəaliyyətin tələb etdiyi səyin həm kəmiyyətinə, həm də keyfiyyətinə diqqət yetirməliyik. Bu, təkcə bizim məşğul olduğumuz xidmət aktlarına münasibətdə doğru deyil; eyni dərəcədə bizim öz inkişafımıza da aiddir. Hətta bu silsilənin birinci kitabında nəzərdən keçirdiyimiz ruhani vərdişlər – müntəzəm dua oxumaq, hər gün Yazıları oxumaq, həyatımızı təlimlərlə necə uyğunlaşdırmaq barəsində düşünmək, sidqi-ürəklə dua yığıncaqlarında iştirak etmək – də davamlı səydən asılıdır. Aşağıda səyə aid bir sıra müddəalar verilir. Hansılarının doğru

olması barədə qərar vermək bu məsələ barəsində daha dərindən düşünməkdə sizə kömək edəcək:

_____ Əgər siz ağıllısınızsa, gərgin işləməyə ehtiyac yoxdur.

_____ Nə üçün uzun yolla gedək; həmişə qısa yol tap.

_____ İşləməyən dişləməz.

_____ Böyük xəyallar qurun; arzularınız çin olacaq.

_____ Çəkilən zəhmət nə qədər böyükdürsə, mükafat da o qədər böyükdür.

_____ Zəhmət böyük olduqca mükafat şirin olar.

_____ Əgər ilk dəfədən uğur gəlmirsə, dəfələrlə cəhd et.

_____ Bir işi nə üçün görəsən, əgər başqaları onu sənin üçün görə bilərlərsə?

_____ Əgər bir şey çox əmək tələb edirsə, ona dəyməz.

_____ Tez-tez və davamlı kiçik addımlar uzağa aparar.

_____ Dəyərli olan heç nə asanlıqla başa gəlmir.

_____ Mükəmməllik cani-dildən həsretmə tələb edir.

_____ Min kilometrə səyahət tək bir addımdan başlayır.

_____ Yola vermək kifayət deyil.

_____ Biz nələrinsə olmasını gözləməməliyik, biz onların baş verməsinə çalışmalıyıq.

_____ Uğur bəxt məsələsidir.

_____ Biz ikili məqsədimizə sehrlə nail ola bilmərik.

_____ Biz hər gün özümüzü haqq-hesaba çəkməliyik.

Biz öz ruhani və intellektual inkişafımıza nail olmaq və cəmiyyətin transformasiyasına töhfə vermək üçün çalışaraq xidmət yolu ilə gedirik. Aydındır ki, bu ikili məqsədin arxasınca getmək bizim tərəfimizdən xeyli dərəcədə səy tələb edir. Həzrət Bəhaullah bizə buyurur:

> **“Bənzərsiz Yaradan bütün insanları eyni bir maddədən yaratmış və onların gerçəkliyini qalan bütün yaranmışlardan üstün etmişdir. Ona görə də müvəffəqiyyət və ya uğursuzluq, qazanc və ya itki insanın öz səyindən asılıdır. O nə qədər çox çalışsa, o qədər də çox tərəqqi edəcəkdir”.**[19]

Əgər hələ əzbərləməmişsinizsə, yuxarıdakı parçanı indi əzbərləyə bilərsiniz.

# BÖLMƏ 9

Xidmətdən sevinc duya bilmək üçün özümüzdə müəyyən münasibətləri bəsləməliyik. Məsələn, Allah bizə xidmət neməti bəxş etdiyi üçün bizdə şükranlıq münasibəti olmalıdır; bunu ağla belə gətirmək mümkün deyil ki, Onun Əmrinə xidmət etməklə biz Allaha bir xeyirxahlıq etmiş oluruq. Biz, həmçinin, bədbinlikdən qaçmağı öyrənməli və həyata nikbin bir baxışla yanaşmalıyıq. Xidmət yolundakı büdrədən daşlar tərəqqini irəlilətmək üçün tramplinə çevrilə bilər. Hətta çətinliklərin arasında belə biz gələcəyə iman gözləri ilə baxırıq. Həzrət Əbdül-Bəhanın aşağıdakı sözləri bizim səylərimizi səciyyələndirməli olan ümid və nikbinliyə işarə edir:

> **"Başlanğıcda toxum necə də kiçikdir, sonda isə o əzəmətli bir ağac olur. Siz toxuma baxmayın, ondan böyüyən ağaca, onun çiçəklərinə, yarpaqlarına və meyvələrinə baxın".**[20]

> **"Ona görə də bu kiçicik toxumun həyati əhəmiyyətini anla – onu həqiqi Əkinçi Özünün mərhəmət əlləri ilə Rəbbin şumlanmış tarlasına əkib, onu bəxşiş və feyz yağışları ilə sulayıb, indi isə Həqiqət Günəşinin istisi və nuru ilə onu bəsləyib yetişdirir".**[21]

> **"Siz böyüyən və inkişaf edən bir ağac görəndə onun bəhrəsinə ümidvar olun. Sonda o çiçək açacaq və bar verəcək. Əgər siz quru odun və yaşlı ağac görürsünüzsə, hər hansı bir meyvəyə ümid yoxdur".**[22]

> **"Ona görə də Allahın sevimliləri zəhmətkeşliklə, cəhd suları ilə bu ümid ağacını suvarmalı, bəsləməli və becərməlidirlər".**[23]

> **"Əgər qəlb Allahın verdiyi bərəkətlərdən üz döndərirsə, o, xoşbəxtliyə necə ümid edə bilər? Əgər o, ümidini və etibarını Allahın mərhəmətinə bağlamırsa, o harada dinclik tapa bilər?"**[24]

Yuxarıdakı parçalar üzərində düşünmək üçün aşağıdakı cümlələri tamamlayın:

1. Başlanğıcda toxum necə də kiçikdir, sonda isə ______________________________
______________________________________________

2. Biz kiçicik toxuma deyil, ______________________________________baxmalıyıq.

3. Ona görə də biz Allahın Öz mərhəmət əlləri ilə ____________________________
_________________________________________________________________________
_________________________________________________________________________
__________________________________ kiçicik toxumun əhəmiyyətini anlamalıyıq.

4. Biz bir ağacın böyüyüb inkişaf etdiyini görəndə ____________________________
_________________________________.

5. Biz bir ağacın böyüyüb inkişaf etdiyini görəndə ümidvar olmalıyıq ki, o _________ ____________________________________________.

6. Cəhd suları ilə biz ______________________________________________________ ____________________________________________.

7. Əgər qəlb Allahın verdiyi bərəkətdən üz döndərirsə, ________________________ ____________________________________________?

8. Əgər qəlb ümid və etibarını Allahın mərhəmətinə bağlamırsa, ___________________ ____________________________________________________________?

İndi isə bir anlığa düşünün: Razılaşırsınızmı ki, bizim sevincli və ümidli ruhumuz təvazökar minnətdarlıq halıti ilə birləşəndə başqalarına sevinc mənbəyi olur? Və gəlin həmişə yadda saxlayaq ki, Əmrə xidmətə qalxanda biz yeni Günün, bəşəriyyətin bir yerə toplaşacağı Günün doğuluşunun müjdələrini daşıyırıq. Qoy Həzrət Bəhaullahın sözləri bizim qəlblərimizdə əks-səda versin:

> **“Bəxtiyardır hərəkət edənlər; bəxtiyardır anlayanlar; bəxtiyardır göylərdə və yerdə olan hər şeydən inqita edərək həqiqətdən yapışanlar”.**[25]

# İSTİNADLAR


1. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr* (Wilmette: Bahai Publishing Trust, 1983, 2017 nəşri), CLIII, hissə. 5, s. 369.

2. Yenə orada., CXXXII, hissə. 3, s. 326.

3. Həzrət Bəhaullah, *Gizli Kəlamlar* (Wilmette: Bahai Publishing Trust, 2003, 2012 nəşri), Ərəbcə №. 2, s. 3.

4. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CVI, hissə. 1, s. 241.

5. Yenə orada., CIX, hissə. 2, s. 243.

6. Həzrət Bəhaullah, Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən tərtib edilmiş *Qadınlar: Həzrət Bəhaullahın, Həzrət Əbdül-Bəhanın, Şövqi Əfəndinin və Ümumdünya Ədalət Evinin Yazılarından Çıxarışlar*-da (Wilmette: Bahá'í Publishing Trust, 1986, 1997 nəşri), №. 53, s. 26.

7. *Gizli Kəlamlar*, Ərəbcə №. 11, s. 6.

8. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CLIII, hissə. 5, s. 370.

9. Yenə orada., CXXIX, hissə. 1, s. 316.

10. Yenə orada., XLIII, hissə. 9, s. 109.

11. 19 noyabr 1911-ci il tarixində edilmiş söhbətdən, *Paris Söhbətləri: Həzrət Əbdül-Bəhanın 1911 Xitabları*-nda çap edilib (Wilmette: Bahai Publishing, 2006, 2016 nəşri), №. 32.2, s. 121.

12. *Gizli Kəlamlar*, Farsca №. 12, s. 26.

13. Yenə orada., Farsca №. 14, s. 26.

14. Yenə orada., Ərəbcə №. 15, s. 7.

15. Yenə orada., Farsca №. 32, s. 33.

16. Həzrət Bəhaullah, *Bəhai Dünyası: Birinci Cild, 1925–1926*-da (Wilmette: Bahá'í Publishing Trust, 1926, 1980 nəşri), s. 42.

17. *İlahi Məhbubun Çağırışı: Həzrət Bəhaullahın Seçilmiş Sirli Əsərləri* (Hayfa: Bəhai Dünya Mərkəzi, 2018), №. 2.12, s. 17.

18. *İlahi Planın Lövhləri: Həzrət Əbdül-Bəhadan Şimali Amerika Bəhailərinə Bəyan Edilənlər* (Wilmette: Bahai Publishing Trust, 1993, 2006 nəşri), №. 13.6, s. 95–96.

19. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, XXXIV, hissə. 8, s. 91.

20. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr* (Wilmette: Bahai Publishing, 2010, 2015 nəşri), №. 40.3, s. 118–19.

21. Yenə orada., №. 40.3, s. 119.

22. 11 may 1912-ci il tarixində edilmiş söhbətdən, *Ümumdünya Sülhünün Elanı: Həzrət Əbdül-Bəhanın 1912-ci ildə ABŞ və Kanadaya Səfəri Zamanı Çatdırdığı Söhbətlər*-də çap edilib (Wilmette: Bahai Publishing, 2012), hissə. 2, s. 153.

23. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, №. 206.13, s. 356–57.

24. Həzrət Əbdül-Bəhanın 21 noyabr 1911 tarixində etdiyi söhbətdən, *Paris Söhbətləri*-ndə çap edilib, №. 34.8, s. 133.

25. Həzrət Bəhaullah, *Qurdun Oğluna Məktub* (Wilmette: Bahá'í Publishing Trust, 1988, 2016 nəşri), s. 139.



# Ruhyüksəldici Söhbətlər

## Məqsəd

Ruhani prinsipləri söhbətə daxil etmək üçün qabiliyyətin əldə edilməsi

## BÖLMƏ 1

Bu kitabın birinci fəslində biz Allah Kəlamını başqaları ilə bölüşmək aktından aldığımız sonsuz sevincdən bəhs etdik. Xidmət yolu ilə addımladıqca, Həzrət Bəhaullahın Vəhyindən aldığımız bəsirətləri dost və tanışlarımızla müzakirə etmək üçün bir sıra fürsətlərlə qarşılaşırıq. Bizi mənalı və ruhyüksəldici söhbətlərə töhfə verməyə qadir edən qabiliyyətlər hamımızın inkişaf etdirməli olduğumuz ən mühüm qabiliyyətlər arasında yer alır. Bu fəslin və növbəti fəslin məqsədi bu cəhətdən sizə kömək etməkdir. Burada sizin qayğınız vəziyyət tələb edəndə ruhani prinsiplərə istinad etməklə söhbətin səviyyəsini necə yüksəltmək olacaqdır. Növbəti fəsildə siz kəndiniz və ya qonşuluğunuzda canlı bir icma yaratmaqla bağlı sistematik səylərinizin bir hissəsi kimi, müəyyən mövzularda silsilə söhbətlər başladıb davam etdirmək barədə düşünəcəksiniz.

Qarşıdakı bölmələrdə biz müxtəlif mövzularda, dəqiq sitatlar olmasa da, hamısının Həzrət Əbdül-Bəhanın söhbət və Lövhlərinə əsaslandığı və Onun istifadə etdiyi çoxlu ifadələri ehtiva etdiyi bir sıra müddəalara baxacağıq. Siz hər bir müddəanı bir neçə dəfə oxumalı, ideyalar ardıcıllığını müəyyən etməli və qrupunuzun digər üzvləri ilə növbələşərək onları ucadan o qədər söyləməlisiniz ki, ideyaları təbii surətdə ifadə edə biləsiniz. Bu çalışma, münasib olanda, müzakirəni irəli aparmaq üçün Əmrin təlimlərindən istifadə edərkən rahat danışmağa hazırlaşmaqda sizə kömək edəcəkdir.

Bu fəsildə siz, əlbəttə, Yazılardan parçaları əzbərləməyə davam edəcəksiniz, çünki onlar insanın qəlbinə nüfuz edən xüsusi gücə malikdir və sizin nitqinizlə çuğlaşanda onları dinləyənə dərindən təsir edir. Amma söhbətdə Yazılardan sitat gətirmək özü də hikmət tələb edir. Mötədillik zəruridir, yəni Əmrin təlimlərini izah etmək üçün Yazılardan birbaşa sitat gətirmək və öz sözlərimizdən istifadə etmək arasında bir tarazlığın olması gərəkdir. Bu tarazlığa nail olmaq üçün Yazıları öyrənməli və sizin fikir və hisslərinizi formalaşdırması üçün buna xeyli dərəcədə vaxt və enerji sərf etməlisiniz.

## BÖLMƏ 2

Öyrənilməli olan birinci müddəa bəşəriyyətin Tərbiyəçiyə olan ehtiyacı barəsindədir.

Mövcudata baxanda görürük ki, minerallar, bitkilər, heyvanlar və insan aləmi – bunların hamısının tərbiyəçiyə ehtiyacı vardır. Bağın bağbana ehtiyacı vardır. Bol məhsul verməsi üçün torpağın əkinçiyə ehtiyacı vardır. Əgər insan vəhşi təbiətdə tənha buraxılsa, o, heyvani davranış əldə edəcəkdir. Əgər o, tərbiyə alsa, ən yüksək dərəcədə yetkinliyə nail ola bilər. Əgər tərbiyəçilər olmasaydı, sivilizasiya da olmazdı.

Təlim-tərbiyənin üç növü vardır: maddi, humanitar və ruhani. Maddi təlim-tərbiyə bədənin inkişafı ilə bağlıdır. Humanitar təlim-tərbiyə sivilizasiya və tərəqqi ilə əlaqədardır. Bu, idarəetmə, sosial nizam, insan rifahı, ticarət və sənaye, incəsənət və elm, mühüm kəşflər və nəhəng təşəbbüslərlə bağlıdır. Ruhani təlim-tərbiyə ilahi kamilliklərin qazanılmasından ibarətdir. Bu, əsl təlim-tərbiyədir, çünki onun köməyilə insan varlığının ruhani təbiəti, yüksək təbiəti inkişaf etdirilir.

Bəşəriyyətin tərəqqi etməsi üçün maddi, humanitar və ruhani tərbiyəçi kimi aydın səlahiyyəti olan bir tərbiyəçiyə ehtiyacı vardır. Kimsə: "Mən böyük zəkaya malikəm və belə bir tərbiyəçiyə ehtiyacım yoxdur" deyərsə, o, aşkar olan bir şeyi inkar etmiş olar. Bu, bir uşağın "mənim təlim-tərbiyəyə ehtiyacım yoxdur; mən öz düşüncəmə və ağlıma görə hərəkət edəcəyəm və özüm də mükəmməlliyə yetişəcəyəm" deməsinə oxşayır.

Bəşəriyyətin həmişə belə kamil bir tərbiyəçiyə, bədənin bəslənməsi və sağlamlığına dair məsələlərin təşkilində kömək edən, biliyi, ixtira və kəşfləri irəli aparmağa ilhamlandıran, ən əsası, ona ruh həyatı üfürən bir tərbiyəçiyə ehtiyacı olmuşdur. Heç bir sıravi insan bu cür nəhəng vəzifənin öhdəsindən gələ bilməz. Yalnız Allahın Məzhərləri buna nail olmaq qüdrətinə malikdirlər. Onlar bəşəriyyətin universal Tərbiyəçisi olmaq üçün Allah tərəfindən zaman-zaman göndərilən seçilmiş Ruhlardır.

1. Müddəanı qrupunuzda bir neçə dəfə oxuyun və onun məzmununu yaxşı öyrənməkdə bir-birinizə kömək edin. Siz təqdim olunan ideyalarla bağlı bir-birinizə suallar verməli və onları təbii şəkildə və asanlıqla ifadə edə bilmək üçün çalışmalısınız.

2. Sonra burada ifadə etməyi öyrəndiyiniz ideyaların söhbətə necə daxil edilə biləcəyini qrupunuzda müzakirə edin. Aydındır ki, siz gedib birdən-birə dostlarınıza üç növ tərbiyə olduğunu deməyəcəksiniz. Ona görə də hələlik yaxşı olardı ki, yuxarıdakı ideyaların yerinə düşəcəyi ünsiyyət tipləri barəsində düşünəsiniz. Bəlkə də müzakirə mövzusu cəmiyyətin mənəvi-əxlaqi tənəzzülü məsələsi, yaxud dünyanın yaxşılaşdırılması üçün necə işləyə biləcəyimiz ola bilər. Dostlarınız, ailə üzvləriniz və tanışlarınızla etdiyiniz müxtəlif söhbətlər üzərində düşünün. Onların fikrini məşğul edən məsələlər arasında elələri varmı ki, bu müddəadakı ideyalar ətrafında müzakirələrin predmeti ola bilsin?

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

3. Sizin yenicə öyrəndiyiniz mövzuya oxşar mövzular ətrafındakı söhbətlərdə çox vaxt suallar baş qaldırır. Əgər kimsə sizdən: "Haqqında danışdığınız Tərbiyəçilər kimlərdir?" – deyə soruşsa, siz nə cavab verərdiniz?

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

4. Aşağıda bəşəriyyətin Tərbiyəçiyə olan ehtiyacı ilə bağlı Həzrət Bəhaullahın Yazılarından bir neçə sitat verilir. Onların üzərində düşünün və ən azı birini əzbərləyin. Bu yolla, siz Yazılardan parçaları münasib olanda nitqinizlə çulğalaya biləcəksiniz.

**"Bütün insanlar daim inkişafda olan sivilizasiyanı irəli aparmaq üçün yaradılmışlar".**[1]

**"Tək Haqqın, şanı ucalsın Onun, Özünü insanlara zahir etməkdə Məqsədi onların həqiqi və batini varlıqlarının mədənində gizli olan cəvahirləri aşkara çıxarmaqdır".**[2]

**"Peyğəmbərlərini insanlara göndərməkdə Allahın iki məqsədi vardır. Birincisi, insan övladını cəhalət zülmətindən azad etmək və onları həqiqi anlayış işığına hidayət etməkdir. İkincisi isə bəşərin əmin-amanlığını və dincliyini təmin etmək və bunları təsis etmək üçün lazım olan bütün vasitələri verməkdir".**[3]

**"İnsanların hər zaman və hər bir şəraitdə onlara nəsihət verən, yol göstərən, təlim verən və öyrədən bir kəsə ehtiyacları var".**[4]

## BÖLMƏ 3

Aşağıdakı abzaslar Allahın necə yalnız Öz Məzhərləri vasitəsilə tanına biləcəyini təsvir edir və bu, dostlarınızla söhbət edərkən sizə kömək edəcəkdir:

Sonsuz kainata baxın. Mümkündürmü ki, o, bir Yaradan olmadan yaradılmış olsun? Yaxud Yaradanın mahiyyəti yaratdıqları tərəfindən dərk edilə bilsin? Əgər biz bütün xilqəti müşahidə etsək, görərik ki, aşağı olan şey yüksəkdə dayananın gücünü dərk etməyə qabil deyil. Belə ki, daş və ya ağac nə qədər inkişaf etsələr də, görmə və eşitmə qabiliyyətlərini təsəvvür edə bilməzlər. Heyvan heç vaxt insanın mahiyyətini anlaya və insan ruhunun güclərindən agah ola bilməz. Belə olan halda, bizlər, yaradılmış varlıqlar bizim Yaradanımızın mahiyyətini necə dərk edə bilərik?

Baxmayaraq ki, bizim anlayışımız heç vaxt Allaha yetişə bilməz, amma Onu tanımaqdan da məhrum edilməmişik. Yer üzündə zaman-zaman Allahın Məzhəri olan xüsusi bir Varlıq meydana çıxır. Günəşin şüaları təmiz və cilalanmış bir güzgüdə əks olunduğu kimi, Allaha məxsus bütün kamilliklər, kəramət və calal da bu Müqəddəs Məzhərlərdə təzahür edir. Güzgünün günəşi əks etdirdiyini söyləmək o demək deyil ki, günəş öz yüksəkliyindən enmiş və güzgüyə daxil olmuşdur. Eynilə də, Allah müqəddəslik səmasından bu mövcudat aləminə enmir. Nəzərdə tutulan məna budur: Allahın ad və sifətləri barəsində bəşərin bildiyi, öyrəndiyi və dərk etdiyi hər şey bu Müqəddəs Məzhərlərin adı ilə bağlıdır.

1. Bu müddəanı qrupunuzda bir neçə dəfə oxuduqdan və onun məzmunu üzrə bir-birinizə verdiyiniz sualları cavablandırdıqdan sonra siz buradakı ideyaları asanlıqla söyləyə bilmək üçün praktika etməlisiniz.

2. İndi isə burada öyrəndiyiniz ideyaları söhbətə təbii surətdə necə daxil edə biləcəyinizi qrupunuzda müzakirə edin. Məsələn, bu, Allahın mövcudluğu və ya həyatın məqsədi haqqında müzakirədə asanlıqla edilə bilərdi. Ailəniz və dostlarınız arasındakı söhbətdə meydana çıxan, bu ideyaları bölüşmək üçün sizə fürsət verən hansı başqa mövzu və suallar vardır?

3. Fərz edək ki, dostlarınızla etdiyiniz bir söhbətdə yenicə öyrəndiyiniz ideyaları təqdim etmək fürsətiniz vardır. Əgər onlardan biri sizə: "Məzhərləri vasitəsilə bizim Allah haqqında bildiyimiz bəzi şeylər nələrdir?" – sualını versəydi, siz ona necə cavab verərdiniz?

4. Siz Həzrət Bəhaullahın Yazılarından aşağıdakı parçalardan birini, yaxud bir neçəsini əzbərləmək istəyə bilərsiniz ki, bu mövzuda dostlarınızla danışanda onlardan iqtibas edə biləsiniz.

**"Həqiqət Günəşindən gələn bu nurlu Varlıqları tanımayınca və onlara yetişməyincə Hər şeyin Başlanğıcı olan Kəsi tanımaq və Ona yetişmək mümkün deyil".**[5]

**"Məzhərin Şəxsiyyəti həmişə Haqqın canişinidir və Onun adından danışır. O, həqiqətən, Allahın ən gözəl Adlarının Günəşi və ən ali Sifətlərinin Məşriqidir".**[6]

**"Həmçinin, əmin olun ki, Allahın bu Məzhərlərinin hər birinin işləri, əməlləri, xeyr, onlara aid olan hər şey, onların gələcəkdə aşkara çıxara biləcəkləri hər bir şey Allahdan hökm olunmuşdur və Onun İradə və Məqsədinin ifadəsidir".**[7]

## BÖLMƏ 4

Dinin vahidliyi çoxlarına maraqlı gələn bir mövzudur və bu məsələdə aşağıdakı ideyalar bir sıra hallarda sizə kömək edəcəkdir:

Biz hansı çıraqdan gəlməsindən asılı olmayaraq işığı sevməliyik. Hansı bağçada çiçək açmasından asılı olmayaraq qızılgülü sevməliyik. Hansı mənbədən gəlməsindən asılı olmayaraq, həqiqəti axtarmalıyıq. Bir çırağa bağlanmaq işıq başqa bir çıraqdan gələndə onu görməyimizə mane ola bilər. Həqiqəti axtararkən, özümüzü ön mühakimələrdən xilas etməli və təəssüblərimizdən əl çəkməliyik. Əgər bizim kasamız nəfslə doludursa, bu halda onda həyat suyu üçün yer yoxdur.

Din dünyanın işığıdır. O bizim addımlarımızı istiqamətləndirir və bizim qarşımızda bitməz xoşbəxtlik qapılarını açır. Bütün böyük dinlərin təlimlərini ehkamçı inanc və kor-koranə təqlid məhdudiyyətlərindən azad şəkildə araşdıranda, başa düşürük ki,

onların hamısı eyni təməl üzərində dayanırlar. Onların hamısı Allahın elmini açıqlayır. Onlar bəşər aləminin inkişafını istəyirlər.

Əlbəttə, zaman və məkanın tələblərinə uyğun olaraq, hər bir dinin təbliğ etdiyi sosial qanunlar və tənzimləmələr arasında fərqlər vardır. Lakin mahiyyətcə bütün dinlər təkdir. Onlar iman, bilik, yəqinlik, ədalət, möminlik, dərrakəlilik, etibarlılıq, Allaha məhəbbət və xeyriyyəçiliyi bəsləyirlər. Onlar paklıq, inqita, təvazökarlıq, dözümlülük, səbr və səbatlılıq öyrədirlər. Bu insani məziyyətlər hər bir Zühurda yenilənir.

Əfsuslar olsun ki, təəssüb və kor-koranə təqlidə görə çoxları dinin kökdə bir olmasını görə bilmir. Allahın bəşəriyyətə hidayəti həqiqətdir, həqiqətin isə parçaları yoxdur; o, təkdir. Əgər biz ön mühakimələri kənara qoyaraq həqiqəti müstəqil araşdırsaq, bizim axtarışımız birliyə gətirib çıxaracaq. Din bizi birləşdirməlidir; o, insanlar arasında məhəbbət bağları yaratmalıdır. Əgər o, düşmənçilik və ədavət səbəbinə çevrilirsə, onun olmaması daha yaxşıdır.

1. Əvvəlki bölmədə olduğu kimi, bu müddəanı qrupunuzda bir neçə dəfə oxumalı, oradakı ideyalarla bağlı bir-birinizə suallar verməli və onları yaxşı ifadə etməyi praktika etməlisiniz.

2. Öyrəndiyiniz ideyaları, deyək ki, insanların beynini çox məşğul edən dini münaqişə barəsindəki bir söhbətə necə daxil edə biləcəyinizi düşünün. Amma siz, həmçinin həqiqəti araşdırmağın və təbliğatla manipulyasiya edilməməyin vacibliyini müzakirə edən dostlar arasına da düşə bilərsiniz. Yenə də geriyə qayıdaraq, dostlar, qonşular, həmkarlar və tanışlarla son vaxtlardakı söhbətləriniz barəsində düşünün. Onların fikrindəki məsələlərdən hansıları bu ideyalar ətrafındakı müzakirədən fayda götürə bilərdi?

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

3. Söhbətdə yuxarıdakı ideyaları bölüşdükdən sonra kimsə sizdən: “Bütün dinlər üçün ümumi olan bəzi həqiqətlər hansılardır?” – deyə soruşsa, siz necə cavab verərdiniz?

____________________________________________

____________________________________________

____________________________________________

4. Təklif olunur ki, Həzrət Bəhaullahın Yazılarından aşağıdakı parçalardan bir-ikisini əzbərləyəsiniz:

**“Şübhə yoxdur ki, dünyanın xalqları, hansı irqdən və ya dindən olurlarsa olsunlar, bir səmavi Mənbədən ilham alır, bir Allahın əmrinə tabedirlər”.**[8]

**“Bütün dinlərin ardıcılları ilə dostluq və yoldaşlıq ruhunda ünsiyyət edin”.**[9]

**“Allahın Əmrini və Onun Dinini canlandıran təməl məqsəd insan irqinin maraqlarının qorunması və onun birliyinin irəlilədilməsidir…”**[10]

**“Allahın dini məhəbbət və birlik üçündür; onu düşmənçilik və ixtilaf səbəbi etməyin”.**[11]

## BÖLMƏ 5

Elm və din arasındakı münasibət sizin öyrənməyinizin istənildiyi növbəti mövzudur.

Din elmlə uyğunluqda olmalıdır. Nəyin doğru olmasını qavramaq üçün Allah bizə ağıl bəxş etmişdir. Həm elm, həm də din ağlın meyarlarına cavab verməlidir. Ona görə də onlar bir-biri ilə razılıqda olmalıdır. Onlar üzərində insan zəkasının uca yüksəkliklərə qalxa biləcəyi iki qanaddır və bəşəriyyət məhz bu iki qanadla uça bilir. Bir qanad kifayət deyildir.

Elm Allahın bəxşişidir. O, fiziki dünyanın qanunlarını kəşf edir və bizi təbiətin bizim üzərimizə qoyduğu məhdudiyyətləri aşmağa qabil edir. Elmi alətlərin köməyilə biz adi gözlə görünməz olan şeyləri görür və bir anda uzaq məsafələr arasında əlaqə qururuq. Elm bu günü və keçmişi birləşdirir, gələcəyin sirlərinə nüfuz edir. İnsanların tərəqqisi elmi nailiyyətlərdən asılıdır.

Allahın dini həqiqətin yayıcısı, biliyin dəstəkçisi və insan irqini mədəniləşdirən amildir. Dinsiz elm materializmin irəliləməsi alətinə çevrilir və sonda məyusluğa gətirib çıxarır. Din elmə qarşı olanda, o, sadəcə mövhumata çevrilir. Əgər elm və din ahəng içərisində bir yerdə addımlayarsa, bəşəriyyətə səfalət gətirən nifrət və kinin böyük hissəsi yoxa çıxar.

1. Həmişə olduğu kimi, müddəanı qrupunuzda bir neçə dəfə, abzaslar üzrə oxuyun və mətni təbii surətdə ifadə edə biləcəyiniz səviyyədə bilənə qədər bir-birinizə suallar verin.

2. Kimsə aşağıdakıları desə, siz ona necə cavab verərdiniz: “Din keçmişin qalığıdır; elm bəşərin bütün problemlərini həll edəcək”. Dinin mövhumatla eyni olmadığını açıqlamaq, lakin elm olmadıqda mövhumata çevrildiyini, elmin isə dinsiz materializmdən doğan məyusluğa gətirdiyini aydınlaşdırmaq sizə kömək edərdimi? Bunun necə baş verməsinə dair misallar gətirə bilərsinizmi?

3. Həzrət Bəhaullahın Yazılarından olan aşağıdakı parçaların birini ya bir neçəsini əzbərləməyiniz təklif olunur:

> **“Qüdrət Sahibinin insana bəxş etdiyi ilk və başlıca nemət idrakdır... Bu bəxşiş insana hər şeydəki həqiqəti anlamaq qüvvəsi verir, doğru olana yönləndirir və xilqətin sirlərini açmağa kömək edir”.[12]**

> **“Dünyaya bax və onun üzərində düşün. O sənin gözünün qarşısında öz mahiyyətinin kitabını açır və sənin Sənətkar, Hər Şeydən Xəbərdar Rəbbinin Qələminin orada təsvir etdiklərini sənə göstərir”.[13]**

> **“Bilik insan həyatının qanadı və onun yüksəlməsi üçün nərdivan kimidir. Onu əldə etməyə hər kəs mükəlləfdir”.[14]**

## BÖLMƏ 6

Bəşəriyyətin birliyi bu gün hər yerdə insanların ürəklərindən xəbər verən bir mövzudur və çoxları aşağıda təqdim edilən ideyaları sizinlə müzakirə etməyi xoş qarşılayacaqdır.

> Rəngarəng və ətirli çiçəklərin yan-yana bitdiyi bir bağ gözə xoş gəlir. Fərqli olsalar da, hər çiçək eyni yağışla təravətlənir və tək bir günəşdən istilik alır. Bəşəriyyət də belədir. O da çoxlu irq və rənglərdən ibarətdir. Amma hamısı eyni Allahdan gəlir, hamının kökü birdir. İnsan ailəsindəki müxtəliflik ahəng mənbəyi olmalıdır, necə ki, musiqidə fərqli notlar kamil bir səs ahəngi yaratmaq üçün birləşir.

> Birlik mövcudluq üçün zərurətdir. Məhəbbət həyatın səbəbinin özüdür. Maddi aləmdə hər şeyin elementləri cazibə qanunu ilə birlikdə yer alır. Cazibə qüvvəsi müəyyən elementləri gözəl bir çiçək formasında bir araya gətirir. Lakin bu cazibə aradan götürüldükdə, çiçək parçalanacaq və mövcudluğunu dayandıracaq. Bəşəriyyət də belədir. Cazibə, ahəng və birlik bəşəriyyəti bir yerdə saxlayan qüvvələrdir.

> Həzrət Bəhaullah dünyanın bütün insanlarının birləşməsi üçün bir tərtibat irəli sürmüşdür. Biz insanları bu birlik çevrəsinə cəlb etmək üçün hər bir səyi qoymalıyıq. Bizimkindən fərqli irq, milliyyət, din və ya fikirdən olan insanlarla qarşılaşdıqda biz imkan verməməliyik ki, bu fərqlər bizim aramızda maneəyə çevrilsin. Biz onlar haqqında bəşər bağında bitən müxtəlif rəngli qızılgüllər kimi düşünməli və onların arasında olmağımıza sevinməliyik.

1. Yuxarıdakı müddəanı əvvəlki bölmələrdəki kimi öyrəndikdən sonra ətrafınızda açılmaqda olan çoxlu söhbətlər barəsində düşünün. İnsanların zehnini məşğul edən məsələlərdən hansıları bu ideyaları onlarla bölüşməyiniz üçün sizə imkanlar aça bilər?

______________________________________________

______________________________________________

______________________________________________

2. Bəşəriyyətin birliyi haqqında söhbət insanın öz icmasında birliyin vacibliyi barədə müzakirəyə gətirib çıxara bilər. Bizim hər birimizin buna necə töhfə verə biləcəyimiz barəsində bir neçə söz deyə bilərsinizmi?

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

3. Aşağıdakı sitatlardan birini yaxud daha çoxunu əzbərləmək istəyə bilərsiniz ki, dostlarınıza bu mövzuda danışanda ona istinad edə biləsiniz:

**“Birlik çadırı qurulmuşdur; bir-birinizi yad hesab etməyin. Siz bir ağacın meyvələri və bir budağın yarpaqlarısınız”.**[15]

**“Birliyin nuru o qədər güclüdür ki, o, bütün yer üzünü işıqlandıra bilər”.**[16]

**“Birliyə doğru üz tutun və qoy onun nuru sizin üzərinizə işıq saçsın. Bir yerə toplaşın və aranızda çəkişmə mənbəyi olan şeyləri Allah xatirinə həll edin”.**[17]

**“İnsana yaraşan budur ki, ülfət, mehribanlıq və birliyə gətirib çıxaran şeylərdən möhkəm yapışsın”.**[18]

## BÖLMƏ 7

Aşağıdakı müddəa əksər insanların əsas qayğısı olan ədalət mövzusunda müzakirələrə töhfə verməkdə sizə kömək edəcəkdir:

> Fərdlərdəki qabiliyyətlərin fərqliliyi insan mövcudluğunun təməl bir cəhətidir. Ona görə də bütün insanların hər bir cəhətdən bərabər olması mümkün deyil. Amma insan işləri bütövlükdə ədalət prinsipi ilə idarə olunmalıdır. Ədalət müqəddəs olmalı, hər bir şəxsin haqları qorunmalıdır.
>
> Ədalət məhdud deyil; o, universal bir keyfiyyətdir. O, insan həyatının bütün sahələrində yer almalıdır. Cəmiyyətin hər bir üzvü sivilizasiyanın faydalarından bəhrələnməlidir, çünki bizim hamımız bəşər adlı bədənə mənsubuq. Əgər bu bədənin bir üzvü iztirab və ya sıxıntıdadırsa, qalan bütün üzvlər də qaçılmaz olaraq əziyyət çəkəcəkdir. Necə ola bilər ki, biri əziyyət çəksin, qalanları rahat olsun? Bugünkü cəmiyyətdə zəruri qarşılıqlılıq və simmetriya çatışmır; o, yaxşı təşkil edilməmişdir. Bütün insan ailəsinin rifahını və xoşbəxtliyini təmin edəcək qanunlara və prinsiplərə ehtiyac var.
>
> Ədalət mükafat və cəza sütunları üzərində bərqərar olur. İmansız, İlahi cəza qorxusu olmayan kəslər tərəfindən idarə olunan hökumətlər ədalətsiz qanunlar yaradacaqlar. Zülmün qarşısı alınmalıdırsa, həm mükafata ümid, həm də cəzadan qorxmağa ehtiyac vardır. Qanunları qəbul edənlər və onların icraçıları qərarlarının ruhani nəticələrindən agah olmalıdırlar. Hərəkətlərinin nəticələrinin bu dünyadan sonra da onları

izləyəcəyinə inanan, mühakimələrinin İlahi ədalət tərəzisində çəkiləcəyini bilən hakimlər, şübhəsiz ki, istibdad və zülmdən çəkinəcəklər.

1. Yuxarıdakı ideyaları təbii surətdə ifadə etməyi öyrəndikdən sonra hansı mövzularda söhbətlərin bu müddəanın təklif etdiyi bəsirətlərdən faydalanacağını nəzərdən keçirin.

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

2. Ədalətsizliyin heç vaxt sona yetməyəcəyinə inanan bir insana siz necə cavab verərdiniz?

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

3. Aşağıda Həzrət Bəhaullahın Yazılarından ədalət mövzusuna aid olan və sizin əzbərləməyə təşviq olunduğunuz bir neçə sitat verilir.

**“İnsanların çırağı Ədalətdir. Onu zülm və istibdadın müxalif külələri ilə söndürməyin. Ədalətin məqsədi insanlar arasında birliyin zahir olmasıdır”.**[19]

**“Heç bir işıq ədalətin işığı ilə müqayisə oluna bilməz. Dünyanın təşkili və bəşərin dincliyi bundan asılıdır”.**[20]

**“Dünyanın mürəbbisi Ədalətdir, çünki Ədalət mükafat və cəza sütunları üzərində dayanır. Bu iki sütun dünyaya həyat mənbəyidir”.**[21]

## BÖLMƏ 8

Zənginlərlə yoxsullar arasındakı uçurum hər gün daha da dərinləşir. Aşağıdakı müddəa bu və bununla əlaqəli mövzularda dostlarınızla söhbət etməkdə sizə kömək edəcəkdir.

Bu gün qarşılıqlılıq və ahəngdar münasibətlərin yoxluğunun nəticəsində, cəmiyyətin bəzi üzvləri böyük rahatlıq və dəbdəbə içərisində yaşamaqla məmnundurlar, başqaları isə yeməyə və sığınacağa möhtac haldadırlar. Bəziləri qeyri-adi dərəcədə zəngindir, digərləri isə həddən artıq kasıblıq içərisində yaşayır.

Cəmiyyətin qanunları elə tərtib edilməli və qüvvəyə minməlidir ki, ancaq bir neçə nəfərin qeyri-adi dərəcədə sərvət yığmasına, digərlərinin isə məhrumiyyət içərisində yaşamasına imkan verməsin. Bu, o demək deyil ki, hamı bərabər olmalıdır, çünki dərəcə və qabiliyyətdəki fərqlər xilqətin özünə xas olan bir şeydir. Amma ruh düşkünlüyü yaradan yoxsulluqla müşayiət olunan acınacaqlı sərvət toplanmasını

aradan qaldırmaq olar. Əgər bir kapitalistin sərvətə sahib olma haqqı vardırsa, bu eyni dərəcədə ədalətlidir ki, işçinin də yaşamaq üçün vəsaiti olsun. Biz ifrat yoxsulluq görəndə ətrafda haradasa istibdad görəcəyik.

Məsələnin mahiyyəti budur ki, İlahi ədalət insanların şəraitində özünü büruzə verməlidir. Bütün iqtisadi vəziyyətin təməl şərtləri təbiətcə ruhanidir, qəlb və ruh aləmi ilə bağlıdır. Zənginlər bolluğu bölüşməlidirlər; onlar ürəklərini yumşaltmalı və şəfqətli düşüncə bəsləməlidirlər. Qəlblər o qədər bir-birinə bağlanmalı, sevgi elə hakim olmalıdır ki, zənginlər ən yüksək istəklə daimi olan bir iqtisadi nizam yaratsınlar. Onların özləri başa düşməlidirlər ki, icmada rəzalətli yoxsulluq hökm sürərkən onların böyük sərvətə malik olmaları nə ədalətli, nə də hüquqidir. Bu yolla onlar rahat yaşamalarına imkan verən qədərini özlərinə saxlayıb sərvətlərinin qalan hissəsini könüllü olaraq bölüşəcəklər.

1. Müddəanı oxuyun və qrupunuzda onu həmişəki tərzdə öyrənin. Zənginlik və yoxsulluqla bağlı insanların fikrində çoxlu məsələlər vardır – bir neçəsini sadalasaq, məşğulluq, məvacib, mənzil təminatı və s. Başqa hansı mövzuların müzakirəsində bu müddəadakı ideyalardan faydalanmağın mümkün olduğu barəsində düşünə bilərsinizmi?

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

2. Sizin yuxarıdakı ideyaları qeyd etdiyinizi eşidən bir kəs sizdən: “Siz demək istəyirsiniz ki, zənginlər sərt vergi qanunlarını başa düşəcək və onları dəstəkləyəcəklər, əslində ödəməli olduqlarını könüllü olaraq verəcəklər? Sizi bunun mümkünlüyünü düşünməyə nə sövq edir?” – deyə soruşsa, sizin cavabınız nə olardı?

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

3. Həzrət Bəhaullahın Yazılarından olan sitatlardan birini və ya ikisini əzbərləməyiniz təklif olunur:

**“... gərək nəfis və ecazkar meyvələr verəsiniz ki, həm özünüz, həm də başqaları onlardan faydalansınlar. Odur ki, hamıya sənət və peşə ilə məşğul olmaq tapşırılır, zira sərvətin yolu budur, ey anlayış sahibləri!”**[22]

**“Əgər gözün mərhəmət axtarırsa, onda mənfəətindən əl çək və bəşərin faydasına olan şeylərdən yapış. Əgər gözün ədalət axtarışındadırsa, özün üçün seçdiyini qonşun üçün də seç”.**[23]

**“Mübarəkdir o kəs ki, qardaşını özündən üstün tutur”.**[24]

**"Heç bir yaxşı əməl itməyib və itməyəcək, zira xeyirxah hərəkətlər onu edənlərin faydası üçün Allahın yanında qorunub saxlanan xəzinələrdir".**[25]

**"... diqqət edin ki, mötədillik həddini aşmayasınız və ifratçılardan olmayasınız".**[26]

# BÖLMƏ 9

Aşağıda verilən ideyalar təəssübkeşlik mövzusunda müzakirələrdə iştirak etməkdə sizə yardım edəcəkdir.

Təəssüb özünün bütün formalarında – dini, irqi, cinsi, etnik, iqtisadi – bəşəriyyətin bünövrəsini dağıdır və Allahın hökmlərinə ziddir. Bəşəriyyət min illər ərzində bu təəssübkeşliklərin biri ya digərinin təhriki ilə baş verən müharibələrdən və qan tökülməsindən əziyyət çəkmişdir. Onlar qalmaqda davam etdikcə, bəşəriyyətin rahatlığı olmayacaqdır.

Allah Öz Peyğəmbərlərini tək bir məqsəd – sevgi və birlik yaratmaq – naminə göndərmişdir. Bütün səmavi Kitablar yazılı sevgi sözləridir. Əgər onlar yadlıq səbəbi olarsa, demək səmərəsiz olmuşlar. Ona görə də dini təəssübkeşlik Allahın iradə və hökmünə xüsusilə müxalifdir.

Milli təəssübkeşlik tamamilə ədalətsizdir. Yer kürəsi bir torpaq, bir ölkədir. Millətləri ayıran xətlər və sərhədlər uydurmadır; onları Allah çəkməmişdir. İnsanlar bir çayı iki ölkə arasında sərhəd xətti elan edir və hər iki tərəfə ad qoyurlar. Halbuki çay hər iki tərəf üçün yaradılmışdır və hər kəs üçün olan təbii bir su qaynağıdır. Bu, insanları həyatın nemətlərini müharibə və dağıntı səbəbinə çevirməyə təhrik edən uydurma və cəhalət deyilmi?

İrqi təəssüb mövhumatdan başqa bir şey deyil. Bir şəxsin dərisinin rəngi sadəcə onun əcdadlarının uzun dövr ərzində iqlim və ətraf mühitə adaptasiyasının nəticəsidir. Xasiyyət bəşəriyyətin doğru meyarıdır. Mükəmməllik irqdən və rəngdən asılı deyil. İman, ürəyin təmizliyi, xeyir əməllər və tərifəlayiq nitq – Allahın astanasında qəbul olunan bunlardır.

Uzun tarixi dövr ərzində qadınlar kişilərə tabe etdirilmiş və pis rəftara məruz qalmışlar. Kişi ilə qadın arasındakı fərq fiziki dünyanın tələbidir; ruh aləmində isə onlar bərabərdir. Kişi ya qadın – Allahın nəzərində heç bir fərqi yoxdur. Bütün bəşərə Onun tərəfindən idrak və qavrayış əta edilmişdir. Hamının məziyyətlər əldə etmək qabiliyyəti vardır. Bu gün bir insanın cinsinə görə ayrı-seçkiliyə məruz qalmasına əsas verən heç bir şərait mövcud deyil.

Əhdi-Ətiqin sözlərinə əsasən, Allah buyurmuşdur: "Öz surətimizə və bənzərimizə görə insanı yaradaq". Bu, açıq surətdə qadınlara da aiddir. İnsan varlığı Allahın surətində yaradılmışdır; bu o deməkdir ki, ilahi məziyyətlər insanın gerçəkliyində əks olunur və təzahür edir. Bu, bütün bəşəriyyət üçün doğrudur. Yalnız bir rəng, etnik mənşə və ya milliyyətin Allahın bənzərində yaradılmasına iddia etmək necə də əsassızdır. Ancaq zənginlərin Onun surətində yaradılması, yaxud cəmiyyətdəki yüksək məqamın Allaha yaxınlıq meyarı olmasını düşünmək necə də cəfəngdir.

Bəşəriyyət təəssübkeşlikləri tərk etməyincə və Mələkutun əxlaqını əldə etməyincə ziyalanmağa nail ola bilməz.

1. Bu müddəanı da əvvəlki müddəalar kimi öyrənin və söhbətdə dostlarınızın və qonşularınızın qaldırdıqları, təəssübün aradan qaldırılmasını tələb edən bəzi meydanoxuyucu məsələlər üzərində düşünün.

___________________________________________________________

___________________________________________________________

___________________________________________________________

___________________________________________________________

2. Sizin yuxarıdakı ideyaları qeyd etdiyinizi eşidən bir kəs sizdən: "Biz təəssübə sahib ola və həm də ona sahib olduğumuzdan xəbərsiz ola bilərikmi?" – deyə soruşsa, sizin cavabınız nə olardı?

___________________________________________________________

___________________________________________________________

___________________________________________________________

3. Həzrət Bəhaullahın Yazılarından aşağıdakı sitatlardan bu və ya digərini bu ideyalar ətrafındakı müzakirələrə daxil edə biləcəyiniz hallar ola bilər:

"**Dünya bir vətəndir və bütün insanlar isə onun vətəndaşlarıdır".**[27]

**"Dünyanın bütün fidanları bir Ağacdan, bütün damcıları bir Dəryadan törəmişdir və bütün varlıqlar həyatlarını bir Varlığa borcludurlar".**[28]

**"Bu gün, doğrudan da, insan o kəsdir ki, özünü bütün insan irqinə xidmətə həsr edir".**[29]

**"Gözəl xasiyyətin işığı günəşin işığından və onun parıltısından üstündür".**[30]

**"İnsanı ucaldan zinət və ya sərvət deyil, ədəb və irfandır".**[31]

**"İnşallah, sən bütün şəraitlərdə mövhumat bütlərini sındırıb dağıtmağa və insanların təxəyyül pərdələrini yırtmağa müvəffəq olarsan".**[32]

**"İnsanların ən qafili o kəsdir ki, boş mübahisə edir və özünü qardaşından üstün tutmaq istəyir".**[33]

## BÖLMƏ 10

Dostlarla söhbət edərkən, kişi və qadınların bərabərliyi barəsində aşağıdakı müddəadakı ideyalardan tez-tez istifadə etmək imkanınız olacaq:

Fiziki günəş öz işığı və istiliyi ilə yer üzündəki hər şeyin gerçəkliklərini aşkara çıxarır. Ağacda gizli olan meyvə günəşin gücü müqabilində budağın üzərində peyda olur. Eynilə də, Həqiqət Günəşi ruhani səmada bütün calalı ilə parlayaraq keçmişdə görünməyən gerçəklikləri aşkara çıxarır. Məhz ona görə də bu dövrdə kişi və qadınların bərabərliyi tam etiraf olunur və bu, artıq bərqərar olmuş bir faktdır.

Həzrət Bəhaullah aydın sözlərlə təsdiq etmişdir ki, Allahın nəzərində kişi və qadın arasında heç bir fərq yoxdur. Uzun müddət ərzində mövcud olmuş qeyri-bərabərlik şəraiti kişilərin üstünlüyünün nəticəsi deyildir; bu, sadəcə ona görə belə olub ki, qadınlara öz potensiallarını inkişaf etdirmək üçün kişilərlə eyni fürsətlər verilməmişdir. Lakin onlara qarşı olan təəssübə baxmayaraq, böyük nailiyyətlər əldə etmiş bir sıra qadınların adları tarixdə iz qoymuşdur.

Bu qadınlardan biri İran şairəsi Tahirə idi. O, 1800-cü illərin əvvəllərində elə bir ölkədə doğulmuşdu ki, orada qadınlar tamamilə kişilərə tabe idilər. O, Allahın yeni Vəhyinin həqiqətini qəbul edən ilk qadın idi. Yeni Günün doğuşunu etiraf edərək o, inanmışdı ki, kişi və qadınların bərabərliyi həqiqətinin etiraf olunması zamanı yetişmişdir. O, enerjisini bu həqiqətin yayılmasına həsr etdi. Onun biliyi və bəlağəti dövrünün ən alim insanlarını heyrətə salırdı. Hərçənd zülmkar şahın, cahil və təkəbbürlü mollaların bütün qüvvələri onun əleyhinə idi, amma o, bir an da olsa həqiqəti deməkdə tərəddüd etmədi və sonda bütün varlığı ilə qəbul etdiyi Əmr üçün həyatını fəda etdi.

Allahın nəzərdə tutmadığına inanmaq cahillik və mövhumatdır. Bu gün qadınlara təhsil almaq və insan fəaliyyətinin bütün sahələrində kişilərlə bərabər mövqeləri tutmaq üçün hər bir imkan yaradılmalıdır. Kişi və qadınların bərabərliyi, ruhani aləmdə olduğu kimi, bu dünyada da gerçəkləşməyincə, bəşəriyyətin əsl tərəqqisi mümkün olmayacaq.

1. Həmişə olduğu kimi, bu müddəanı qrupunuzda öyrənin və ideyaları söyləməyin praktikasını edin. Son vaxtlarda dostlarınızla elə söhbətləriniz olubmu ki, bu müddəanın təklif etdiyi bəsirətlərdən o söhbətlərdə faydalanmaq mümkün olsun? Hansı məsələləri müzakirə edirdiniz?

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

2. Əgər insan fəaliyyətinin bütün sahələrində qadınlar kişilərlə bərabər mövqelər tutsalar, bugünkü cəmiyyətdə üstünlük təşkil edən hansı inanclar və münasibətlər dəyişməli olacaq?

______________________________________________

______________________________________________

______________________________________________

3. Aşağıda Həzrət Bəhaullahın Yazılarından bir neçə sitat verilir və siz onları əzbərləmək istəyə bilərsiniz.

**"Qadınlar və kişilər Allahın nəzərində bərabər olmuşlar və həmişə də bərabər olacaqlar".**[34]

**"Bilirsinizmi, sizi nə üçün bir torpaqdan yaratdıq? Ki heç kəs özünü başqasından üstün tutmasın".**[35]

**"Bu gün İlahi fəzlin Əli bütün fərqləri aradan qaldırmışdır. Allahın bəndələri və kənizlərinə eyni müstəvidə baxılır".**[36]

## BÖLMƏ 11

Öyrənməyinizin istənildiyi bu son müddəa hər kəsin təlim-tərbiyə alması mövzusundadır:

> Təlim-tərbiyənin irəli aparılması dövrümüzün ən təxirəsalınmaz tələbidir. Təlim-tərbiyəni özünün əsas qayğılarından biri etməmiş heç bir millət firavanlığa yetişə bilməz. Bir xalqın tənəzzülünün başlıca səbəbi biliyə əlinin çatmamasıdır.
>
> Təlim-tərbiyə körpəlikdən başlamalıdır. Uşaqlarına təlim-tərbiyə vermək, onların xasiyyətlərini ruhani və əxlaqi qanunlara uyğun cilalamaq, incəsənət və elm üzrə təlimdən keçmələrini təmin etmək üçün əllərindən gələni etmək ata və ananın vəzifəsidir. Bəşəriyyətin birinci tərbiyəçiləri analardır; onlar uşaqlarını bilik sinəsində bəsləyirlər. Hər bir uşaq təlim-tərbiyə almalıdır; bu, etinasız qalınası bir məsələ deyil. Əgər valideynlər zəruri məsrəfləri ödəyə bilirlərsə, bunu mütləq etməlidirlər. Əks halda, icma uşaqların təlim-tərbiyəsi üçün vəsaiti təmin etməlidir.
>
> Təlim-tərbiyə hər bir insan varlığında mükəmməlliyə nail olmaq həvəsini inkişaf etdirməlidir. Biz insan kamilliyinə heyran olmalı və onun ardınca ehtirasla getməliyik. Biz ruhani cəhətdən fərqlənməyə can atmalı, insan aləminin məziyyətləri ilə – səmimiyyət, sədaqət, bəşəriyyətə xidmət, sevgi və ədalət ilə – tanınmalıyıq. Biz sülh və birliyi irəlilətmək, öyrənməni təşviq etməklə fərqlənməliyik. İnsanlara belə bir yolda bələdçilik etmək təlim-tərbiyənin həqiqi vəzifəsidir.

1. Bu müddəanı qrupunuzda öyrəndikdən sonra təlim-tərbiyə barəsində dostlarınızın malik olduqları bəzi narahatlıqları müəyyən etməyə çalışın. Yuxarıdakı ideyalar onların narahatlıqlarına nə dərəcədə xitab edir?

___________________________________________

___________________________________________

___________________________________________

___________________________________________

2. Həzrət Bəhaullahın Yazılarından olan aşağıdakı sitatlardan birini və daha çoxunu əzbərləməyiniz təklif olunur:

**"Bir insanın bilik və bacarıqsız qalması arzuolunmazdır, zira bu halda o, səmərəsiz ağacdan başqa bir şey deyil".**[37]

**"Bütün ağlınızı və iradənizi yer üzünün xalq və tayfalarının təlim-tərbiyəsinə sərf edin..."**[38]

**"İncəsənət, sənət və elmlər varlıq aləmini yüksəldir və onun ucalmasına kömək edir".**[39]

**"Həqiqətən, bilik insanın əsl xəzinəsidir və onun üçün şərəf, nemət, sevinc, ucalıq, şadlıq və xürrəmlik mənbəyidir".**[40]

## BÖLMƏ 12

Sülh hər kəsin zehnini məşğul edən bir məsələdir. Onun təsis edilməsi çox acil və həyati vacibdir. Əvvəlki müddəalarda qısa təsviri verilmiş prinsiplərin üzərində düşündükdən sonra, indi ümumdünya sülhü məsələsi üzərində düşünməyin faydalı olduğunu görə bilərsiniz.

Əlbəttə, müharibənin aradan qaldırılması üçün əməli addımların atılmasında hökumətlərdən çox şey asılıdır. Dövlətlər arasında çoxsaylı beynəlxalq əməkdaşlıq formalarından biri kimi, mübahisələri həll etmək və silahların sayını azaltmaq üçün siyasi razılaşmalar sülh cəhdlərində mühüm rola malikdir. Amma bu cür tədbirlər nə qədər vacib olsalar da, daha əvvəl qeyd etdiyimiz prinsiplər dünya üzrə bərqərar olmayınca bunlar daimi sülhə gətirib çıxarmayacaq. Biz özümüzdən soruşmalıyıq ki, insanlar gerçəkliyi araşdırmağı öyrənməyincə və həqiqətin bir olması nəticəsinə gəlib çıxmayınca, əsrlər boyu mövcud olmuş bu düşmənçiliklər davam edəcəkmi? Bizim hamımızın mənşəyi eynidir. Allah hamını himayə edir və hamını Öz Məzhərləri vasitəsilə tərbiyə edir. Onların təlimləri eyni sevgi və yoldaşlıq təməli üzərində dayanır. Yalnız dinin birliyi etiraf olunanda dini ədavət bitəcək və dinin işığı sülh yolunu nurlandıracaq. Biz özümüzdən soruşmalıyıq: məgər cəhalət buludlarını dağıtmaq və hər biri də sülhə əngəl olan hər cür təəssübün uydurma olduğunu sübut etmək üçün elm və din ahəng içində işləməməlidirmi? Soruşulası başqa bir sual da budur ki, əgər planetin hər bir guşəsində zənginlərlə yoxsullar arasındakı qeyri-adi bərabərsizlik aradan götürülməzsə, biz sülh içində olan bir dünya qura bilərikmi? Və insan işlərinin hər bir sahəsinə qadınların kişilərlə bərabər əsasda daxil olmalarına şərait yaratmasaq, tarixin böyük hissəsini səciyyələndirən zorakılıq sülhə və əsl firavanlığa imkan verərmi? Böyüməkdə olan nəsillər hər yerdə bu cür prinsiplərə uyğun təlim-tərbiyə almalıdırlar, əks təqdirdə sülh üçün bütün ümidlər puça çıxacaq. Siz Həzrət Bəhaullahın aşağıdakı sözlərini əzbərləmək istəyə bilərsiniz ki, onları bəşəriyyətin gələcəyi üçün narahat olan digər şəxslərlə bölüşəsiniz:

**"Bəşəriyyətin birliyi möhkəm bərqərar olmayınca onun rifahına, onun sülh və əmin-amanlığına nail olmaq mümkün deyil".**[41]

# İSTİNADLAR

1. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr* (Wilmette: Bahá'í Publishing Trust, 1983, 2017 nəşri), CIX, hissə. 2, s. 243.

2. Yenə orada., CXXXII, hissə. 1, s. 325.

3. Yenə orada., XXXIV, hissə. 5, s. 89.

4. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Bəyan Olunmuş Lövhləri* (Wilmette: Bahá'í Publishing Trust, 1988, 2005 nəşri), №. 11.1, s. 161.

5. Həzrət Bəhaullah, *Kitábi-Íqán: Əminlik Kitabı* (Wilmette: Bahá'í Publishing Trust, 2003, 2018 nəşri), hissə. 151, s. 131.

6. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, XXVIII, hissə. 2, s. 77.

7. Yenə orada., XXIV, hissə. 1, s. 66.

8. Yenə orada., CXI, hissə. 1, s. 246.

9. Yenə orada., XLIII, hissə. 6, s. 106.

10. Yenə orada., CX, hissə. 1, s. 244.

11. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Bəyan Olunmuş Lövhləri*, №. 15.4, s. 220.

12. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, XCV, hissə. 1, s. 219–20.

13. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Bəyan Olunmuş Lövhləri*, №. 9.13, s. 141.

14. Yenə orada., №. 5.13, s. 51.

15. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXII, hissə. 1, s. 247–48.

16. Yenə orada., CXXXII, hissə. 3, s. 326.

17. Yenə orada., CXI, hissə. 1, s. 246.

18. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Bəyan Olunmuş Lövhləri*, №. 7.20, s. 90.

19. Yenə orada., №. 6.25, s. 66–67.

20. Həzrət Bəhaullah, Şövqi Əfəndi tərəfindən sitat gətirilib, *İlahi Sivilizasiyanın Gəlişi* (Wilmette: Bahá'í Publishing Trust, 2006, 2018 nəşri), hissə. 42, s. 41.

21. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Bəyan Olunmuş Lövhləri*, №. 3.23, s. 27.

22. Həzrət Bəhaullah, *Gizli Kəlamlar* (Wilmette: Bahá'í Publishing Trust, 2003, 2012 nəşri), Farsca №. 80, s. 51.

23. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Bəyan Olunmuş Lövhləri*, №. 6.19, s. 64.

24. Yenə orada., №. 6.37, s. 71.

25. Həzrət Bəhaullah, Ümumdünya Ədalət Evinin Tədqiqat Departamentinin hazırladığı *Hüququllah —Allahın Haqqı: Həzrət Bəhaullahın və Həzrət Əbdül-Bəhanın Yazılarından, Şövqi Əfəndinin və Ümumdünya Ədalət Evinin Yazdığı və Adından Yazılan Məktublarından Çıxarışlardan Seçmələr*-də (Wilmette: Bahá'í Publishing Trust, 2007), №. 16, s. 16.

26. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXVIII, hissə. 2, s. 283.

27. Yenə orada., CXVII, hissə. 1, s. 282.

28. Həzrət Bəhaullah, Şövqi Əfəndi tərəfindən sitat gətirilib, *Yeni Gün Doğmuşdur* (Wilmette: Bahá'í Publishing Trust, 1996, 2018 nəşri), hissə. 279, s. 187.

29. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXVII, hissə. 1, s. 282.

30. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Bəyan Olunmuş Lövhləri*, №. 4.11, s. 36.

31. Yenə orada., №. 6.3, s. 57.

32. Yenə orada., №. 6.3, s. 58.

33. *Gizli Kəlamlar*, Farsca №. 5, s. 23–24.

34. Həzrət Bəhaullah, Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən tərtib edilmiş *Qadınlar: Həzrət Bəhaullahın, Həzrət Əbdül-Bəhanın, Şövqi Əfəndinin və Ümumdünya Ədalət Evinin Yazılarından Çıxarışlar*-da (Wilmette: Bahá'í Publishing Trust, 1986, 1997 nəşri), №. 54, s. 26.

35. *Gizli Kəlamlar*, Ərəbcə №. 68, s. 20.

36. Həzrət Bəhaullah, *Qadınlar* seçməsində, №. 3, s. 3.

37. Həzrət Bəhaullah, Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən tərtib edilmiş *Hər Şeydə Mükəmməllik: Bəhai Yazılarından Çıxarışlardan Seçmələr*-də. (London: Bahá'í Publishing Trust, 1981, 1989 nəşri), №. 5, s. 2.

38. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CLVI, hissə. 1, s. 378.

39. Həzrət Bəhaullah, *Qurdun Oğluna Məktub* (Wilmette: Bahá'í Publishing Trust, 1988, 2016 nəşri), s. 26.

40. *Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Bəyan Olunmuş Lövhləri*, №. 5.13, s. 52.

41. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXXXI, hissə. 2, s. 324.



# Dərinləşmə Mövzuları

## Məqsəd

Ruhani cəhətdən əhəmiyyətli mövzular üzrə
söhbət etmək üçün dostları və qonşuları
ziyarət etmək vərdişinin inkişaf etdirilməsi

## BÖLMƏ 1

Əvvəlki fəsil kimi, bu üçüncü fəsil də, mənalı və ruhyüksəldici söhbətə daxil olmağa qadir edən qabiliyyətlərimizlə bağlıdır. İkinci fəsildə bizim diqqətimiz ruhani prinsiplərə istinad etməklə söhbətin səviyyəsini yüksəltmək imkanı yaradan bir sıra hallar üzərində cəmləşmişdi. Burada isə diqqət icma həyatı üçün mərkəzi yerdə duran mövzuları birlikdə araşdırmaq məqsədilə dostların və qonşuların evlərinə etdiyimiz ziyarətlərə yönəlir.

Dünya üzrə kəndlərdə və qonşuluqlarda dostlardan ibarət qruplar intensiv şəkildə müntəzəm dua yığıncaqları, uşaqların ruhani təlim-tərbiyəsi dərsləri, yeniyetmələrin görüşləri, dərnəklər, gənclər düşərgələri və müxtəlif cür kampaniyalardan ibarət olan, bir-birilə əlaqəli fəaliyyətlər dəsti ilə məşğul olurlar. Bu fəaliyyət modeli bir nahiyədə kök saldıqca və artan sayda insanlar özlərini xidmət aktlarına həsr etdikcə, dostların nüvəsi ölçü və güc baxımından böyüyür. Kəndlərdə və qonşuluqlarda getdikcə daha da çox sayda evlərə sistematik ziyarət proqramı hazırda sürət yığan icma quruculuğu prosesinin həyati bir komponentidir. Bu ziyarətlərdə müxtəlif mövzulara xitab edilir. Məsələn, Bəhai uşaq dərsi müəllimi təlim-tərbiyə ilə bağlı mövzuları müzakirə etmək üçün tez-tez uşaqların valideynlərini ziyarət etməlidir. İnsanın həyatında bu gələcək vəd edən illərlə bağlı olan meydanoxuyucu məsələlər və fürsətlərlə əlaqəli mövzuları müzakirə etmək üçün yeniyetmələrin və gənclərin evlərinə də eyni cür ziyarətlər animator kimi xidmət edənlər və aparıcılar tərəfindən edilməlidir. Ailə üzvləri ilə Əmr barəsində onların biliklərini dərinləşdirən mövzularda aparılan söhbətlər də eyni dərəcədə mühümdür. Ümumiyyətlə, bu cür ziyarətlərin icmada meydana çıxmaqda olan yoldaşlıq mədəniyyətinə təsiri həddən artıq qiymətlidir.

## BÖLMƏ 2

Bu fəslin məqsədi baxımından yuxarıda təsvir olunan prosesin irəlilədiyi xəyali bir qonşuluğa nəzər salacaq və ondan bir evə ziyarət zamanı açıla biləcək söhbəti nəzərdən keçirmək üçün araşdırmamızın konteksti kimi istifadə edəcəyik.

Alexandra universitetin üçüncü kursunda təhsil alan gənc bir qadındır. O özü kimi tələbə olan qardaşı və valideynləri ilə birlikdə bizim xəyalən təsəvvür etdiyimiz qonşuluqda, doğulub-böyüdüyü evdə yaşayır. Bu dörd nəfərlik ailə və bu yaxınlarda bu qonşuluğa köçmüş gənc bir cütlük onların ətrafındakı təxminən 8000 nəfərlik əhali çərçivəsində qurulmaqda olan fəaliyyətlərin inkişafı üçün dua oxumaq və məşvərət etmək məqsədilə hər həftə görüşürlər. Daha üç nəfər də zaman-zaman bu həftəlik görüşlərdə iştirak edir və yalnız özlərinin xidmət aktları üzərində deyil, həm də bütün icma quruculuğu prosesi barəsində sistematik düşünməyə başlayırlar: altı ay əvvəl fəaliyyətə başlamış bir uşaq dərsi müəllimi və Alexandranın böyük qardaşının – gənc olanda özü də yeniyetmə qrupunun animatoru olmuş və indi də həmin valideynləri müntəzəm ziyarət edən – köməyi ilə yeniyetmə qrupunun səylərini istiqamətləndirən iki on yeddi yaşlı gənc.

Bizim nəzərdən keçirəcəyimiz birinci dəst söhbətlər Alexandra ilə qonşuluqda tanınan və hörmətə malik olan Sançeslər ailəsi arasında baş verir. Ər və xanımı altmış yaşlarındadırlar, oğul və qızlarını böyütmüşlər və Alexandranın evindən bir neçə məhəllə aralıda tək yaşayırlar. Cənab və xanım Sançeslər yazıb-oxumağı bacarırlar, lakin əsaslı rəsmi təhsil almayıblar. Onlara göstərilən hörmət səxavətlilik və pak əməllərlə səciyyələnən bir

həyat təcrübəsindən əldə etdikləri müdrikliyə görədir. Onlar bir müddətdir ki, Bəhai təlimləri ilə tanış idilər, lakin məhz son vaxtlarda bu təlimləri daha cidd-cəhdlə araşdırmaq qərarına gəliblər. Bir həftə bundan əvvəl onlar Alexandranın valideynlərinə bildirdilər ki, icmaya qoşulmaq istəyirlər. Onları qəbul etmək üçün yığıncaq artıq planlaşdırılmışdı və bundan da əlavə, razılaşdırılmışdı ki, Alexandra Əmr haqqında onların biliyini dərinləşdirmək üçün silsilə mövzuları paylaşmaq məqsədilə bir neçə həftə ərzində onları müntəzəm olaraq ziyarət etsin. Ziyarətlərin hekayəsini izləməklə, siz bu mövzuları araşdırmağa qabil olacaq və eyni zamanda da, bu kimi vəziyyətlərdə baş tutan söhbətin dinamikası üzərində düşünəcəksiniz.

## BÖLMƏ 3

Alexandra cənab və xanım Sançeslərlə ilk söhbətini Allahın əbədi Əhdi adlı aşağıdakı mövzunun qısa izahı üzərində qurmağı planlaşdırır.

> Hər şeyin Yaradanı Tək, Bənzərsiz, Qəyyum Allahdır. Həzrət Bəhaullah bizə öyrədir ki, Allahın mahiyyəti insan ağlı üçün dərkolunmazdır, çünki məhdud qeyri-məhdudu dərk edə bilməz. İnsanların Onun barəsində yaratdıqları təsəvvürlər onların təxəyyül məhsulundan başqa bir şey deyil. Allah bir insan deyil, O, sadəcə kainat boyunca yayılmış bir qüvvə də deyil. Var olmağımızın Mənbəyinə xitab etmək üçün bizim zərurətən istifadə etdiyimiz Səmavi Ata, Səmavi Qüvvə, Böyük Ruh kimi sözlər Onun adlarını və sifətlərini insan dilində ifadə edir və Onu təsvir etmək üçün qətiyyən uyğun deyil.
>
> Gizli Kəlamlarda oxuyuruq:
>
> **“Ey İnsan Oğlu! Yaradılışını sevdim, odur ki, səni yaratdım! İndi Məni sev ki, səni anım və qəlbini həyat ruhu ilə doldurum”.**[1]
>
> Həzrət Bəhaullah bu parçada bizə buyurur ki, Allahın bizi sevməsi mövcudluğumuzun səbəbidir. Biz Onun bizi hifz edən, saxlayan, bizi həyat ruhu ilə dolduran məhəbbətindən həmişə agah olmalıyıq. Çətinlikdə, yaxud rahatlıqda, kədərdə ya sevincdə biz xatırlamalıyıq ki, Onun məhəbbəti həmişə bizi sarır.
>
> Bəhai təlimlərindən öyrənirik ki, bizi sevgisindən yaratdıqdan sonra Allah bizimlə Əhd bağlayıb. “Əhd” sözü iki, yaxud daha çox şəxs arasında müqavilə və ya vəd deməkdir. Əbədi Əhdə əsasən, Kəramətli Yaradan bizi heç vaxt tərk etmir, zaman-zaman Öz İradə və Məqsədini Məzhərləri vasitəsilə bizə açır.
>
> Məzhər sözünün kökü olan “zahir etmək” feili – açmaq, əvvəllər məlum olmayan bir şeyi göstərmək deməkdir. Allahın Məzhərləri o xüsusi Varlıqlardır ki, Allah Kəlamını bizə açırlar. Onlar bizə Allahın İradəsinə uyğun necə yaşamağı və əsl xoşbəxtliyə necə yetişməyi öyrədən universal Tərbiyəçilərdir. Bu Məzhərlər arasında Həzrət İbrahim, Həzrət Krişna, Həzrət Musa, Həzrət Zərdüşt, Həzrət Budda, Həzrət Məsih, Həzrət Məhəmməd və əlbəttə, bəşər tarixinin indiki dövrü üçün Allahın Qoşa Məzhərləri Həzrət Bab və Həzrət Bəhaullah vardır.
>
> Beləliklə, Allahın əbədi Əhdində Onun etməli olduğu şeylər həmişə yerinə yetirilmişdir. Bizim hamımızın özümüzdən soruşmalı olduğumuz təməl sual budur:

"mən Əhddəki öhdəliyimi necə yerinə yetirirəm?" Bütün dini yazılarda qarşımıza çıxan cavab budur: Allahın Məzhərini tanımaq və Onun təlimlərinə itaət etməklə. Bu cavab bizə həyatımızın ümdə məqsədini göstərir – bu, Allahı tanımaq və Ona ibadət etməkdir. Qısa Namazda biz iqrar edirik:

**"Ey mənim Allahım, Səni tanımaq və Sənə ibadət etmək üçün məni yaratdığına şəhadət verirəm. Bu anda öz acizliyimə və Sənin qüdrətinə, öz zəifliyimə və Sənin qüvvətinə, öz fəqirliyimə və Sənin zənginliyinə şəhadət verirəm.**

**Səndən başqa Allah yoxdur, Sən İmdada Yetən və Qəyyumsan".[2]**

Məzhərləri vasitəçi olmasa, bizim Allahı tanımağımız mümkün olmadığından, həyatımızın məqsədinə çatmağımızın yeganə yolu Onları tanımaq və təlimlərinə riayət etməkdir. Bu gün bizim qəlblərimiz bütün Müqəddəs Kitablarda verilmiş vədin, yer üzündə sülh və ədalətin bərqərar olması vədinin yerinə yetməkdə olduğu bir zamanda yaşamaq nemətinə görə minnətdarlıqla dolub daşır. Həzrət Bəhaullah bəyan edir:

**"Bu Gün Allahın ən gözəl lütflərinin insanların üzərinə yağdığı Gündür, o Gün ki, Onun ən böyük fəzli bütün yaradılmış şeylərə nüfuz etmişdir. Dünyanın bütün xalqları aralarındakı təfriqələri barışdırmaq və kamil birlik və sülh içində Onun inayət ağacının kölgəsinə sakin olmalıdırlar".[3]**

Hekayəmizi davam etdirməzdən əvvəl, siz yuxarıdakı izahatı oxumalı və qrupunuzdakı digər iştirakçılarla birlikdə hər abzasın üzərində düşünməlisiniz. Oradakı ideyaları təbii surətdə və asanlıqla ifadə edə bilənə qədər bir-birinizə suallar verə və onları birlikdə cavablandıra bilərsiniz. Sitatları yaxşı öyrənmək xüsusilə vacibdir, çünki bu cür müzakirələrdə Yazılardan parçaları bölüşmək labüddür. Bu bölmədə təqdim olunan ideyalar və verilən sitatların mənası üzərində düşünməkdə aşağıdakı çalışmalar sizə kömək edəcəkdir:

1. Allahın dərk olunmaz mahiyyət olduğunu kiməsə necə izah edərdiniz? Yuxarıdakı birinci abzas bu cəhətdən sizə kömək etməlidir.

   ______________________________
   ______________________________
   ______________________________
   ______________________________

2. Allah bizi niyə yaratmışdır? ______________________________
   ______________________________

3. "Əhd" sözünün mənası nədir? ______________________________
   ______________________________

4. Bəşəriyyətlə Əhdində Allah nə vəd etmişdir? ______________________________
   ______________________________

5. Bizim həyatımızın məqsədi nədir? ______________________________

______________________________________________

6. Əgər biz Allahın mahiyyətini heç vaxt bilməyəcəyiksə, onda həyatımızın məqsədinin Allahı tanımaq olması nə deməkdir? ______________________________

______________________________________________

7. “Zahir etmək” sözünün mənası nədir? ______________________________

______________________________________________

8. Allahın bəzi Məzhərlərinin adlarını çəkin: ______________________________

______________________________________________

______________________________________________

______________________________________________

9. Əhddə öz üzərimizə düşən hissəni yerinə yetirmək üçün bizdən nə tələb olunur? ___

______________________________________________

10. Aşağıdakı cümlələri tamamlayın:

a. Bu Gün Allahın ______________________________ bəşəriyyətin üzərinə yağmışdır.

b. Bu Gün Allahın ______________________________ bütün yaradılmış şeylərə nüfuz etmişdir.

c. Bu Gün biz aramızdakı təfriqələri ____________________ və kamil birlik və sülh içində ______________________________

11. Həzrət Bəhaullah dünya xalqlarının nə etməsini istəyir? ____________________

______________________________________________

______________________________________________

## BÖLMƏ 4

Alexandranın cənab və xanım Sançeslərlə edəcəyi söhbətin məzmunu onun ağlında olan yeganə şey deyildi. O, bu cütlüklə möhkəm bir dostluq bağı qurmağa ümid edir. Öz şəxsi təcrübəsindən o, təəssübkeşliyin və himayədar münasibətin zərərli təsirlərindən xəbərdardır. O, təbii olaraq bunlardan uzaq duracaqdır; onun ali təhsili təvazökarlığını azaltmamışdır. Onun ürəyində Sançeslərə qarşı əsl sevgi və hörmətdən başqa heç nə yoxdur. Birinci mövzunu necə izah edəcəyini nəzərdən keçirərkən o özünə xatırladır ki, bu, çoxlu həftələr ərzində açılmalı olan davamlı söhbətin başlanğıcıdır. Həmçinin etiraf edir ki, fikirlər ardıcıllığını aydın təqdim etmək vacib olsa da, o, müəyyən məqamlarda dayanmalı və cütlüyün cavablarını dinləməlidir. “Mən çalışmalıyam ki, həyəcanlanmayım,” – o öz-özünə

deyir, – “çünki əks halda, mən danışmağa davam edəcəm və söhbətin bir forma alması imkanı olmayacaq”. Alexandra başında bu cür fikirlərlə bir müddət ziyarəti barəsində düşünməkdə davam edir. Əgər siz onun yerində olsaydınız, aşağıdakılardan hansıları zehninizdə yer almalı olan münasib fikir hesab edərdiniz?

_____ Sançesləri Din barədə təlimatlandırmaq və mənim dediyim hər şeyi öyrəndiklərinə əmin olmaq mənim işimdir.

_____ Bu gözəl cütlüklə bir qədər vaxt keçirmək və Yazılardan parçaları onlarla bölüşmək imkanına malik olmaq necə də xoş bir imtiyazdır.

_____ Mən bilirəm ki, bu ziyarət vacibdir. Amma yenə də ümid edirəm ki, bu, çox vaxt almayacaq, çünki mənim başqa işlərim də var.

_____ Sitatlar onlar üçün çox çətin olacaq. Mən ancaq bir-iki sadə fikri dilə gətirərəm. Ən vacibi onlara sevgi göstərməkdir.

_____ Sançeslər bu yaşlarında çox şey öyrənə bilməzlər.

_____ Mən ziyarətin baş tutmasını, mövzuları müzakirə edərkən və sitatlar üzərində düşünərkən onların bəsirətlərini eşitməyi səbirsizliklə gözləyirəm.

_____ Onlar oxuya bilirlər. Mən sadəcə mövzunu təqdim edəcək və sitatları öyrənməyi onların öz ixtiyarlarına buraxacağam.

_____ Fikirləri təqdim edərkən, mən tez-tez fasilə verməliyəm ki, sitatları bir yerdə öyrənək və onlar barəsində məşvərət edək.

_____ Ümid edirəm ki, mən fasiləsiz olaraq bütün mövzunu təqdim edə biləcəyəm və sonda hər hansı sualları olub-olmadığını soruşacağam.

Belə bir ziyarətə hazırlaşarkən ağlınıza gəlməsini istədiyiniz və ya istəmədiyiniz digər fikirlər barəsində düşünə bilərsinizmi?

## BÖLMƏ 5

Alexandranın Sançeslərin evinə ilk ziyarəti yaxşı gedir. Cütlük onun həyəcanlı olduğunu görür, özlərinin istiqanlılıq və mehribanlıqları ilə onun özünü rahat hiss etməsinə şərait yaradırlar. Onlar diqqətlə qulaq asır və sitatlara xüsusi diqqət yetirərək müzakirədə tam iştirak edirlər. Yeganə çətin məqam sonda xanım Sançes Alexandranı bir sualla təəccübləndirəndə olur: “Bəhai icmasına qoşulanda mən Məsihi unutmalı olurammı?” Alexandra cavabı bilir, lakin onu fikrən formalaşdırmaq bir qədər vaxtını alır. Cənab Sançes gülümsəyir və onun köməyinə gəlir: “Mən düşünürəm ki, əslində Bəhai təlimlərini öyrənəndən bəri mənim Məsihə olan məhəbbətim daha da artıb”. “Dünya üzrə çox insanda belə olur,” – fikirlərini toplamış Alexandra əlavə edir. “Onların Həzrət Musaya, Həzrət Məsihə, Həzrət Krişnaya, Həzrət Buddaya, Həzrət Zərdüştə və Həzrət Məhəmmədə qarşı məhəbbətləri Allahın birliyi, dinin vahidliyi və bəşəriyyətin birliyi barədə Həzrət Bəhaullahın öyrətdikləri hesabına möhkəmlənib”.

Qrupunuzda bir anlığa dayanıb Alexandranın ziyarəti zamanı həmin ziyarəti daha da səmərəli etmək üçün mövcud olmalı olan bəzi keyfiyyət və münasibətləri müzakirə etməyiniz faydalı olardı. Baxmalı olduğunuz o keyfiyyətlər arasında başlıcası təvazökarlıqdır. Bütün təvazökarlıqların təməli Allahın qarşısında mütilikdir. Bu mütilikdən də Onun yaratdıqları qarşısındakı təvazökarlıq törəyir. Mütilik ən çox da Allah və Onun Məzhərləri haqqında danışanda önəmlidir. Siz Həzrət Bəhaullahın aşağıdakı sözləri üzərində düşünməli və onları əzbərləmək üçün hər cür səy qoymalısınız:

> **"Allahın sevimli kəsləri hər hansı bir yerdə toplaşanda və bir kimsə ilə görüşəndə, Allaha münasibətlərində və Onun şanını vəsf etmək tərzlərində elə mütilik və təslimiyyət göstərməlidirlər ki, ayaqlarının altındakı torpağın hər bir zərrəsi onların sədaqətinin dərinliyinə şahidlik etsin. O müqəddəs könüllərin etdiyi söhbətlər elə bir qüvvə ilə canlanmalıdır ki, o torpağın zərrələri onların təsirindən titrəsin. Onlar elə davranmalıdırlar ki, üstündə yeridikləri torpağın onlara bu cür sözlərlə xitab etməsinə imkan verməsinlər: 'Mən sizdən üstünəm. Çünki mən əkinçilərin bütün əzablarına səbirlə dözürəm. Bütün fəzlin Mənbəyi olan Kəsin məndə əmanət qoyduğu nemətləri bütün canlılara davamlı olaraq bəxş edən bir vasitəyəm. Bu yüksək şərəfə və bütün varlığın ehtiyacını ödəyən tükənməz sərvətimə baxmayaraq, mənim mütiliyimin dərəcəsinə bax, gör mən necə də tam təslimiyyətlə insanların ayaqları altında tapdalanmağa razı olmuşam..."[4]**

Yuxarıda qeyd edildiyi kimi, insanlar qarşısında bizim təvazökarlığımız Allahın qarşısındakı mütiliyimizdən qaynaqlanır. Məhz bu mütiliklə biz müəyyən mövzular üzrə anlayışımızı birlikdə dərinləşdirmək üçün dostun, yaxud qonşunun evini ziyarət edərkən dua münasibətinə yiyələnirik. Söhbət zamanı biz fikirlərimizi tez-tez Allaha yönəldir, Ondan bizim özümüzün və orada iştirak edənlərin ağlını və ürəyini nurlandırmasını diləyirik. Dualarda çoxlu ifadələr və cümlələr vardır ki, bu məqsədlə biz onları əzbərləyə bilərik. Bunlar sadəcə bir neçəsidir:

> **"Qəlblərimizi nurlandır, bizə bəsirət gözləri bağışla və eşidən qulaqlar əta eylə".[5]**

> **"Ya Rəbb! Sonsuz bəxşişlərini lütf et və hidayət nurunu parlat".[6]**

> **"İrfan qapılarını aç və iman nurunu parlat".[7]**

> **"Ya Rəbb! Gözlərimizi aydınlat ki, Sənin nurunu görə bilək".[8]**

> **"Mən bütünlüklə Sənə tərəf dönürəm, bütün ürəyim, ağlım və dilimlə coşqunluqla Sənə yalvarıram, Sənin bu İlahi birlik dövründə Sənin iradənə qarşı gələn bütün şeylərdən məni qoru..."[9]**

## BÖLMƏ 6

Sançeslər ailəsini ziyarət etdikdən və əbədi Əhd barəsində onlarla olan söhbətindən sonra Alexandranın ürəyi sevinclə doludur. "Növbəti ziyarət," – o düşünür – "Həzrət Bəhaullahın həyatı haqqında biliklərini dərinləşdirmələri üçün yaxşı bir fürsət ola bilər". Aşağıda onun istifadə edəcəyi təqdimat verilir:

Həzrət Bəhaullah 12 noyabr 1817-ci ildə Tehranda, İranın paytaxtında anadan olmuşdur. O, uşaqlıqdan qeyri-adi keyfiyyətlər göstərirdi və valideynləri inanırdılar ki, Onun taleyinə böyüklük yazılmışdır. Həzrət Bəhaullahın şahın sarayında görkəmli vəzirlərdən biri olan atasının Oğluna sonsuz məhəbbəti vardı. Bir gecə o, yuxuda gördü ki, Həzrət Bəhaullah sonsuz bir dəryada üzür, Onun bədəni parıldayaraq və işıq saçaraq sahilsiz ümmanı işıqlandırır. Qapqara saçları başından şüa kimi çıxır və hər tərəfə yayılırdı. Onun ətrafında çoxlu balıqlar toplaşmışdı və hər biri bir telinin ucundan tutmuşdu. Balıqların sayı nə qədər çox olsa da, bircə tel belə Həzrət Bəhaullahın başından qopmamışdı. O, sərbəst və maneəsiz hərəkət edir, balıqlar isə Onun arxasınca üzürdülər. Həzrət Bəhaullahın atası müdrikliyi ilə məşhur olan bir nəfərdən bu yuxunu yozmasını xahiş etdi. O şəxs dedi ki, sonsuz dərya varlıq aləmidir. Təkbaşına və köməksiz Həzrət Bəhaullah onun üzərində hakim ola bilərdi. Balıqların çoxluğu isə dünya insanları arasında Onun qaldıra biləcəyi təlatümdən xəbər verirdi. O, Qüdrət Sahibinin dəyişməz hifzi altında olacaqdı; bu təlatüm Ona ziyan vurmayacaqdı.

Həzrət Bəhaullah on üç ya on dörd yaşına çatanda hikmət və elminə görə şahın sarayında məşhur idi. İyirmi iki yaşı olanda atası vəfat etdi və hökumət atasının vəzifəsini Həzrət Bəhaullaha təklif etdi. Amma Onun vaxtını dünyəvi işlərin idarəçiliyinə sərf etmək niyyəti yox idi. O, Allahın Onun üçün qoyduğu yolla getmək üçün sarayı və onun vəzirlərini tərk etdi. Həzrət Bəhaullah vaxtını məzlumlara, xəstə və fəqirlərə köməyə həsr etdi və tezliklə ədalət işinin müdafiəçisi kimi tanındı.

İyirmi yeddi yaşı olanda Həzrət Bəhaullah xüsusi bir elçi vasitəsilə yeni bir Günün doğuşunu – o Gün ki, onda Allahın yeni Məzhəri bəşəriyyətin uzun zamanlardan bəri həsrətində olduğu sülh, ədalət və birliyi yer üzünə gətirəcəkdi – elan edən Həzrət Babın bəzi Yazılarını aldı. Həzrət Bəhaullah Həzrət Babın Dəvətini dərhal qəbul etdi və Onun ən şövqlü ardıcıllarından biri oldu. Lakin əfsuslar olsun ki, İran xalqını idarə edən və xudbin arzuları ilə gözləri pərdələnmiş şəxslər böyük bir qəddarlıqla Həzrət Babın ardıcıllarını təqib etməyə başladılar. Əsilzadəliyi ilə tanınmasına baxmayaraq, Həzrət Bəhaullaha da qıydılar. Həzrət Babın Bəyanından səkkiz ildən bir qədər artıq vaxt keçəndən və Həzrət Babın Özünün şəhidliyindən iki il sonra Həzrət Bəhaullah həbs edilərək Siyahçal adlı qaranlıq zindana salındı. Onun boynuna salınmış zəncirlər o qədər ağır idi ki, başını belə qaldıra bilmirdi. Həzrət Bəhaullah burada şiddətli məşəqqətlər içində dörd ay keçirdi. Amma məhz elə bu zindanda da Allahın Ruhu Onun qəlbini doldurdu və bütün zamanların Vəd Olunmuş Kəsi olduğunu Ona açdı. Həzrət Bəhaullahın Günəşi bu qaranlıq məhbəsdən doğaraq bütün xilqəti işıqlandırdı.

Siyahçalda dörd ay qaldıqdan sonra Həzrət Bəhaullahın bütün mal-mülkü qarət edildi və ailəsi ilə birlikdə sürgün edildi. Qışın kəskin soyuğunda onlar İranın qərbindəki dağlardan keçərək o zamanlar Osmanlı İmperiyasının bir şəhəri, bu gün isə İraqın paytaxtı olan Bağdada getdilər. O taleyüklü şəhərə doğru qarlı və buzla örtülmüş yollarla yüzlərlə kilometr piyada gedərkən onların çəkdikləri əzab-əziyyətləri sözlə təsvir etmək mümkün deyil.

Həzrət Bəhaullahın şöhrəti tezliklə bütün Bağdada və bölgənin digər şəhərlərinə yayıldı və getdikcə daha çox sayda insanlar xeyir-bərəkət almaq üçün bu sürgün olunmuş Məhbusun qapısına gəlməyə başladılar. Lakin Onun şan-şöhrətini qısqanan bir neçə nəfər də vardı. Onların arasında Həzrət Bəhaullahın sevgi dolu qayğısı altında yaşayan ögey qardaşı Mirzə Yəhya da var idi. Mirzə Yəhyanın fitnələri Həzrət

Babın ardıcılları arasında təfriqə yaranmasına səbəb oldu və Həzrət Bəhaullaha böyük kədər gətirdi. Bir gecə heç kimə demədən, Həzrət Bəhaullah Öz evini tərk edib Kürdüstan dağlarına getdi. Orada O, dua və təfəkkürə dalaraq inziva həyatı yaşayırdı. O, kiçik bir mağarada qalır və ən sadə yeməklərlə qidalanırdı. O ərazidə heç kəs nə Onun haradan gəldiyini, nə də adını bilirdi. Amma bölgənin insanları tədricən "Adsız" bir Şəxs, Allahın bilik bəxş etdiyi böyük bir Övliya haqqında danışmağa başladılar. Bu Müqəddəs Şəxs haqqında xəbərlər Həzrət Bəhaullahın böyük Oğlu Həzrət Əbdül-Bəhaya yetişəndə, O, sevgili Atasının əlamətlərini dərhal tanıdı. Həzrət Bəhaullahın Bağdada qayıtması üçün yalvararaq Ona xüsusi bir elçi ilə məktublar göndərildi. O bu xahişləri qəbul etdi və iki il davam edən əzablı ayrılıq dövrünə son verdi.

Həzrət Bəhaullahın olmadığı müddətdə Babi icmasının vəziyyəti sürətlə pisləşdi. Dağlardan qayıtmasının ardınca Bağdadda yaşadığı yeddi il ərzində Həzrət Bəhaullah Həzrət Babın təqib olunan və çaş-baş qalmış ardıcıllarına yeni ruh verdi. Hərçənd O, hələ Öz böyük məqamını elan etməmişdi, lakin Onun sözlərinin gücü və hikməti getdikcə daha çox babinin sədaqətini və hər təbəqədən olan insanların heyranlığını qazandı. Amma təəssübkeş müsəlman ruhaniləri Həzrət Bəhaullahın belə böyük sayda insanlar üzərində nəhəng təsirini görməyə dözə bilmədilər. Onlar hakimiyyət dairələrinə o qədər şikayətlər etdilər ki, İran hökuməti Osmanlı İmperiyasının bəzi məmurları ilə əl-ələ verərək Həzrət Bəhaullahı vətənindən daha uzağa, bu dəfə İstanbul şəhərinə göndərdilər.

1863-cü ilin apreli Bağdad əhalisi üçün böyük kədər ayı idi. Onların sevdikləri Kəs şəhəri tərk edib qeyri-müəyyən bir aqibətə doğru gedirdi. Şəhəri tərk etmə ərəfəsində Həzrət Bəhaullah şəhərin kənarındakı bir bağa köçdü, orada çadır qurub on iki gün ərzində Onunla vidalaşmağa gələn insan axınını qəbul etdi. Həzrət Babın ardıcılları kədərli qəlblə bağa gəldilər; bəziləri sürgündə növbəti mərhələdə Onu müşayiət edəcəkdi, amma çoxları da arxada buraxılacaq və Onunla yaxın ünsiyyətdən məhrum olacaqdılar. Amma Allah istəmədi ki, bu gediş ancaq kədərli bir gediş olsun. Onun sonsuz kərəm qapıları geniş açılmışdı və Həzrət Bəhaullah ətrafındakı insanlara Özünün Həzrət Babın öncədən xəbər verdiyi Şəxs, Allahın zahir edəcəyi Kəs olduğunu elan etdi. Kədər sonsuz sevincə çevrildi; könüllər dirçəldi və qəlblər Ona olan məhəbbət atəşindən alışdı. Aprel ayında bu on iki gün Rizvan Bayramı, Həzrət Bəhaullahın cahanşümul Missiyasının bəyanının ildönümü kimi hər yerdə qeyd edilir.

İstanbul Osmanlı İmperiyasının paytaxtı idi. Burada yenə də dörd aydan bir qədər çox müddətdə Həzrət Bəhaullahın hikməti və şəxsi cazibəsi getdikcə artan sayda insanı cəzb etdi. "O, daha İstanbulda qala bilməz," – Həzrət Bəhaullahı Ədirnə şəhərinə sürgün etmək üçün səlahiyyət sahiblərini inandıran təəssübkeş müsəlman din xadimləri donquldandılar. Dörd il yarım qaldığı Ədirnədə Həzrət Bəhaullah dünyanın sultan və hökmdarlarına Lövhlər yazıb göndərdi və onları zülmkarlıqdan əl çəkib özlərini xalqlarının rifahına həsr etməyə çağırdı. Sonra Onun düşmənləri olduqca qəddar bir cəza fikirləşdilər. Həzrət Bəhaullah və ailəsi o zaman bütün imperiyada ən pis cəza koloniyası olan Əkkaya sürgün ediləcəkdilər. "Əlbəttə, O, şəhər-məhbəsin ağır şərtlərində məhv olacaq," – deyə Allahın Özünün işə saldığı planı dayandıra biləcəklərini düşünən ağıldankəm insanlar düşünürdülər.

Həzrət Bəhaullahın Əkkada məruz qaldığı məşəqqətləri saymaqla bitməz. O bütün rahatlıq vasitələrindən məhrum idi, gecə-gündüz düşmənlərlə əhatə olunmuşdu.

Lakin məhbusluğun şərtləri tədricən dəyişdi. Əkka sakinləri və oranın hökuməti onların şəhərinə sürgün olunmuş bəhailərin bu kiçik dəstəsinin günahsızlığına inandılar. İnsanlar yenə də bu qeyri-adi Şəxsiyyətin hikmət və məhəbbəti ilə cəzb olunurdular, hərçənd əksəriyyəti Onun uca məqamını dərk etmirdilər. Təxminən doqquz il sonra şəhər-məhbəsin qapıları Həzrət Bəhaullah və ardıcıllarının üzünə açıldı. Onun sevimli Oğlu Həzrət Əbdül-Bəha Atasının şəhər kənarında yaşaması üçün layiqli bir yer təmin edə bilmişdi və nəticədə, Həzrət Bəhaullahın həyatının son on üç ilini kənd yerində nisbi dinclik və sakitlik içində yaşaya biləcəyi bir evi icarəyə götürmək mümkün olmuşdu. İndi biz bu evi Bəhci İmarəti kimi tanıyırıq – Həzrət Bəhaullah Özünün əzəmət və calalının zirvəsində ikən, 1892-ci ilin mayında orada süud etdi.

Həzrət Bəhaullah ümumdünya sülhü və qardaşlığının bayrağını qaldırdı və Allahın Kəlamını nazil etdi. Baxmayaraq ki, düşmənləri öz qüvvələrini Ona qarşı birləşdirdilər, O onlara qalib gəldi, çünki Tehranda, qaranlıq zindanda zəncirlər altında olanda Allah Ona qalib olacağı vədini vermişdi. Həyatı dövründə Onun Müjdəsi minlərlə insanın qəlbini canlandırdı. Onun təlimləri bu gün də bütün dünyada yayılmaqda davam edir. Bəşəriyyəti bir ümumdünya Əmrində, vahid Dində birləşdirmək kimi son hədəfinə nail olmaqda Ona heç nə mane ola bilməz.

Həzrət Bəhaullahın yuxarıdakı həyat hekayəsi nisbətən uzundur. Aşağıdakı çalışmaya keçməzdən əvvəl hekayənin hər abzasını bir-bir qrupunuzda oxumalı, məzmunu yaxşı bilənə və rahatlıqla təqdim edənə qədər bir-birinizə suallar verməlisiniz. Aşağıdakı xəritə Həzrət Bəhaullahın sürgün yolunu xəyalınızda canlandırmaqda və o yolda baş verən hadisələri yadda saxlamaqda sizə kömək edəcəkdir.



1. Siz yuxarıdakı hekayə əsasında Həzrət Bəhaullahın həyatı ilə bağlı əsas hadisələrin ardıcıllığını aşağıda verilmiş yerdə yazmağın faydalı olduğunu görə bilərsiniz.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

2. Həzrət Bəhaullahın həyatı mövzusu ətrafındakı müzakirədə hadisələrin ardıcıllığından əlavə xüsusi olaraq altı cızılmalı olan bir sıra konsepsiyalar vardır. Bəşəriyyətə məhəbbəti xatirinə dözdüyü əzab-əziyyətlər, həmçinin müxalifət qarşısında Onun Dininin nail olduğu qeyri-adi qələbələr üzərində düşünmək xüsusilə vacibdir. Qoy bu sözlər bizim ağlımızda və qəlbimizdə həkk olunsun:

**"Əzəli Camal zəncirlərlə qandallanmağa razı oldu ki, bəşər köləlikdən xilas olsun, ən böyük Qalada məhbus olmağı qəbul etdi ki, bütün dünya həqiqi azadlığa çıxsın. O, kədər badəsini sonadək içdi ki, yer üzünün bütün insanları daimi sevincə qovuşsun və şadlıqla dolsun. Bu sənin Rəhman və Rəhim Rəbbinin mərhəmətindəndir. Ey tövhid əhli, Biz zilləti qəbul etdik ki, siz izzətə çatasınız və hər cür bəlalara razı olduq ki, siz firavan olasınız və rifaha yetişəsiniz. Baxın, bütün dünyanı yenidən qurmaq üçün gəlmiş Kəsi müşriklər ən xaraba şəhərdə necə məskun etmişlər!"[10]**

3. Biz Həzrət Bəhaullahın əzab-əziyyətləri haqqında danışanda, ehtiyatlı olmalıyıq ki, Onu düşmənlərin aciz qurbanı kimi təqdim etməyək. O, istəyərək zəncirlərə

vurulmağı qəbul etdi ki, bəşəriyyət azad olsun. Onun həyat tarixçəsi, böyük əzab hekayələri ilə dolu olsa da, mahiyyətinə görə müzəffərdir. Qrupunuzun aparıcısının köməyi ilə Həzrət Bəhaullahın həyatı barədə mövcud biliyiniz əsasında Onun əzab və qələbələri haqqında qısa bir çıxış hazırlaya bilərsinizmi? Aşağıdakı suallar sizə yardımçı ola bilər.

a. Həzrət Bəhaullah nə üçün zəncirlərlə qandallanmağa razı oldu? _____________

_______________________________________________________________

b. Həzrət Bəhaullah nə üçün məhbus olmağı qəbul etdi? _____________________

_______________________________________________________________

c. Həzrət Bəhaullah nə üçün kədər badəsindən içdi? ________________________

_______________________________________________________________

d. Həzrət Bəhaullah nə üçün zilləti qəbul etdi? ____________________________

_______________________________________________________________

e. Həzrət Bəhaullah nə üçün bu qədər bəlalara dözdü? _______________________

_______________________________________________________________

f. Həzrət Bəhaullah əziyyətləri qəbul etdi, çünki O başqa cür etməkdə aciz idi? ___

_______________________________________________________________

g. Əgər Həzrət Bəhaullah düşmənləri qarşısında aciz deyildisə, onda nə üçün əziyyət çəkməyi qəbul etdi? ___________________________________________

_______________________________________________________________

## BÖLMƏ 7

Alexandranın Sançeslərin evinə ikinci ziyarəti də birincisi kimi sevincli olur. Cənab və xanım Sançeslər Həzrət Bəhaullahın həyat hekayəsi ilə artıq bir qədər tanışdırlar, amma Alexandranın təqdimatında daha çoxunu öyrəndiklərinə görə şaddırlar. Onun çəkdiyi əzab-əziyyətlər nəql edildikcə onlara açıqca təsir etdi. “Görünür ki,” – xanım Sançes bir məqamda düşünür – “Allahın Məzhərləri liderlik və dünyəvi hakimiyyət üçün susamış kəslərin əllərindən həmişə əziyyət çəkmişlər”. Alexandra qərara alır ki, əzbərlədiyi – son bölmədən sizin də əzbər bildiyiniz – sitatı onlarla bölüşməyin əsl yeridir. Çünki Həzrət Bəhaullah orada bəşəriyyət naminə, bizim zülmdən azad olub əbədi xoşbəxtliyə çatmağımız naminə çəkdiyi əzablardan danışır. Hər üç dost ogünkü müzakirədən sonra özlərini ruhlanmış hiss edirlər.

Növbəti ziyarət üzərində düşünərkən Alexandra tez bu qənaətə gəlir ki, Həzrət Əbdül-Bəhanın məqamı müzakirə üçün çox təbii bir mövzu olardı. Bunlar onun əhatə etməli olacağı məqamlardır:

Həzrət Bəhaullahın böyük Oğlu Həzrət Əbdül-Bəha bəşər tarixində ən misilsiz bir simadır və əvvəlki dinlərdən heç birində Ona bənzər bir şəxsiyyət tapa bilmərik. O,

hələ uşaq ikən Atasının ilahi məqamını qəbul etmiş və Onun sürgün və əzablarını bölüşmüşdü. Süudundan sonra Həzrət Bəhaullah Bəhai icmasını məhz Həzrət Əbdül-Bəhanın qayğı və mühafizəsi altında buraxıb getdi. Yalnız Öz uca Vəhyini deyil, həm də biliyi və hikməti ilə, Özünün buyurduğu kimi, dünyanı hidayət edəcək və nurlandıracaq Oğlunu bizə verməklə Həzrət Bəhaullahın insanlığa bəxş etdiyi sonsuz neməti tamlığı ilə heç vaxt başa düşə bilmərik.

Biz Həzrət Əbdül-Bəhanın həyatı və bəyanlarını öyrənəndə, bu Zühur Dövründə Onun tutduğu misilsiz məqam barəsində bəsirət əldə edirik. Bu məqamın üç cəhətini yadda saxlamaq bizim üçün vacibdir.

Birincisi, Həzrət Əbdül-Bəha Həzrət Bəhaullahın Əhdinin Mərkəzidir. Həzrət Bəhaullah Öz ardıcılları ilə əhd bağladı və onları dəvət etdi ki, qəlblərini o mərkəzə tərəf çevirsinlər və ona tam sadiq olsunlar. Əhd və Vəsiyyətində Həzrət Əbdül-Bəha Bəhai Dininin Vəlisi Şövqi Əfəndini Öz süudundan sonra hamının üz tutmalı olduğu mərkəz təyin etdi. Bu gün bu mərkəz Ümumdünya Ədalət Evidir ki, o da Həzrət Bəhaullahın aydın hökmünə, Həzrət Əbdül-Bəha və Əmrin Vəlisinin aydın təlimatlarına uyğun olaraq yaradılmışdır. Əhdin qüvvəsi Bəhai icmasını bir yerdə saxlayır və onu bölünmə və parçalanmadan qoruyur.

İkincisi, Həzrət Əbdül-Bəha Həzrət Bəhaullahın sözlərinin səhvsiz Şərhçisidir. Həzrət Bəhaullahın Vəhyi elə geniş, Onun bəyanlarında qorunan mənalar elə dərindir ki, O Özündən sonra bir şərhçi, Özünün ilhamlandıracağı bir Kəsi təyin etməyi zəruri hesab etdi. Beləliklə, gələcək nəsillər boyu insanlıq Həzrət Əbdül-Bəhanın şərhlərini Onun çoxsaylı Lövhlərindən və çıxışlarının təsdiqlənmiş mötəbər yazılarından öyrənməklə Həzrət Bəhaullahın təlimlərini başa düşə biləcəkdir. Əmrin Vəlisi Şövqi Əfəndi Həzrət Əbdül-Bəhadan sonra Həzrət Bəhaullahın təlimlərinin Şərhçisi idi; şərhetmə vəzifəsi onunla sona yetdi və Zühur Dövrünün sonuna qədər daha heç kəs Həzrət Bəhaullahın sözlərini şərh etmək səlahiyyətinə malik deyil.

Keçmişdə hər bir din Müqəddəs Yazılardan parçaların fərqli şərhlərinə görə parçalanmalara düçar olmuşdur. Lakin bu Zühur Dövründə Həzrət Bəhaullahın bəyanının mənası ilə bağlı qeyri-müəyyənlik olduqda hər kəs Həzrət Əbdül-Bəhanın və Əmrin Vəlisinin şərhlərinə müraciət edir. Əgər yenə də qeyri-müəyyənlik qalarsa, şəxs aydınlaşdırma üçün Ümumdünya Ədalət Evinə müraciət edə bilər. Odur ki, təlimlərin mənasına görə münaqişə üçün heç bir yer qalmamışdır və beləcə, Bəhai dininin birliyi qorunmuş olur.

Üçüncüsü, Həzrət Əbdül-Bəha Atasının təlimlərinin kamil Nümunəsidir. Baxmayaraq ki, biz heç vaxt belə bir kamillik dərəcəsinə çatmağa ümid edə bilmərik, yenə də biz Onu daim gözlərimiz önündə saxlamalı və Ondan nümunə götürməyə çalışmalıyıq. Yazılarda sevgi haqqında oxuyanda biz Həzrət Əbdül-Bəhaya müraciət edə və Onda sevgi və mehribanlığın cövhərini görə bilərik. Biz paklıq, ədalət, dürüstlük, sevinc və səxavət haqqında oxuyanda Ona üz tuta və Onun həyatı barəsində düşünə bilərik. Belə olduqda biz görəcəyik ki, bu keyfiyyətləri O, necə ən yüksək kamillik dərəcəsində göstərmişdir.

Həzrət Əbdül-Bəhanın həyatının nişanı, əlbəttə, Onun bəndəliyidir. Əbdül-Bəha adı "Bəhanın qulu" deməkdir və O bu adı Ona verilən bütün digər adlardan üstün

tutmuşdur. Həzrət Əbdül-Bəhanın aşağıdakı sözləri Onun atəşli xidmət arzusunun ifadəsidir:

**"Mənim adım Əbdül-Bəhadır. Mənim təyinatım Əbdül-Bəhadır. Mənim gerçəkliyim Əbdül-Bəhadır. Mənim tərifim Əbdül-Bəhadır. Qədim Camala bəndəlik mənim ehtişamlı və parlaq tacımdır, bütün bəşər irqinə xidmət mənim əbədi dinimdir... Əbdül-Bəhadan başqa mənim adım, ləqəbim, zikrim və tərifim yoxdur və heç vaxt da olmayacaq. Budur mənim atəşli arzum. Budur mənim ən böyük amalım. Budur mənim əbədi həyatım. Budur mənim daimi izzətim".**[11]

Aydındır ki, Alexandranın növbəti ziyarətdə Sançeslərlə bölüşməyi planlaşdırdığı şey məhz ən misilsiz bir şəxsiyyətin təqdimatıdır; Həzrət Əbdül-Bəhanın bu Zühurda tutduğu məqamın onlar tərəfindən başa düşülməsi qarşıdakı illərdə artacaqdır. Xidmət yolunda addımladıqca sizin öz həyatınızda da Onun nümunəsini xatırlamaq və Onun sözləri üzərində düşünmək üçün çoxlu fürsətləriniz olacaq. Siz artıq əvvəlki fəsildə Onun bəzi bəyanları ilə tanış olmuşdunuz və orada təşviq olunurdunuz ki, Lövhlərində və ictimai çıxışlarında irəli sürdüyü fikirləri Onun Özünün ifadə etdiyi tərzdə ifadə etməyi öyrənəsiniz. İndilik isə Onun məqamı barəsində sizin mövcud anlayışınızı möhkəmləndirmək üçün qrupunuzun digər üzvləri ilə yuxarıda qeyd olunan əsas məqamlar üzərində məşvərət etməli və onları yaxşı söyləməyin praktikasını etməlisiniz. Sitat gətirilən parça üzərində düşünmək xidmət yolunda irəliləmək səylərinizdə sizi ilhamlandıracaqdır.

## BÖLMƏ 8

Cənab və xanım Sançeslərə ziyarətə başlayandan bəri Alexandranın fikrində olan bir sual onların qonşuluqdakı icma quruculuğu prosesinin möhkəm və fəal protaqonisti olmalarına ən çox kömək edəcək müzakirə mövzusunun nə ola biləcəyi sualıdır. Bir tərəfdən dua, ruhun ölümsüzlüyü, Allahın məhəbbətində möhkəmlik kimi mövzular vardır ki, Alexandra bunları onlarla müzakirə etməyə ümid edir, çünki onların ruhani həyatlarının təməli davamlı olaraq gücləndirilməlidir. Digər tərəfdən isə onların tədricən inkişaf etməkdə olan bir icma barədə baxış əldə etmələri və bu inkişafın gerçəkləşməsinə dəyərli töhfələr verə biləcəklərini bilmələri vacibdir. Həzrət Əbdül-Bəhanın məqamı barəsində cənab və xanım Sançeslərlə söhbətin gedişində Alexandra növbəti ziyarətinin mövzusunun nə olmalı olduğunu tədricən başa düşməyə başlayır. "Onlar Bəhai dininin insanları birləşdirmək məqsədi barədə xeyli dərəcədə aydın təsəvvürə malikdirlər," – o fikirləşir. "Ona görə də, indi yəqin bizim araşdırmalı olacağımız mövzu vəhdət halında olan bir icmanı necə yaratmaq və necə saxlamaq barəsində olmalıdır".

Alexandra dördüncü ziyarətinə qonşuluqda nisbətən kiçik dostlar qrupunun hazırda üzərlərinə götürdükləri fəaliyyətləri təsvir etməklə başlayır. "Sayımız artdıqca," – o izah edir – "bizim hamımızın çiynimizə götürməli olduğumuz ən meydanoxuyucu məsuliyyət sözlərimizdə, fikirlərimizdə və hərəkətlərimizdə getdikcə daha da bir olmağımızdır. Əgər razısınızsa, onda bu gün biz birlik mövzusunu birgə araşdıra bilərik".

— Mən görə bilirəm ki, icmamızın inkişafı üçün birlik necə vacibdir, – xanım Sançes cavab verir.

— Hər şeydən əvvəl, Həzrət Bəhaullahın məhz birlik haqqında mesajı bizim qəlblərimizi ilk dəfə Onun təlimlərinə cəzb etdi, – cənab Sançes deyir.

— Mən bir neçə fikir seçmişəm və hər biri üçün də bir sitat tapmışam, – Alexandra deyir. — Əgər etiraz etmirsinizsə, biz bir-bir onların üzərindən keçə və onları müzakirə edə bilərik.

Alexandranın fikirlər siyahısı aşağıda sadalanır:

- İcmamızın doğrudan da bir olması üçün hər birimiz çəkişmə və rəqabətdən qaçmalıyıq. Həzrət Bəhaullah buyurur:

**“Bu Gün bu Əmrə Allahın sevimliləri arasındakı ixtilaf və ədavət, çəkişmə, yadlaşma və etinasızlıqdan başqa heç nə daha böyük ziyan vura bilməz. Allahın qüvvəti və hökmran köməyi ilə bunlardan uzaqlaşın və Onun Birləşdirici, Alim və Hikmətli adı ilə insanların könüllərini bir-birinə bağlamağa çalışın”.**[12]

- İcmadakı hər kəsə qarşı bizim sevgimiz olmalıdır, o sevgi ki, Allaha olan sevgimizin əks olunmasıdır. Həzrət Əbdül-Bəha buyurur:

**“Kamil birlik içində olun. Heç vaxt bir-birinizə qəzəblənməyin… Yaradılmışları, onların özlərinə görə deyil, Allah xatirinə sevin. Əgər onları Allah xatirinə sevsəniz, heç vaxt qəzəblənməz və ya səbirsiz olmazsınız. Bəşəriyyət kamil deyil. Hər bir insanda çatışmazlıqlar var və əgər insanların özlərinə baxsanız, həmişə məyus olacaqsınız. Lakin əgər Allaha tərəf üz tutsanız, onları sevəcək və mehriban olacaqsınız, çünki Allahın aləmi kamillik və tam mərhəmət aləmidir”.**[13]

- Əgər bir-birimizə hiss etdiyimiz sevgiyə baxmayaraq, yenə də aramızda gərginlik baş qaldırarsa, dərhal Həzrət Əbdül-Bəhanın bu nəsihətini xatırlamalıyıq:

**“Mən sizin hamınızı məsul edirəm ki, hər biriniz ürəklərinizin bütün fikirlərini sevgi və birlik üzərində cəmləşdirəsiniz. Savaş fikri gəldikdə, ona daha güclü olan sülh fikri ilə müqavimət göstərin. Nifrət fikri isə daha qüvvətli olan məhəbbət fikri ilə dağıdılmalıdır. Savaş fikirləri bütün ahəngi, rifahı, dincliyi və məmnunluğu pozur.**

**Sevgi fikirləri qardaşlıq, sülh, dostluq və xoşbəxtlik qurucusudur”.**[14]

- Və əgər ehtiraslarımızı idarə etmək üçün hər cür səy qoyduqdan sonra da görürüksə ki, onlar bizə hakim kəsilir və biz bir-birimizlə münaqişə edirik, onda Həzrət Bəhaullahın bu sözlərini xatırlamalıyıq:

**“Əgər aranızda hər hansı ixtilaf baş qaldırırsa, Məni göz önünə gətirin. Mənim adım xatirinə və Mənim aşkar və calallı Əmrimə məhəbbətinizin bir nişanəsi kimi, bir-birinizin səhvlərinə göz yumun”.**[15]

- Diqqətimizi başqalarının tərifəlayiq keyfiyyətləri üzərində cəmləyərək və özümüzü qeybətdən tamamilə uzaq tutaraq onların qüsurlarına göz yummaq kimi ruhani bir intizam ixtilaf əleyhinə ən təsirli tədbirdir. Biz bir-birimizi sevəndə qeybət etmək

meylini aşmaq daha asan olur. Yadda saxlamalıyıq ki, biz sevdiyimiz insanların səhvlərini görməməyə meyilliyik və onların günahlarına göz yummaq bizim üçün çətin deyil. Həzrət Əbdül-Bəha buyurur:

**"Qüsurlu göz qüsurları görür. Qüsurları örtən göz ruhların Yaradıcısına tərəf baxır. O onları yaradıb, onlara təlim və ruzi verir, onlara qabiliyyət və həyat, görmə və eşitmə əta edir; ona görə də onlar Onun əzəmətinin əlamətləridirlər. Siz hər kəsi sevməli və mehriban olmalısınız, yoxsulun qayğısına qalmalı, zəifi qorumalı, xəstəni sağaltmalı, cahili öyrədib ona təlim-tərbiyə verməlisiniz".[16]**

Həzrət Bəhaullah bizə nəsihət edir:

**"Ey Ərş Dostum! Pis eşitmə və pis görmə, özünü zəlil etmə və ah-nalə qaldırma. Yəni, pis demə ki, pis eşitməyəsən, başqalarının eybini böyütmə ki, öz eybin böyük görünməsin, heç kəsə zillət arzulama ki, sənin də zillətin faş olmasın. İndi ləkəsiz qəlbin, arınmış ürəyin, pak könlün və təmiz vicdanınla bir andan daha qısa olan ömrünü yaşa ki, azad və məmnun bir halda, bu fani cəsəddən mənalar Cənnətinə qayıdasan və əbədi aləmdə sakin olasan".[17]**

Və O bizə buyurur:

**"Ey Mühacirlər! Dil Məni zikr etmək üçündür; onu qeybətlə bulaşdırmayın. Əgər odlu nəfsiniz sizə üstün gəlsə, onda Mənim yaratdıqlarımın eyiblərini deyil, öz eyiblərinizi xatırlamaqla məşğul olun. Çünki sizin hər biriniz öz nəfsinizi başqalarının nəfsindən daha yaxşı tanıyırsınız".[18]**

- Birlik sadəcə ədavət və ixtilafın olmaması deyil, sevgi isə ancaq sözlərdə ifadə olunmamalıdır. Əgər bizim bir-birimizə olan məhəbbətimiz icmaya xidmətə çevrilirsə və əgər fəaliyyətlərimiz əməkdaşlıq və qarşılıqlı kömək ruhu ilə idarə olunursa, biz ancaq onda iddia edə bilərik ki, aramızda əsl birlik mövcuddur. Həzrət Əbdül-Bəha bizi buna çağırır:

**"Bir dəqiqə də olsa, dincəlməyin və bir anlıq da olsa, rahatlıq axtarmayın; əksinə, cani-dildən işləyin ki, tək bircə dosta iltifatlı xidmət göstərəsiniz, tək bircə nurlu ürəyə xoşbəxtlik və sevinc gətirəsiniz. Bu, əsl nemətdir və bununla Əbdül-Bəhanın alnı işıqlanır. Bunda mənə tərəfdaş və yoldaş olun".[19]**

Və O təsdiq edir:

**"Bəşəriyyətin ən ümdə ehtiyacı əməkdaşlıq və qarşılıqlılıqdır. İnsanlar arasında yoldaşlıq və həmrəylik bağları nə qədər möhkəm olarsa, insan fəaliyyətinin bütün müstəvilərində quruculuq və nailiyyətin gücü də o qədər böyük olar".[20]**

- Uğurlu icma hərəkəti üçün ən vacib açar bütün məsələlərdə açıq və sevgi dolu məşvərətdir. Məşvərət vasitəsilə bir məsələyə bizim baxdığımız müxtəlif yollar bir yerdə qovuşur və biz kollektiv hərəkətimizdə hansı istiqamətdə getməli olduğumuzu tapırıq. Məşvərət vasitəsilə biz fikir birliyinə nail oluruq, vahid fikir və baxışla biz icmalarımızın tərəqqisi üçün effektiv planlar qururuq. Məşvərət edənlər barəsində Həzrət Əbdül-Bəha buyurur:

**“Birlikdə məşvərət edənlər üçün başlıca tələblər niyyətin paklığı, ruhun şadlığı, Allahdan başqa hər şeydən inqita, Onun İlahi Rayihələrinə cəzb olunma, Onun sevdikləri arasında təvazökarlıq və mütilik, çətinliklərdə səbir və dözüm və Onun uca Astanasında bəndəlikdir. Əgər Allahın rəhmi ilə onlar bu sifətləri əldə etsələr, Bəhanın görünməz Mələkutundan onlara qələbə əta ediləcək”.**[21]

- Əgər fikir birliyi hərəkət birliyinə çevrilmirsə, onu həyata keçmiş saymaq olmaz. Birlik içində hərəkət etmək hamımızın eyni şeyi etməyimiz demək deyil. Əksinə, vəhdətdə olan hərəkətdə bir icmanın üzvlərinin müxtəlif istedadları tamlığı ilə istifadə olunur. Bizim gücümüz dəfələrlə artır və hətta sayımız hələ az olduqda belə, biz dünyadakı ən iri və güclü təşkilatların nail ola bilmədiklərinə yetişə bilərik. Həzrət Əbdül-Bəha buyurur:

**“Nə zaman ki, müqəddəs ruhlar səmavi güclərdən istifadə edərək ruhun bu cür keyfiyyətləri ilə ayağa qalxar, ahəngdar şəkildə, səf-səf düzülüb yürüş edər, bu ruhların hər biri min insanın gücünə malik olar, o qüdrətli dəryanın qabaran dalğaları Mələyi-Əlanın alayları kimi olar”.**[22]

Yuxarıdakıları diqqətlə oxuduqdan və məzmunu qrupunuzdakı iştirakçılarla bənd-bənd müzakirə etdikdən sonra əvvəlki üç bölmədə etdiyiniz kimi, onları təqdim etməyin praktikasını etmək üçün bir-birinizə kömək etmək istəyəcəksiniz. Aşağıdakı çalışmaların səylərinizdə sizə kömək etdiyini görəcəksiniz.

1. Aşağıdakı cümlələri tamamlayın:

a. Bu Gün bu Əmrə Allahın sevimliləri arasındakı __________________ və ədavət, çəkişmə, yadlaşma və etinasızlıqdan başqa heç nə daha böyük ziyan vura bilməz.

b. Bu Gün bu Əmrə Allahın sevimliləri arasındakı ixtilaf və __________________, çəkişmə, yadlaşma və etinasızlıqdan başqa heç nə daha böyük ziyan vura bilməz.

c. Bu Gün bu Əmrə Allahın sevimliləri arasındakı ixtilaf və ədavət, çəkişmə, yadlaşma və etinasızlıqdan başqa _____________ daha böyük ziyan vura bilməz.

d. Bu Gün bu Əmrə Allahın sevimliləri arasındakı ixtilaf və ədavət, çəkişmə, yadlaşma və __________________ başqa heç nə daha böyük ziyan vura bilməz.

e. Bu Gün bu Əmrə Allahın sevimliləri arasındakı ixtilaf və ədavət, _____________ __________, yadlaşma və etinasızlıqdan başqa heç nə daha böyük ziyan vura bilməz.

f. Bu Gün bu Əmrə Allahın sevimliləri arasındakı ixtilaf və ədavət, çəkişmə, _____ ______________________ və etinasızlıqdan başqa heç nə daha böyük ziyan vura bilməz.

g. Bu Gün ____________________ Allahın sevimliləri arasındakı ixtilaf və ədavət, çəkişmə, yadlaşma və etinasızlıqdan başqa heç nə daha böyük ziyan vura bilməz.

2. İkinci sitatda Həzrət Əbdül-Bəha bizə buyurur:

a. Biz kamil ____________ içində yaşamalıyıq.

b. Biz heç vaxt ___________________________________________.

c. Biz bütün insanları onların özlərinə görə deyil, ___________________________ sevməliyik.

d. Əgər biz insanları ____________________ sevsək, heç vaxt _______________ və ya _______________________________ olmarıq.

e. Bəşəriyyət _______________ deyil.

f. Əgər biz __________________________ baxsaq, həmişə __________________ _______________.

g. Əgər biz ___________________ tərəf üz tutsaq, _________________________ və _______________ olacağıq.

3. Üçüncü sitatda Həzrət Əbdül-Bəha bizə buyurur:

a. Biz hamımız ürəyimizdəki bütün fikirləri ____________ və _________________ üzərində cəmləşdirməliyik.

b. Savaş fikri gəldikdə, biz ona __________________________________________ __________________ göstərməliyik.

c. Nifrət fikri ________________________________________________________ dağıdıla bilər.

d. Savaş fikirləri bütün _____________, ________________, _______________ və _________________ pozur.

e. Sevgi fikirləri _________________, _______________, _________________ və ________________ qurucusudur .

4. İcmada sizinlə digərləri arasında ixtilaf cücərdiyini görsəniz, nə etməlisiniz? ______
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________

5. İcmanızda birliyə töhfə verməkdə sizə kömək edən ruhani intizamı təsvir edin: ____
____________________________________________________________________
____________________________________________________________________

6. Aşağıdakılardan hansılar birliyə töhfə verir?

_____ Başqalarının çatışmazlıqlarına baxmaq

_____ Başqalarının səhvlərinə göz yummaq

_____ Başqa bir kəsin çatışmazlığı haqqında bir dosta danışmaq

_____ Başqa şəxsi pis göstərmək üçün bir hadisəni böyütmək, yaxud təhrif etmək

_____ Başqalarının səhvləri barəsində düşünmək

7. Nə üçün bəzi insanlar səhv edəndə onları tənqid edirik, digərlərini isə eyni səhvə görə tənqid etmirik? ____________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

8. İnsanların bir-biriləri haqqında qeybət etdikləri bir vəziyyətdə birliyə nail olmaq mümkündürmü? Niyə yox? ______________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

9. Kiminsə haqqında yalan danışmaq aşkar səhvdir. Amma bir kəsin həqiqətən etdiyi bir şeyə görə onun haqqında tənqidi qeydlər dilə gətirmək düzgündürmü? ____________

______________________________________________________________________________

10. Başqası haqqında dedi-qodu, qeybət və tənqid etmək arasında nə fərq var? ________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

11. Dedi-qodu, qeybət və davamlı tənqid icmaya hansı təsiri göstərir?________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

12. Bu vərdişləri həyatımızdan necə çıxara bilərik? ______________________________

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

13. Əgər insanlar haqqında yalnız onlar yanımızda imişlər kimi danışsaq, necə olardı? _

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

14. Əgər biz uşaqların yanında qeybət etsək, bu onlara necə təsir edəcək? ____________

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

15. Dedi-qodu etmək və qeybətlə məşğul olmaq meyli nədən irəli gəlir? ______________

________________________________________________________________________

________________________________________________________________________

16. Həzrət Bəhaullah bizə nəsihət edir: "Əgər odlu nəfsiniz sizə üstün gəlsə, ______ ___________________________________ deyil, _______________________________ _____________________________________ Çünki sizin hər biriniz _____________ _______________________________________________ daha yaxşı tanıyırsınız".

17. Sevgi yalnız sözlərdə ifadə olunmur. Daha nə lazımdır? _______________________

________________________________________________________________________

18. Birlik və sevgi ilə bağlı Həzrət Əbdül-Bəha bizi dəvət edir ki: "Bir dəqiqə də ______, ________________ və bir anlıq da olsa, ______________________________; əksinə, _________________________ ki, ____________________________________________, tək bircə nurlu ürəyə _________________ və _______________________________".

19. Daha sonra O təsdiq edir: "Bəşəriyyətin ən ümdə ehtiyacı ____________________ və _____________________. İnsanlar arasında ________________ və ________________ bağları nə qədər möhkəm olarsa, insan fəaliyyətinin bütün müstəvilərində _________ ________ və __________________ gücü o qədər böyük olar".

20. Uğurlu icma hərəkəti üçün ən vacib açar nədir? ______________________________

________________________________________________________________________

21. Məşvərət edənlər barəsində Həzrət Əbdül-Bəha buyurur: “Birlikdə məşvərət edənlər üçün başlıca tələblər ________________________, ________________________, ________________________________________________, ________________________ ________________________________, Onun sevdikləri arasında ________________ ________________, çətinliklərdə _____________________ və Onun uca Astanasında ________________. Əgər Allahın rəhmi ilə onlar bu sifətləri əldə etsələr, Bəhanın görünməz Mələkutundan _____________________________________”.

22. Birlik içində işləməyin gücü haqqında Həzrət Əbdül-Bəha bizə buyurur: “Nə zaman ki, müqəddəs ruhlar ____________________________________________________ __________________________ ayağa qalxar, __________________________, səf-səf düzülüb yürüş edər, bu ruhların __________________________________, o qüdrətli dəryanın qabaran dalğaları ____________________________ kimi olar”.

## BÖLMƏ 9

Cənab və xanım Sançeslərə dördüncü ziyarəti zamanı Alexandra yaxınlıqdakı orta məktəbdə oxuyan və nənə-babasının evində qalmağa gəlmiş nəvələri Beatrislə tanış olmaqdan məmnun oldu. Beatris birlik mövzusuna çox maraq göstərir və müzakirədə şövqlə iştirak edir. Söhbətin sonuna yaxın xanım Sançes hamıya kofe və piroq gətirir. Bu, Beatrisi bir az daha yaxından tanımaq üçün Alexandraya fürsət verir və o, qonşuluqdakı icma quruculuğu səyləri barəsində söhbət etmək üçün ertəsi gün onunla görüş təşkil edir. “O, əsas kurslar ardıcıllığını keçməyə maraq göstərə bilər,” – deyə Alexandra öz-özünə düşünür. “Mən sabit bir sürətlə ilk bir neçə kitabı keçməkdə ona kömək edə bilərdim. Sonra o, uşaq dərsi başlatmaq istəyə, yaxud qonşuluqda formalaşmaqda olan yeniyetmə qrupu ilə işləməkdə mənə kömək edə bilər. Bu halda, o, animator kimi xidmət edə bilmək üçün onu hazırlayacaq Kitab 5-ə qədər irəliləyərək qrup üçün tədricən daha çox məsuliyyət götürə bilər”. Alexandra bir neçə gənclər yığıncağında iştirak etmişdir, hansı ki, müəyyən müzakirə mövzularında fokuslanılmış və çoxlarının institut prosesində iştirakına gətirib çıxarmışdır. O qərara alır ki, ertəsi gün Beatrislə söhbəti də eyni fikirlər ardıcıllığı ilə getsin. Söhbət belə açılır:

> Bizim hamımız dünyanın daha yaxşı bir yerə çevrilməsini görmək istəyirik. Biz gələcəyə baxırıq, nə zaman ki, həmin vaxt ümumdünya sülhü bərqərar olacaq, insan ailəsi ahəng içində yaşayacaq. Belə bir gələcək xəyal deyil və bizlərdən getdikcə daha çox insan dünyanın yaxşılaşmasına töhfə vermək üçün səy qoyduqca belə qurula bilər. Hər birimizin ürəyinin dərinliyində icmamıza xidmət etmək arzusu var. Bizə lazım olan budur ki, ümumun rifahı naminə fədakarcasına xidmət aktları həyata keçirmək üçün qabiliyyətimizi inkişaf etdirək.
>
> Biz bəşəriyyətə xidmətimiz haqqında bir yerdə getdiyimiz xidmət yolu kimi düşünə bilərik. Bu yol hamıya açıqdır. Hamımız bu yola girmək seçimi edirik və bu yolda öz sürətimizlə irəli gedirik. Biz bu yolu tək getmirik; biz bir yerdə öyrənərək və bir-birimizi müşayiət edərək bu yolu dostlarımızla yanbayan gedirik. Atdığımız hər addım sevinc və əminlik yaradır, qoyduğumuz hər bir səy ilahi təyidlər gətirir.

Eşitdikləri Beatrisin xoşuna gəlir və bu qısa təqdimatdan sonra canlı bir söhbət başlayır. Daha irəli getməzdən əvvəl, gəlin burada qısa fasilə verək və bu iki yeni dostun arasındakı qarşılıqlı əlaqənin təbiəti üzərində düşünək. Alexandra Beatrisi institut prosesində iştiraka dəvət etmək üçün onu praktiki əhəmiyyətli bir söhbətə cəlb etmək qərarına gəlir. Alexandra üçün sadəcə institutun silsilə kurslar təklif etdiyini demək və Beatrisi kurslara qoşulmağa dəvət etmək nə üçün yetərli olmazdı?

## BÖLMƏ 10

Alexandra ilə Beatris arasındakı söhbət təqribən iki saat davam edir. Alexandranın yeni rəfiqəsi ilə bölüşdüyü əlavə bir neçə fikir aşağıda verilir. Əlbəttə, biz başa düşürük ki, o uzun və fasiləsiz bir təqdimat etməyəcək. O iki saatın böyük hissəsi bu abzaslarda verilən fikirlərin birlikdə müzakirəsinə həsr olunur:

> Biz gəncik, enerjimiz var, böyük şövqümüz var. İnsanlar fikirləşirlər ki, biz etinasızıq. Amma tam əksinədir; biz bəşəriyyətin taleyindən narahatıq və cəmiyyətə gerçək dəyişiklik gətirilməsini görmək istəyirik. Biz, həmçinin öz həyatımız – təhsil, iş, dostlar, ailə – haqqında da düşünməliyik. Hər il daha da böyüdükcə, çiynimizə daha çox məsuliyyət götürürük; valideynlərimiz bizdən çox şey gözləyirlər. Bəzən mən bütün məsuliyyətlərim haqqında düşünəndə üzərimdə ağır bir yük hiss edirəm. Onda Bəhai yazılarından əzbərlədiyim bir sitat yadıma düşür: "İnsan həyatının bahar çağı var və bu dövr heyrətamiz möhtəşəmliklərlə doludur. Gənclik dövrü güc və coşğu ilə səciyyələnir və insan həyatının ən gözəl çağı hesab olunur".
>
> Mən səninlə onu bölüşmək istərdim ki, dünya üzrə bizim icmaya bənzər icmalardan olan çoxlu gənc insanlar başa düşürlər ki, onların enerjisi ikili məqsədə istiqamətləndirilə bilər: özlərinin intellektual və ruhani inkişaflarının məsuliyyətini götürmək və cəmiyyətin transformasiyasına töhfə vermək. Bizim məqsədimizin bu iki cəhəti bir-birilə bağlıdır. Biz öz qabiliyyətlərimizi inkişaf etdirdikcə, başqalarına daha yaxşı xidmət etməyə qadir oluruq və bir-birimizə kömək etməklə biz fərd kimi inkişaf edir, malik olduğumuz keyfiyyətləri möhkəmləndiririk.
>
> Məhz burada mənim daha əvvəl qeyd etdiyim xidmət yolu ideyası ortalığa çıxır. Bu yolla getmək sadəcə bizim həyatımıza əlavə etdiyimiz bir şey deyil; o bizim etdiyimiz hər şeyə məna qatır. İcmaya xidmət bizə təhsilimizin məqsədini daha yaxşı anlamaqda, gələcək barəsində fikirlərimizi aydınlaşdırmaqda, ailələrimizin rifahına töhfə vermək üçün lazım olan keyfiyyətləri inkişaf etdirməkdə kömək edir. O bizim

dostluğumuzu möhkəmlədir. O bizim enerjimizi bayağı məqsədlərə sərf edilməkdən qoruyur.

Ruhani və intellektual inkişafımız barəsində düşünərkən, bizə təsir edən çoxlu qüvvələrdən agah olmalıyıq. Bilik, ədalət, sevgi kimi bəzi qüvvələr bizi düzgün istiqamətdə aparır və biz özümüzü onlarla uyğunlaşdırmağı öyrənməliyik. Materializm və xudbinlik kimi digər qüvvələr əksini edir və biz onlara müqavimət göstərməliyik. Biz mükəmməlliyə yetişməyə çalışmalı və səylərimizin ilahi təyid alacağına inamımız olmalıdır.

Cəmiyyətin transformasiyasına – zorakılıq, yoxsulluq və iztirab dünyasını sülh, firavanlıq və harmoniya dünyasına çevirmək – töhfə vermək barədə düşünəndə biz həm maddi, həm də ruhani tərəqqini nəzərə almalıyıq. Ruhani cəhətdən tərəqqi etməyincə bütün insanlar üçün maddi tərəqqiyə də nail ola bilməyəcəyik. Əgər bu ikisi əl-ələ gedərsə, ancaq onda dünyanın yaxşılaşmasına nail olmaq olar. Əzbər bildiyim başqa bir sitat da var: "Maddi sivilizasiya çıraq kimidir, ruhani sivilizasiya isə çırağın işığıdır. Əgər maddi və ruhani sivilizasiyalar birləşərsə, onda bizim həm işığımız, həm də çırağımız bir yerdə olacaq, nəticə isə mükəmməl olacaq".

Biz xidmət yolunda addımladıqca, fərdlər qrupu ilə, xüsusilə uşaq və yeniyetmə qrupları ilə işləməyi öyrənir, bilik, bacarıq və ruhani keyfiyyətlər əldə etməkdə onlara kömək edirik. Biz, həmçinin icmalarımızın birliyinə diqqət yetiririk. Bir icmanın tərəqqisinə töhfə vermək istəyən fərdlər, ailələr və təşkilatlar əməkdaşlıq etməlidirlər. Onlar müştərək baxış və məqsəd yaratmalı, münaqişə yollarını arxada buraxmalıdırlar.

Ona görə də bu çox vacibdir ki, biz bir gənc olaraq başqaları ilə ahəngdar qarşılıqlı fəaliyyət vərdişlərini inkişaf etdirək. Biz dost olmalıyıq: gördüyümüz işdə bir-birimizi müşayiət edərək, bir-birimizin töhfələrini qəbul edərək, bir-birimizi təşviq edərək və dəstəkləyərək, bir-birimizin güclü tərəflərini görərək, bir-birimizdən faydalı məsləhətlər alaraq və verərək, bir-birimizin nailiyyətlərinə sevinərək. Xidmət yolu ilə gedərkən biz hərəkət etməli, hərəkətlərimiz üzərində düşünməli, məşvərət etməli və bir yerdə oxuyub-öyrənməliyik.

Son bir neçə onillik ərzində Bəhai icması dünyanın faktiki olaraq hər bir ölkəsində çox xüsusi bir öyrənmə təsisatı qurmağa müvəffəq olmuşdur. Bizim indi institut kimi istinad etdiyimiz bu təsisatlar icmaya xidmət etmək üçün bizim qabiliyyətlərimizi möhkəmləndirən kurslar təklif edir. Bu kursları keçməklə biz xidmət yolunda birgə irəliləməkdə lazım olan ruhani bəsirətləri və praktiki bacarıqları qazanırıq. Bu kurslarla irəlilədikcə mürəkkəbliyi getdikcə artan xidmət aktlarını yerinə yetirmək qabiliyyətimiz artır. Biz həmişə bizdən təcrübəli olanlar tərəfindən müşayiət olunur, vaxtı çatanda isə biz də təcrübəsi az olan dostları müşayiət etməyə başlayırıq. Lap əvvəldən, bizim hamımız öz öyrənməmiz və icmaya xidmətimiz üçün məsuliyyəti həvəslə üzərimizə götürdüyümüz şəxsi və sosial transformasiyada protaqonistik.

"Protaqonist olmaq" düşüncəli hərəkət etmək, səylərimizdə əzmkar olmaq, hər bir addımda bilik əldə etmək və onu tətbiq etmək üçün iradəyə malik olmaq deməkdir. Protaqonist sadəcə faydaların passiv alıcısı deyil, o, tərəqqiyə fəal töhfə verəndir. Protaqonist olmaq üçün insan yaradıcı və intizamlı təşəbbüs həyata keçirməyi

öyrənməlidir. İnstitut kursları bizə icma quruculuğu prosesinin protaqonisti olmaq üçün qabiliyyətlərimizi yüksəltməkdə kömək edir.

Biz yuxarıdakı abzaslardakı fikirlər üzərində düşünmək üçün bir anlıq dayanmalıyıq. Bölmənin əvvəlində qeyd edildiyi kimi, Alexandra sadəcə fikirləri bir-birinin ardınca təqdim etməyəcəkdi, həm də Beatrisin onlar barəsində düşünmək və müzakirəyə töhfə vermək üçün çoxlu fürsətlərinin olmasını təmin edəcəkdi. İndi siz bu məsələyə diqqət yetirin ki, hər bir abzası qrupunuzda müzakirə etmək və özünüzün oradakı fikirləri yaxşı ifadə etməyinizi öyrənmək imkanına malik olduqdan sonra söhbət elə bir nöqtəyə yetişibmi ki, Alexandra Ruhi İnstitutunun kursları barəsində bir neçə söz demək və Beatrisi Kitab 1-i öyrənməyə dəvət etmək üçün özünü inamlı hiss etsin? Əgər siz onun yerində olsaydınız, nə deyəcəyinizi aşağıda verilmiş boş yerdə yaza bilərsinizmi? Kitab 1 və 2-ni və onların dəvət etdiyi xidmət aktlarını necə təsvir edərdiniz? Sonrakı kurslarda edilən xidmət aktlarına qısa istinad – xüsusilə uşaqların ruhani təlim-tərbiyəsi üçün dərslərin aparılması və yeniyetmə qruplarının istiqamətləndirilməsi üçün animator olmaq – gələcəkdə hansı xidmətləri edə biləcəyi barədə baxış əldə etməkdə Beatrisə şübhəsiz, kömək edərdi. Qrupunuzun aparıcısı, Beatrisi Kitab 1-i öyrənməyə dəvət edəndə Alexandranın edə biləcəyinə oxşar olaraq, bu iki xidmət aktı barəsində bir neçə cümlə yazmaqda sizə kömək edə bilər.

## BÖLMƏ 11

Alexandranın Sançeslərin evinə növbəti ziyarəti iki həftə sonra baş tutur. Bu müddətdə Beatris intensiv kampaniyada iştirak edə və Kitab 1-in ilk iki fəslini bitirə bildi. İndi o, qonşuluqda həftədə iki dəfə görüşən beş nəfər dostdan ibarət qrupla üçüncü fəsli keçir. Alexandra düşünür ki, Sançeslər ailəsi ilə dua mövzusunda söhbət etmək üçün fürsət yaranıb və Beatrisdən ona bu məsələdə kömək edə bilərdimi deyə soruşur. Siz özünüz Kitab 1-in ikinci fəslini öyrənmisiniz, ona görə də ziyarət zamanı Alexandra və Beatrisin əhatə etdikləri məzmunun burada sizin üçün qısa icmalını verməyə ehtiyac yoxdur. O fəsli yenidən nəzərdən

keçirdikdən sonra siz bu mövzu ətrafında müzakirədə xitab edəcəyiniz əsas məqamları göstərməyi bacarmalısınız. İdeyalarınızı yazmaq üçün aşağıda boş yer verilir.

# BÖLMƏ 12

Alexandranın Sançeslər ailəsinə ziyarətləri daha bir neçə həftə davam edir və onların duanın əhəmiyyəti – ruhun həyatı, ruhani keyfiyyətlərin inkişafı, Allahın qanun və hökmlərinə itaət və Ona məhəbbətdə möhkəmlik – barədə müşavirələrindən təbii olaraq çıxan bir neçə mövzuda müzakirələr aparmaq imkanları olur. Bir dəfə onlar İnzibati Nizamın təsisatları, xüsusilə, Yerli və Milli Ruhani Məhfillər barədə bir qədər söhbət edirlər. Bu ardıcıl ziyarətlərin hər birində əhatə olunan mövzuların məzmununa baxmağımıza ehtiyac yoxdur. Amma bizim indi təsəvvür etdiyimiz söhbətə oxşar silsilə söhbətlərin iştirakçıları arasında tez-tez baş qaldıran iki sual vardır. Bunlardan birincisi icmanın təşkil etdiyi görüşlərin təbiəti ilə, ikincisi isə maliyyə resursları ilə bağlıdır. Bu bölmədə biz görüşlər məsələsinə, xüsusilə də, On Doqquz Gün Ziyafəti mövzusuna baxacağıq, maliyyə məsələsinə isə növbəti bölmədə baxılacaq.

Ona görə də, aşağıdakı məqamlar On Doqquz Gün Ziyafəti mövzusunda söhbətin bünövrəsi ola bilər:

- Bəhai icmasında yığıncaqlar müxtəlif məqsədlərlə – dua etmək, oxuyub-öyrənmək, xüsusi günləri qeyd etmək, icmanın işləri və cəmiyyətə xidmət barəsində məşvərət etmək, hərəkət planlarını müzakirə etmək üçün – təşkil edilir. Həzrət Bəhaullah belə bir vəd verir:

**“Canıma və Əmrimə and olsun! Allahın dostlarının daxil olduqları və Rəbbi tərif və vəsf etmək sədalarının ucaldığı hər bir yerin ətrafında həqiqi inananların ruhları və bütün sevimli mələklər dolanar”.**[23]

- Dostlar arasındakı yığıncaqlarda Allahın Kəlamına qulaq asmaq qəlblərə sevinc gətirir və birlik bağlarını möhkəmlədir. Həzrət Bəhaullah bizə nəsihət edir:

**“Hansı ölkədə olurlarsa olsunlar, dostlar gərək görüşlərdə bir yerə yığışsınlar, orada hikmət və bəlağətlə danışsınlar və Allahın ayələrini oxusunlar; çünki məhz Allah Kəlamı məhəbbət odunu yandırır və onu alovlandırır”.**[24]

Həzrət Əbdül-Bəha yazır:

**“Yığıncaqlar keçirin, səmavi Təlimləri oxuyun və səsləndirin ki, bəlkə o ölkə həqiqətin nuru ilə işıqlana və o torpaq Müqəddəs Ruhun təyidləri ilə heyranedici cənnətə çevrilə, zira bu əsr Əbha Rəbbin əsridir, bəşər dünyasının birliyi təranəsi Şərq və Qərbdə insanların qulaqlarına yetişir”.**[25]

- Bəhai görüşləri arasında On Doqquz Gün Ziyafətini xüsusi olaraq qeyd etmək lazımdır. Bəhai təqvimi hər biri on doqquz gün olmaqla on doqquz aydan ibarətdir və hər bir nahiyədə bəhailər ayda bir dəfə, Həzrət Bəhaullahın Özünün əmr etdiyi kimi, bu görüş üçün toplaşırlar:

**“Həqiqətən, sizə əmr edilmişdir ki, ancaq su ilə də olsa, ayda bir dəfə ziyafət verəsiniz; zira Allah qəlbləri həm dünyəvi, həm də səmavi vasitələrlə bir-birinə bağlamağı məqsəd qoymuşdur”.**[26]

- On Doqquz Gün Ziyafəti üç hissədən ibarətdir. Birincisi ruhani hissədir ki, onda dualar səslənir və Müqəddəs Yazılardan parçalar oxunur. İkincisi inzibati hissədir ki, onda icmanın işləri barədə məşvərət aparılır. Üçüncü hissə isə sosial hissədir.

- On Doqquz Gün Ziyafətinin ruhani hissəsinin vacibliyi barədə Həzrət Əbdül-Bəhanın aşağıdakı sözlərindən bir işartı alırıq:

**“Siz ey Qədim Camalın sadiq bəndələri! Hər bir dövrdə və zühurda ziyafət bəyənilmiş və sevilmiş və Allah aşiqləri üçün süfrə açmaq tərifəlayiq hərəkət hesab olunmuşdur. Xüsusilə də bu gün, bu müqayisə olunmaz dövrdə, əsrlərin ən səxavətlisində, ziyafətin ali səviyyədə alqışlandığı bir vaxtda belədir, zira o, həqiqətən, Allaha sitayiş etmək və Onu vəsf edərək ucaltmaq üçün keçirilən yığıncaqlar arasındadır. Burada müqəddəs ayələr, ilahi qəsidələr və mədhiyyələr tərənnüm edilir, qəlblər canlandırılıb cuşa gətirilir”.**[27]

- Ziyafətin inzibati hissəsində, toplaşmış dostlar yaxın və uzaq Bəhai icmalarının fəaliyyətləri barədə hesabatları dinləyir, öz icmalarında Əmrin işləri və cəmiyyətin rifahına töhfələri barədə məşvərət edir, Ümumdünya Ədalət Evindən alınmış rəhbərliklə tanış olur, planlarının tərəqqisi üzərində düşünür və Əmrin təsisatlarına təkliflər verirlər. On Doqquz Gün Ziyafətində məşvərətlər son dərəcə vacibdir, çünki bunun vasitəsilə hər bir fərd dünya Bəhai icmasının işlərində iştirak etməyə qadir olur.

- Ziyafətin sosial hissəsinə gəldikdə isə bu, yoldaşlıq və qonaqpərvərlik vaxtıdır. Burada musiqi səsləndirilə, ruhyüksəldici söhbətlər edilə, uşaqların təqdimatları təşkil edilə bilər. Qısası, mədəniyyətin layiqli olduğu qədər də sevinc gətirən, diqqətlə seçilmiş mədəniyyət nümunələri Ziyafətin bu hissəsini zənginləşdirmək üçün istifadə edilə bilər.

- On Doqquz Gün Ziyafəti Əmrin İnzibati Nizamının əhəmiyyətli bir ünsürüdür. O, icma həyatının ruhani, inzibati və sosial cəhətlərini birləşdirir. Bütün bu cəhətlər eyni dərəcədə vurğulanmalıdır, çünki Ziyafətin uğuru bu üç komponent arasındakı tarazlıqdan asılıdır. 1989-cu ilin avqust ayında yazılmış müraciətdə Ümumdünya Ədalət Evi yazır:

**“Həzrət Bəhaullahın Dünya Nizamı insan cəmiyyətinin bütün vahidlərini əhatə edir; həyatın ruhani, inzibati və sosial proseslərini birləşdirir; insanın müxtəlif formalarda özünüifadəsini yeni bir sivilizasiyanın qurulmasına yönəldir. On Doqquz Gün Ziyafəti bütün bu cəhətləri cəmiyyətin məhz təməlində əhatə edir. Kənddə, qəsəbədə və şəhərdə fəaliyyət göstərən bir təsisat olmaqla onun üzvləri bütün Bəha əhlidir. Onun niyyəti birliyi irəlilətmək, tərəqqini təmin etmək və sevinc yaratmaqdır”.**[28]

- On Doqquz Gün Ziyafəti kimi vacib bir tədbir tələskənliklə təşkil edilə bilməz. Dua və təfəkkür vasitəsilə, hər bir fərd özünü Ziyafət üçün ruhani cəhətdən hazırlamalıdır, tədbirin özündə isə hər kəs, istər ruhani hissədə oxumaq, yaxud sadəcə oxunan parçaları dinləməklə olsun; istər hesabat vermək, rəhbərlik almaq, yaxud təklif verməklə olsun; istərsə də sadəcə ev sahibliyi etmək, yaxud sadəcə sevinc və nəşə ilə bu qonaqpərvərlikdən pay almaqla olsun, orada ağlı və qəlbi ilə iştirak etməlidir. On Doqquz Gün Ziyafəti haqqında həmin məktubda Ümumdünya Ədalət Evi təsdiq edir:

**"Ziyafətin hazırlanmasının vacib cəhətləri oxunan yazıların düzgün seçilməsi, yaxşı oxuya bilənlərin əvvəlcədən təyin edilməsi və həm təqdimatda, həm də ruhani proqramın qəbulunda tərtibata xüsusi əhəmiyyət verilməsidir. İstər içəridə, istərsə də bayırda Ziyafətin keçiriləcəyi mühitə diqqət yetirilməsi təəssürata böyük təsir göstərir. Təmizlik, yerin praktiki və dekorativ cəhətdən hazırlanması – bütün bunlar əhəmiyyətli rol oynayır. Punktuallıq da yaxşı hazırlığın bir ölçüsüdür.**

**Ziyafətin uğuru hazırlığın keyfiyyətindən və fərdlərin iştirakından xeyli dərəcədə asılıdır. Sevgili Sərkər Ağa aşağıdakıları nəsihət edir: 'On Doqquz Gün yığıncaqlarına böyük əhəmiyyət verin, ta ki bu tədbirlərdə Rəbbin dostları və Mərhəmətlinin kənizləri üzlərini Mələkuta tərəf tutsunlar, mədhiyyələrini oxusunlar, Allahın köməyini diləsinlər, bir-birinə nəşə içində heyran olsunlar, paklıq və qüdsiyyətləri, təqvaları, ehtiras və nəfsə müqavimətləri artsın. Beləcə onlar özlərini bu maddi dünyadan ayıracaq və ruhun şövqündə qərq edəcəklər".[29]**

Həmişə olduğu kimi, yuxarıdakı ideyaları bir neçə dəfə oxumalı və qrupunuzda elə müzakirə etməlisiniz ki, onları rahatlıqla söyləyə biləsiniz. Aşağıdakı çalışmalar On Doqquz Gün Ziyafətinin əhəmiyyəti barədə daha dərin bəsirətlər əldə etməkdə sizə kömək edəcəkdir:

1. Həzrət Bəhaullah bizim Rəbbi tərif və vəsf etmək üçün yığışdığımız hər bir məskəni nəyin səciyyələndirməsindən bizi əmin edirdi? ______________________________

   ______________________________________________________________________

2. Yuxarıdakı ikinci sitatda Həzrət Bəhaullah bizə buyurur ki, biz görüşlərdə bir araya gələndə ________________ və _____________________ danışmalı, _______________ _____________________ oxumalıyıq; çünki məhz Allah Kəlamı ________________ _______________________ və __________________________.

3. Yuxarıdakı üçüncü sitatda Həzrət Əbdül-Bəha bizə yığıncaqlar keçirməyi, səmavi Təlimləri oxumağı və səsləndirməyi nəsihət edir ki,

   – bəlkə yaşadığımız ölkə ________________________________________________
   – məskən saldığımız torpaq ______________________________________________
   ____________________________________________________________ çevrilsin.

4. Bəhai təqvimində neçə ay vardır? ____________________________________________

5. Hər bir ayda neçə gün vardır? _______________________________________________

6. Bəhailər arasında ayda bir dəfə hansı xüsusi yığıncaq keçirilir? ________________

   ______________________________________________________________________

7. On Doqquz Gün Ziyafətinin üç hissəsi hansılardır? ___________________________

_____________________________________________________________________

_____________________________________________________________________

8. On Doqquz Gün Ziyafətinin hissələrinin keçirilməsində hansısa bir qayda varmı? __

_____________________________________________________________________

9. Ziyafətin ruhani hissəsinin məqsədi nədir? __________________________________

_____________________________________________________________________

_____________________________________________________________________

_____________________________________________________________________

_____________________________________________________________________

10. Ziyafətin inzibati hissəsinin məqsədi nədir? ________________________________

_____________________________________________________________________

_____________________________________________________________________

_____________________________________________________________________

_____________________________________________________________________

11. Ziyafətin sosial hissəsinin məqsədi nədir? __________________________________

_____________________________________________________________________

_____________________________________________________________________

_____________________________________________________________________

_____________________________________________________________________

12. Ziyafətin inzibati hissəsində aşağıdakı mövzulardan hansılarının müzakirə olunması münasib olardı?

_____ İcmanın təşəbbüslərinin maliyyə ehtiyacları

_____ Milli futbol komandasının xalları

_____ İcmanın iki üzvü arasındakı ixtilafı necə həll etmək

_____ İcmada Bəhai uşaq dərslərinin tərəqqisi

_____ Bu həftə icma üzvlərindən birinin Yazılardan öyrəndiyi bir parçanın mənası

_____ İcmada yeniyetmə proqramının canlılığı

_____ Gənc insanlar üçün yerlərdə yaradılan iş imkanları

_____ Xidmət layihələri mürəkkəb xarakter almış yeniyetmə qruplarına icmanın verə biləcəyi dəstək

_____ İnstitutun irəlilətdiyi təlim-tərbiyə proqramlarındakı uşaq və yeniyetmələrin valideynlərinə ziyarətlər

_____ İcmanın ruhani xarakterinin gücləndirilməsi

_____ Televiziyada verilən şou-proqramların vaxt cədvəli

_____ Dərnəklərdə sevincli və intizamlı bir mühitin yaradılması ilə bağlı əldə edilən bəsirətlər

_____ Qarşıdan gələn Müqəddəs Günün qeyd edilməsi

_____ İcma quruculuğu prosesindən irəli gələn sosial fəaliyyət təşəbbüsləri

13. Aşağıdakı sualı qrupunuzda müzakirə edin: Nə üçün Ziyafətin üç hissəsi arasındakı tarazlıq bu qədər vacibdir?

14. İndi isə aşağıdakı iki sualı müzakirə edin.

    a. Əgər siz ev sahibliyi etsəydiniz, Ziyafətə necə hazırlaşardınız?

    b. Əgər siz ancaq iştirakçı olsaydınız, Ziyafətə necə hazırlaşardınız?

## BÖLMƏ 13

Bəhai dini haqqında söhbətlərdə çox vaxt baş qaldıran ikinci sual Bəhai icmasının öz maliyyə ehtiyaclarını necə qarşılamasıdır. Burada belə suallara cavab verməkdə sizə kömək edə biləcək bir neçə müddəa verilir:

- Maddi ehtiyaclarını ödəmək üçün Bəhai icmasının istifadə etdiyi alət Bəhai Fondudur. O, müxtəlif səviyyələrdə Əmrin təsisatları tərəfindən idarə edilir: yerli, milli, qitə və beynəlxalq. Bəhailər inanırlar ki, öz dinlərini yaymaq üçün qoyduqları səylərin məsrəflərini özləri ödəməlidirlər, ona görə də Fond ancaq icmanın üzvlərindən ianələr alır.

- Fonda ianə vermək könüllü bir hərəkətdir. Bu, fərdlə Əmrin təsisatları arasında olmaqla müəyyən mənada məxfidir; ianə verənlərin adları və ianələrin məbləğləri elan edilmir. İanə vermələri üçün icmanın üzvlərinə heç bir təzyiq göstərilmir. Təsisatlar icmaya ümumi çağırışlar edir, Fondun vacibliyini onlara xatırladır və Fondun ehtiyaclarını göstərirlər. Heç də az olmayan hallarda, icma özü üçün ianə hədəfi qoyur. Lakin fərdlər üçün heç vaxt konkret bir məbləğ müəyyənləşdirilmir və onlardan pul istənilmir. Hər bir fərdin öz ixtiyarına buraxılır ki, aidiyyatı prinsiplər barədə anlayışına uyğun olaraq nə qədər ianə verəcəyinə özü qərar versin.

- Bizim qurmağa çalışdığımız sivilizasiya həm maddi, həm də ruhani cəhətdən firavan bir sivilizasiya olacaq. Sərvət yalnız müəyyən şərtlər ödənildiyi təqdirdə məqbuldur. Biz onu dürüst işimizlə qazanmalıyıq. Biz onu bəşərin xeyri üçün sərf etməliyik. Və bütün icmanın maddi vəziyyəti yüksəldilməlidir; əksəriyyət həyatın ən təməl tələblərinə möhtackən bir neçə nəfərin ifrat dərəcədə zəngin olması qəbuledilməzdir. Həzrət Bəhaullah bizə buyurur:

**"İnsanların ən yaxşısı o kəslərdir ki, öz sənətlərilə qazanırlar, özlərinə və aləmlərin Rəbbinin sevgisi xatirinə yaxınlarına xərcləyirlər".[30]**

**"… gərək nəfis və ecazkar meyvələr verəsiniz ki, həm özünüz, həm də başqaları onlardan faydalansınlar. Odur ki, hamıya sənət və peşə ilə məşğul olmaq tapşırılır, zira sərvətin yolu budur, ey anlayış sahibləri!"[31]**

Həzrət Əbdül-Bəha isə izah edir:

**"Sərvət çox bəyənilləndir, o şərtlə ki, bütün əhali zəngin olsun. Lakin əgər cəmi bir neçə nəfər qeyri-adi dərəcədə zəngindir, qalan insanlar isə yoxsulluq içindədirlərsə və o sərvətdən heç bir bəhrə və fayda hasil olmursa, onda o sərvət sahibinə yükdən başqa bir şey deyil".[32]**

- Ədalətsizlik və səfalətdən azad bir cəmiyyət qurmaq üçün bizim hamımız səxavətli və əliaçıq olmalıyıq. Hətta bizim maliyyə resurslarımız cüzi olsa da belə, biz yenə də bəşəriyyətin tərəqqisi üçün nəsə ianə etməliyik, zira əsl firavanlığa yalnız əliaçıqlıqla nail olmaq olar. Səxavətlilik insan ruhunun bir keyfiyyətidir; onun bizim maddi vəziyyətimizlə heç bir əlaqəsi yoxdur. Həzrət Bəhaullah *Gizli Kəlamlar*-da buyurur:

**"Əliaçıq və səxavətli olmaq Mənim sifətlərimdir; xoş o kəsin halına ki, özünü Mənim fəzilətlərimlə bəzəyir".[33]**

- Biz yadda saxlamalıyıq ki, bizim malik olduğumuz istənilən sərvətin əsl mənbəyi Kəramət Sahibi Allahdır. Mövcudiyyətimiz üçün lazım olan şeyləri bizə O verir; bizim tərəqqi etməyimizi O mümkün edir. Biz Fonda ianə verəndə isə Onun bizə verdiyinin bir qismini Onun Əmri üçün xərcləyirik. Ona görə də bəhailər üçün Fonda ianə vermək sadəcə bir səxavətlilik məsələsi deyil; bu həm də ruhani nemət və böyük bir fərdi məsuliyyətdir. Əmrin Vəlisi bizə belə məsləhət verir:

**"Biz sahib olduğu hər şeyi davamlı olaraq boşaldan və daim görünməz mənbədən yenidən dolan fəvvarə və ya bulaq kimi olmalıyıq. Yoxsulluq qorxusu ilə geri durmayaraq və bütün sərvətin və bütün xeyirlərin Mənbəyinin tükənməz bərəkətinə arxalanaraq yoldaşlarımızın xeyri üçün davamlı əliaçıq olmaq – doğru yaşamın sirri budur".[34]**

Sizin buradakı bəzi ideyaları bu silsilədə maddi vəsaitlər mövzusunu araşdıran sonrakı kursda daha dərindən nəzərdən keçirmək imkanınız olacaq. İndilik isə, həmişəki kimi, təşviq olunursunuz ki, yuxarıdakı məzmunu bənd-bənd müzakirə edəsiniz və fikirləri təbii və asanlıqla ifadə etməyi öyrənmək üçün aşağıdakı çalışmaları yerinə yetirəsiniz:

1. Sitatlar əsasında aşağıdakı cümlələrdə boşluqları doldurun:

   a. Həzrət Bəhaullah buyurur ki, biz ______________________ qazanmalı və onu __________________________________________________ xərcləməliyik.

   b. Biz _____________ və _____________ meyvələr verməliyik ki, həm özümüz, həm də başqaları ___________________________________.

   c. Bizim hər birimiz _____________ və ____________ ilə məşğul olmalıyıq, zira __________________________________.

   d. Həzrət Əbdül-Bəha izah edir ki, sərvət _______________________, o şərtlə ki, _______________________________________.

   e. Əgər _________________________ qeyri-adi dərəcədə _________________, _____________________________________________________________ və ________________ heç bir __________ və _________ hasil olmursa, onda o ______________________________________________________________.

   f. Həzrət Bəhaullah buyurur, "_____________ və ________________ olmaq Mənim sifətlərimdir; xoş o kəsin halına ki, özünü Mənim __________________ ______________".

   g. Əmrin Vəlisi isə təşviq edir ki, biz sahib olduğu hər şeyi davamlı olaraq _______ __________ və __________________________________________________ və ya ____________ kimi olmalıyıq.

   h. ________________________________ ilə __________________________ və _______________________________________________________________ ___________________ arxalanaraq yoldaşlarımızın _____________________ üçün davamlı _________________ – doğru yaşamın sirri budur.

2. Yuxarıdakı təqdimatda izlənilən fikirlər ardıcıllığını yazın:

_______________________________________________________________
_______________________________________________________________
_______________________________________________________________
_______________________________________________________________
_______________________________________________________________
_______________________________________________________________
_______________________________________________________________
_______________________________________________________________
_______________________________________________________________

## BÖLMƏ 14

Fəaliyyətlə qaynayan bir kənddə və ya qonşuluqda açıla biləcək söhbətlər barədə bəsirət əldə etmək üçün gənc bir universitet tələbəsi olan Alexandranın səylərini izlədik. Bir neçə həftə davam edən silsilə ziyarətlərlə o, cənab və xanım Sançeslərlə onların Əmr haqqında biliklərini dərinləşdirəcəyinə və qəbul etdikləri təlimlərə təəhhüdlərini möhkəmləndirəcəyinə ümid etdiyi bir sıra mövzuları müzakirə etmişdir. Sonda, Sançeslərin nəvəsi Beatrisin səhnəyə daxil olması başqa tip bir söhbəti nəzərdən keçirməyə bizi qabil etdi – bu söhbət öz icmalarına necə xidmət edə biləcəklərini öyrənməyə can atan iki gənc arasında baş verən söhbətdir. Hekayə boyunca irəli gedərkən və çalışmaları yerinə yetirərkən, biz gördük ki, müvafiq mövzularda biliyin artması ilə yanaşı, burada nəzərdən keçirdiyimiz söhbətləri davam etdirmək üçün müəyyən ruhani keyfiyyətlər, münasibətlər və bacarıqlar da tələb olunur.

Bu fəslin bu və növbəti bölməsində biz fərqli tip mövzuları – yəni, institutun irəlilətdiyi təlim-tərbiyə proqramlarında iştirak edən uşaq və yeniyetmələrin ailələrinə ziyarət zamanı ümumilikdə müzakirə edilən mövzuları – araşdıracağıq. Artıq qeyd olunduğu kimi, uşaqlar üçün dərslərin aparılması və animator kimi yeniyetmə qruplarının yönəldilməsi növbəti kurslarda, müvafiq olaraq Kitab 3 və Kitab 5-də nəzərdən keçirilən xidmət aktlarıdır. Erkən yaşlarda özünüzün onlarda iştirak edib-etmədiyinizdən asılı olaraq siz bu iki müvafiq proqramla tanış ola da, olmaya da bilərsiniz.

Gəlin əvvəlcə, çox vaxt yeniyetmələrin ailələri ilə davam edən söhbəti formalaşdıran məzmuna baxaq. Təsəvvür edəcəyik ki, bizim hekayəmizin üzərindən bir qədər vaxt keçmişdir və Beatris indi Kitab 2-ni öyrənir. Alexandra rəfiqəsi kimi Beatrisdən soruşur ki, tezliklə qrup kimi formalaşacaq olan bir neçə yeniyetmənin ailələrini ziyarət edərkən Beatris də onu müşayiət etmək istərdimi? Beatris həvəslə qəbul edir.

Alexandra nə edəcəkləri barədə Beatrisə izahat verir. “Biz hər bir ziyarətə,” – Beatrisə məlumat verərək o deyir, – “oğul və ya qızlarının qoşulmağa maraq göstərdikləri proqramı valideynlərə təqdim etməklə və bunun qonşuluqda inkişaf etməkdə olan icma quruculuğu prosesinin bir hissəsi olduğunu xatırlatmaqla başlayacağıq. Sonra biz onlarla birlikdə proqramın mərkəzində dayanan bəzi konsepsiya və ideyaları araşdıracağıq. Bu, silsilə ziyarətlərdən birincisi olacaq və ümid edirik ki, söhbət zamanla inkişaf etdikcə, ailə bu qrupu müxtəlif yollarla fəal surətdə dəstəkləməklə yanaşı, həm də icmada yeniyetmələrin ruhani gücləndirilmələrinin təbliğatçısı olacaq”.

Alexandra və Beatris hər bir ailə ilə söhbətdə toxunacaqları məqamları müzakirə etməkdə davam edirlər. Onlar vacib hesab etdikləri bütün fikirləri yazmaq qərarına gəlirlər və bilirlər ki, ilk ziyarətdə onların yalnız bir neçəsini əhatə edə biləcək, qalanlarına isə sonrakı söhbətlərdə baxacaqlar. Yeniyetmələrin potensialı barədə onların sadaladıqları məqamlar bunlardır:

- Bir fərdin həyatında 12-15 yaş arasındakı üç il çox həlledici bir dövrdür – uşaqlıqdan yetkinliyə keçid mərhələsidir.

- Biz bu yaş dövründə olan gənc insanlara çox vaxt "yeniyetmə" deyə xitab edirik. Onlar artıq uşaq deyillər, amma tam gənclik yaşına da çatmayıblar.

- Təəssüf ki, yeniyetmələrin çılğın, üsyankar, özünəqapalı və davamlı böhranlara meylli olan kimi, həm yanlış, həm də geniş yayılmış bir obrazı vardır. Lakin biz onlara başqa bir rakursdan baxırıq. Bu, doğrudur ki, həyatın bu qısa dövründə, bizim hamımız fiziki, emosional və mental olaraq sürətli dəyişikliklər keçiririk. Bu da doğrudur ki, nəticədə, bir qədər üsyankarlıq da göstərə bilərik. Lakin əslində bu yaş dövrü böyük potensial və böyük vədlər dövrüdür.

- Bizim özümüz də çox da uzun olmayan vaxt öncə yeniyetmə idik və bu dəyişikliklərin bizə necə təsir etdiyini xatırlayırıq. Bəzən biz cəsarətli, bəzən də çəkingən idik. Bəzən kifayət qədər ünsiyyətcil, bəzən isə çox utancaq idik. Tez-tez istəyirdik ki, bizi tək buraxsınlar, amma bu vaxt həm də ümid edirdik ki, bizə diqqət göstərsinlər. Biz nələrin bizdə yaxşı alındığını, hansı istedad və bacarıqlarımızın olduğunu başa düşmək istəyirdik. Bizim üçün böyük əhəmiyyət kəsb edən məsələ insanların bizə necə baxmaları və fikirlərimiz barəsində nə düşünmələri idi.

- Bunu başa düşmək vacibdir ki, bu cür davranış ancaq müvəqqətidir. İnsan həyatında müəyyən əqli güclər məhz bu illərdə sürətlə inkişaf edir. Biz mövcudluğun təməl suallarına cavablar axtarmağa başlayırıq. Ətrafımızda baş verənləri təhlil edir, bizə öyrədilənlərin çoxunu sual altına qoyuruq. Böyüklərin bizə dediklərini bir vaxtlar avtomatik olaraq edirdiksə, indi bunu etməyə, xüsusilə, onların sözləri ilə hərəkətləri arasında ziddiyyət gördükdə o qədər də həvəsli olmuruq.

- Əgər meydana çıxan güclərini səmərəli tətbiq etməkdə gənc insanlara kömək olunmalıdırsa, onda onlarla uşaq kimi rəftar etməkdən qaçmaq çox mühümdür. Həzrət Əbdül-Bəha bu dövrü belə təsvir edir:

  **"Bir müddətdən sonra o, gənclik dövrünə daxil olur ki, bu dövrdə onun əvvəlki halları və ehtiyacları böyümüş olduğu hala tətbiq edilən yeni tələblərlə əvəz olunur. Onun müşahidə qabiliyyətləri genişlənir və dərinləşir; əqli qabiliyyətləri daha hazırlıqlı olur və oyanır; uşaqlığa xas hədlər və mühit onun enerji və nailiyyətlərini artıq məhdudlaşdırmır".**[35]

- Bəhai Dininin idarəedici orqanı olan Ümumdünya Ədalət Evi bizim yeniyetmələrlə iş üzrə qəbul etdiyimiz yanaşma haqqında belə buyurur:

  **"Qlobal meyllər bu yaş qrupunun problemli, təbəddülatlı fiziki və emosional dəyişikliklərin iztirablarında itmiş, biganə və özünüyeyən bir obrazını yayarkən, Bəhai icması bunların yerinə – istifadə etdiyi dil və qəbul etdiyi yanaşmalarla –**

**yeniyetmələrdə altruizm, kəskin ədalət hissi, kainat haqqında öyrənməyə can atma və daha yaxşı bir dünya qurmağa töhfə verməyi istəmək kimi məziyyətləri görərək qətiyyətlə əks istiqamətdə hərəkət edir".**[36]

Alexandra və Beatris sonra diqqətlərini ruhani gücləndirmə proqramının özünə yönəldir və onun bəzi xüsusiyyətlərini müəyyən etməyə cəhd edirlər:

- 12-15 yaşlarında olan gənc insanlar fikirlərini bölüşə biləcəkləri, layihələr üzərində işləyəcəkləri, bir yerdə idman oyunları oynayacaqları və s. dostlar qrupuna mənsub olmağa can atırlar. Bu səbəbdən, proqram "yeniyetmə qrupu" konsepsiyası ətrafında qurulmuşdur. Hər bir qrup, qrup üzvlərinə əsl dost olan, qabiliyyətlərini inkişaf etdirməkdə onlara kömək edən, çox vaxt yaşca böyük gənc olan "animator"lar tərəfindən istiqamətləndirilir.

- Qrup müntəzəm olaraq görüşür. Yeniyetmələr öz görüşlərində konsepsiyaları araşdırmağı, senzura və ya istehza qorxusu olmadan fikirlərini ifadə etməyi öyrənirlər. Onlar dinləməyə, danışmağa, düşünməyə, təhlil etməyə, qərarlar qəbul etməyə və onlara uyğun hərəkət etməyə təşviq edilirlər.

- Biz bir çox mənfi qüvvələrin yeniyetmələrin düşüncə və davranış tərzinə təsir etdiyi bir zamanda yaşayırıq. Bu qüvvələrlə mübarizə aparmaqda animatorlar onlara kömək edirlər – yalnız cəmiyyətin mənəvi-əxlaqi tənəzzülündən özlərini qorumaları üçün deyil, həm də dünyanın yaxşılaşdırılması üçün işləmək məqsədilə.

- Proqram insan ruhuna xas olan gücləri bəsləməyə çalışır, o güclər ki, erkən yetkinlik dövründə getdikcə daha geniş miqyasda təzahür etməyə başlayırlar. Düşünmə və özünüifadə gücləri xüsusilə vacibdir. Gənc insanlar həm dünya haqqında dərin fikirləri ifadə etmək, həm də onu necə dəyişdirmək istədiklərini sözə çevirmək üçün lazım olan dili inkişaf etdirməlidirlər.

- Yeniyetmələr məqsədyönlü həyat üçün təməl əhəmiyyətə malik olan konsepsiyaların mənası üzərində düşünməkdə həvəsli olurlar. Xoşbəxtlik, ümid və mükəmməllik buna bir neçə nümunədir. Təəssüf ki, insanlar bu ideyalar barəsində səthi formada danışmağa meyillidirlər. Bu cür konsepsiyalar haqqında dərin anlayış əldə etmək, onların gündəlik həyatda öz ifadəsini necə tapdığını görmək sağlam mənəvi-əxlaqi struktur qurmaqda və cəmiyyətin mənfi qüvvələrinə sinə gərməkdə gənc ağıllara kömək edə bilər.

- Konsepsiyaların anlaşılması intellektual inkişaf üçün çox mühümdür. Yeniyetmələr bəzən məktəbdə çətinliklərlə üzləşə bilirlər, çünki onlardan müxtəlif fənlər üzrə bu fənlərin əsasında duran konsepsiyaları qavramaqla bağlı kifayət qədər kömək almadan böyük həcmdə informasiyanı mənimsəmələri gözlənilir. Yeniyetmə proqramı mənəvi-əxlaqi, riyazi, elmi və s. səpkidə ideyalar barəsində dərindən düşünməyə sövq edir və bu, şübhəsiz, onların məktəbdə yaxşı oxumalarına da müsbət təsir göstərir.

- Yeniyetmələrdə şeylərə məna vermək kimi böyük bir həvəs olur. Onlar ətraflarında baş verənlərin səbəblərini dərk etmək istəyirlər. Müvəffəq olmaq üçün onlar yalnız fiziki gözləri ilə deyil, həm də ruhun gözləri ilə görməyi öyrənməlidirlər. Odur ki, proqramın vacib bir məqsədi ruhani qavrayışı – ruhani qüvvələri tanımaq və içində

olduqları vəziyyətlərə uyğun ruhani prinsipləri müəyyən etmək qabiliyyətini – yüksəltməkdir.

- Proqram öz məqsədlərinə – əxlaqın, ruhani qavrayışın və özünüifadə qabiliyyətlərinin inkişaf etdirilməsinə – silsilə dərsliklərin köməyi ilə çatır. Dərsliklər dünyanın müxtəlif yerlərində yaşayan gənc insanların həyatları barəsində sadə hekayələrdən ibarətdir. Bu dərslikləri birlikdə öyrənməkdən, məzmununu müzakirə etməkdən və tələb olunan çalışmaları yerinə yetirməkdən əlavə, yeniyetmələr idman fəaliyyətlərində iştirak edir, peşə və sənətlər barəsində öyrənirlər.

- Qruplar animatorların köməyi ilə, həmçinin proqramın əsas komponentlərindən biri olan silsilə xidmət layihələrini tərtib edir və həyata keçirirlər. Bu layihələr vasitəsilə, yeniyetmələr icma və onun ehtiyacları barəsində düşünməyi, məşvərət etməyi, öz aralarında və icmadakı digər şəxslərlə əməkdaşlıq etməyi öyrənirlər.

- Dərsliklər müxtəlif mövzuları əhatə edir; hər bir dərslik yeniyetmələrin ruhani cəhətdən gücləndirilmələri üçün mühüm olan bir mövzu üzərində fokuslanır. Məsələn, ilk dərslik "təyid" konsepsiyasından bəhs edir – ki, nəcib məqsədlərə yetişmək səylərimizdə Allah bizə təyid verir. Digər dərslik "ümid" barəsindədir – yəni, ən çətin vaxtlarda belə biz gələcəyə necə ümidlə baxmalıyıq. Digəri "mükəmməllik" konsepsiyasını təhlil edir. "Sevinc" bir hekayənin mövzusudur, "sözün gücü" isə başqa bir dərslikdə düşünmə mövzusudur. Riyazi konsepsiyaları nəzərdən keçirən dərsliklərdən biri nizamlı zehnin vərdişlərini araşdırır. Elm sahəsinə aid başqa bir dərslik insanın öz fiziki, əqli və ruhani sağlamlığının qayğısına qalması məsələsi üzərində fokuslanır. Ondan artıq dərslik vardır ki, bu üç il ərzində yeniyetmələr onları öyrənirlər.

Alexandra və Beatris iki-üç dərsliyi özləri ilə aparmağı planlaşdırırlar ki, bəlkə valideynlər onlara nəzər yetirmək istəyərlər. Əgər siz kitablarla yaxından tanış deyilsinizsə, bir qədər vaxt ayırıb mümkün qədər çox hekayəni oxumağın faydalı olduğunu görə bilərsiniz – bu sizi icmada açılmaqda olan müxtəlif söhbətləri daha yaxşı izləməyə qabil edəcəkdir. Bu arada, yuxarıda verilmiş və Kitab 5-də daha dərindən araşdırılan fikirləri dərnəyinizin digər iştirakçıları ilə bir yerdə tam müzakirə etməyə təşviq olunursunuz. Əgər o kitabı öyrəndikdən sonra yeniyetmə qrupunun animatoru olmaq qərarına gəlsəniz, onda o qrupun üzvlərinin valideynlərini sistematik olaraq ziyarət edəcək və onlarla bu və çoxlu buna bənzər fikirləri araşdıracaqsınız. Hətta indinin özündə belə, Beatris kimi siz də təcrübəsi olan bir şəxsi icmanızdakı yeniyetmələrin valideynlərini bir neçə dəfə ziyarət etməkdə müşayiət etmək istəyə bilərsiniz.

## BÖLMƏ 15

Ertəsi gün Alexandra ilə Beatris qonşuluqda formalaşdırılmaqda olan yeni qrupa qoşulacaq üç yeniyetmənin evlərini ziyarət edirlər. Beatris valideynlərin ruhani gücləndirmə proqramı barədə şövqlə söhbət etmələrini görməkdən xoşbəxt olur. Günortadan sonra o, artıq əmindir ki, yeniyetmə qrupu ilə bağlı Alexandraya kömək etmək və çox güman, bir il ərzində yeni bir qrupun animatoru kimi xidmət etməyi öyrənmək istərdi. Əlbəttə, o başa düşür ki, bu arada o, institutun bir neçə kitabını bitirməlidir. Amma o, indiki ana qədər gəldiyi sabit sürətlə həmin kitabları da öyrənməkdə qərarlıdır.

Buna görə də Alexandradan aldığı davamlı yardım və təşviqlə Beatris xidmət yolunda irəliləyir. Elə isə gəlin onun hekayəsində bir neçə ay irəliyə gedək, o zaman ki, Kitab 3-ü bitirmək ərəfəsində olacaq. Onun dərnəyinin aparıcısı uşaq dərsi müəllimi Maribeldən xahiş etmişdir ki, Beatris və onun qrupundakı yoldaşları növbə ilə 1-ci Sinif üzrə yenicə yaradılmış sinfin uşaqlarının valideynlərinə ziyarət zamanı onu müşayiət etsinlər. Beatris Kitab 3-ü keçməklə çox şey öyrəndiyini hiss edir. Alexandra bunu bir neçə dəfə qeyd etmişdi ki, bu kitabdan aldığı bəsirətlər animator kimi xidmət etməkdə Beatrisin qabiliyyətini yüksəldəcəkdir.

Bir araya gələndə Maribel Beatrisə deyir ki, onlar Emmanın anasını ziyarət edəcəklər. “O, öyrənməyi sevən şirin bir qızdır,” – Maribel fikrini bölüşür. “Mən artıq onun valideynlərini bir dəfə ziyarət etmiş və Bəhai uşaq dərslərinin təbiətini onlara izah etmişəm. Onlar Emmanın dərsdə iştirak etməsinə sevinclə razı olmuşdular. Anası dərs haqqında daha çox eşitmək istədiyini bildirdi, mən də söz verdim ki, onlara qayıdacaq və öyrətdiyimiz materialın əsasında duran təlim-tərbiyə ideyaları barəsində bir qədər danışacağam. Əslində özüm üçün bəzi qeydlər yazmışam. İstəyirsənsə, onların üzərindən birlikdə keçə və onlar haqqında danışa bilərik”. Beatris razılaşır. Onların müzakirə etdikləri məqamlar bunlardır:

- Əvvəlcə mən xanım Martinezə Emmanın bizim uşaq dərsimizdə olmasından necə şad olduğumu deyəcək və onun bəzi gözəl keyfiyyətlərini qeyd edəcəyəm.

- Bəlkə də ən yaxşısı Həzrət Bəhaullahın Yazılarından bu sitatı oxuyub onu müzakirə etməklə başlamaqdır:

  **“İnsana qiymətli gövhərlərlə zəngin bir mədən kimi bax. Yalnız təlim-tərbiyə onun xəzinələrini aşkara çıxara bilər və bəşəriyyətin ondan faydalanmasına kömək edər”.**[37]

- Sonra mən bu bəyanın bir müəllim kimi mənə necə təsir etməsi barədə bir neçə fikrimi bölüşə bilərəm. Dərsdəki uşaqlara baxanda və onların haqqında qiymətli gövhərlərlə zəngin mədən kimi düşünəndə ürəyimin sevincdən aşıb-daşdığını söyləyəcəyəm. Onların hər biri səmavi keyfiyyətlər göstərmək potensialına malikdir. Onların hər birinin kəşf və inkişaf etdirilməli olan istedadları var. Onların hər biri böyüyüb cəmiyyətin dəyərli bir üzvü ola və dünyanın yaxşılaşdırılmasına töhfə verə bilər.

- Sonra mən yəqin ki, təlim-tərbiyənin hər bir uşaqda çalışıb üzə çıxarmalı olduğu gövhərlərlə bağlı bir neçə misal çəkməliyəm. Mən ağlın bəzi güclərini qeyd edə bilərəm, deyək ki, təbiətin qanunlarını açmaq, gözəl sənət əsərləri yaratmaq, nəcib fikirlər ifadə etmək kimi. Mən izah edəcəyəm ki, uşaqlar lazımi təlim-tərbiyə alanda bütün bu gücləri inkişaf etdirməyə başlaya bilərlər. Lakin bunun baş verməsi üçün onlar müəyyən xüsusiyyətləri erkən yaşda əldə etməlidirlər. Məsələn, onlar diqqət verməyi, zəruri olanda gərgin işləməyi və diqqətlərini gördükləri işin üzərində cəmləməyi öyrənməlidirlər. Onlar başqalarının rifahının qayğısına qalan və icmaya xidmət etmək istəyən fərdlərə çevrilməlidirlər. Məhz buna görə gənc yaşlarından onların xarakterinin inkişafının qayğısına qalmaq vacibdir.

- Ondan sonra vaxtı yetişəcək ki, xanım Martinezdən qızının necə bir şəxsiyyət olması barədə bir neçə fikrini bölüşməyini xahiş edək. Xarakterin hansı xüsusiyyətləri vardır ki, Emmanın onlara malik olması vacibdir?

- Onun qeyd etdiyi sifətlər arasında bəziləri, əlbəttə, ruhani keyfiyyətlər kateqoriyasına daxildir və biz onları növbəti mövzuda təqdim edəcəyik. Hər fərdin malik olmalı olduğu müəyyən sifətlər vardır və mən deyəcəyəm ki, onlar insanın mövcudluğu üçün təməldirlər. Bunlar insanın ruhuna aiddir. Allahın sifətlərini əks etdirə bilməsi üçün insan qəlbinin güzgüsünü cilaladıqca biz onları inkişaf etdiririk. Biz bunlara ruhani keyfiyyətlər kimi istinad edirik və 1-ci Sinifdə keçdiyimiz dərslər əsasən bu keyfiyyətlər üzərində fokuslanır.

- Düşünürəm ki, mən davam edib Kitab 3-ün 1-ci Sinif materialında baxılan ruhani keyfiyyətlərdən bir neçəsini sadalayacaq və onlarla bağlı sitatları bölüşəcəyəm. İzah edəcəyəm ki, Emma bu sitatları əzbərləyəcək və xanım Martinez qızından xahiş edə bilər ki, onları və öyrənəcəyi duaları ona söyləsin:

  – Sevgi:

    **“Ey Dost! Könül bağında eşq gülündən başqa heç nə əkmə…”**[38]

  – Ədalət:

    **“Ədalət yolu ilə gedin, zira bu, həqiqətən, düz yoldur”.**[39]

  – Doğruluq:

    **“Doğruluq bütün insani fəzilətlərin təməlidir”.**[40]

  – Sevinc:

    **“Ey İnsan Oğlu! Ürəyinin şadlığı ilə sevin ki, Mənimlə görüşməyə layiq və gözəlliyimə ayna olasan”.**[41]

Maribellə Beatris qərara gəlirlər ki, bir ziyarət üçün yuxarıdakı fikirlər kifayətdir. Siz tezliklə irəli gedib Kitab 3-ü özünüz öyrənəcək və Ruhi İnstitutunun uşaqların ruhani təlim-tərbiyəsi üçün altı illik proqramına forma verən bəzi prinsiplər üzərində düşünmək fürsəti əldə edəcəksiniz. Əgər sizin üçün ondan əvvəl uşaq dərsi müəllimi ilə bir neçə valideyni ziyarət etmək imkanı yaranarsa, burada verilən fikirlər sizə kömək etməlidir və indi siz onları dərnəyinizdə bənd-bənd müzakirə etməlisiniz.

# BÖLMƏ 16

Biz daha əvvəl Həzrət Əbdül-Bəhanın aşağıdakı sözlərini oxumuşduq: “İnsanlar arasında yoldaşlıq və həmrəylik bağları nə qədər möhkəm olarsa, insan fəaliyyətinin bütün müstəvilərində quruculuq və nailiyyətin gücü də o qədər böyük olar”. Ümumdünya Ədalət Evi bizə buyurur ki, evləri ziyarət edərkən və öz evimizə dəvət edərkən biz “icma hissini bəsləyən ruhani doğmalıq bağları qururuq”. Odur ki, bu praktikanın böyüməkdə olan icmamızın mədəniyyətinə təsirini dəyərindən aşağı qiymətləndirməməliyik.

Əvvəlki bölmələrdə bir-birimizin evinə ziyarətə gedərkən baş tuta biləcək söhbətin bir neçə fərqli tipinə baxdıq. Xidmət yolu ilə gedərkən, bizim hamımız kəndimizdə, qəsəbə və qonşuluğumuzda Həzrət Bəhaullahın təlimlərinin fərdi və kollektiv həyatımıza tətbiqi barədə genişlənən söhbətdə iştirak edəcəyik. Bu, bəzən artan sayda insanların bu təlimlər barəsində

biliklərini dərinləşdirmək üçün silsilə rəsmi ziyarətlərdə açılacaqdır. Başqa bir çox hallarda institutun təlim-tərbiyə proqramları, onların məqsədi və məzmunu müzakirə mövzusu olacaqdır. Getdikcə daha çox qonşu və dostlar icma quruculuğu prosesində iştiraka dəvət ediləcəklər. Odur ki, gələcəyə və qarşınızda uzanan xidmət yoluna baxarkən bu fəsildə təqdim olunan məzmunu yaxşı öyrənmək, hər bir mövzu üzrə söhbət etmək təcrübəsi qazanmaq və əlbəttə, Həzrət Bəhaullahın təlimləri haqqında öz biliyinizi dərinləşdirməkdə davam etmək üçün hər cür səy qoymalısınız. Beləcə, Allah Kəlamını başqaları ilə bölüşməyin heç vaxt tükənməyən sevinci sizin olacaq.

# İSTİNADLAR


1. Həzrət Bəhaullah, *Gizli Kəlamlar* (Wilmette: Bahai Publishing Trust, 2003, 2012 nəşri), Ərəbcə №. 4, s. 4.

2. Həzrət Bəhaullah, *Bəhai Duaları: Həzrət Bəhaullahın, Babın və Həzrət Əbdül-Bəhanın Bəyan Etdiyi Dualardan Seçmələr*-də (Wilmette: Bahai Publishing Trust, 2002, 2017 nəşri), s. 4.

3. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr* (Wilmette: Bahai Publishing Trust, 1983, 2017 nəşri), IV, hissə. 1, s. 5.

4. Yenə orada., V, hissə. 2, s. 6-7.

5. Həzrət Əbdül-Bəha, *Bəhai Duaları*-nda, s. 81.

6. Yenə orada., s. 111.

7. Yenə orada.

8. 16 avqust 1912-ci il tarixində edilmiş söhbətdən, *Ümumdünya Sülhünün Elanı: Həzrət Əbdül-Bəhanın 1912-ci ildə ABŞ və Kanadaya Səfəri zamanı Çatdırdığı Söhbətlər*-də çap edilib (Wilmette: Bahai Publishing, 2012), hissə. 23, s. 364.

9. Həzrət Əbdül-Bəha, *Bəhai Duaları*-nda, s. 130.

10. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, XLV, hissə. 1, s. 111-12.

11. Həzrət Əbdül-Bəha, Şövqi Əfəndi tərəfindən sitat gətirilib, *Həzrət Bəhaullahın Dünya Nizamı: Seçilmiş Məktublar* (Wilmette: Bahai Publishing Trust, 1991, 2012 nəşri), s. 139.

12. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, V, hissə. 5, s. 8.

13. Həzrət Əbdül-Bəhanın 5 may 1912-ci il tarixində etdiyi söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə. 4, s. 128.

14. 21 oktyabr 1911 tarixində edilmiş söhbətdən *Paris Söhbətləri: Həzrət Əbdül-Bəhanın 1911 Xitabları*-nda çap edilib (Wilmette: Bahai Publishing, 2006, 2016 nəşri), №. 6.7-8, s. 22.

15. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXLVI, hissə. 1, s. 357.

16. Həzrət Əbdül-Bəhanın 5 may 1912-ci il tarixində etdiyi söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə. 4, s. 128.

17. *Gizli Kəlamlar*, Farsca №. 44, s. 37.

18. Yenə orada., Farsca №. 66, s. 45.

19. Həzrət Əbdül-Bəhanın bir Lövhündən. (səlahiyyətli tərcümə)

20. Həzrət Əbdül-Bəhanın 25 sentyabr 1912-ci il tarixində etdiyi söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə. 2, s. 478-79.

21. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr* (Wilmette: Bahai Publishing, 2010, 2015 nəşri), №. 43.1, s. 125.

22. Yenə orada., №. 207.3, s. 360.

23. Həzrət Bəhaullah, Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən tərtib edilmiş *Bəhai Görüşləri: Həzrət Bəhaullahın, Həzrət Əbdül-Bəhanın və Şövqi Əfəndinin Yazılarından Çıxarışlar*-da (Wilmette: Bahai Publishing Trust, 1976, 1980 nəşri), s. 3.

24. Yenə orada.

25. *Həzrət Əbdül-Bəha Abbasın Lövhləri* (New York: Bahai Publishing Committee, 1916, 1930 nəşri), cild. 3, s. 631. (səlahiyyətli tərcümə)

26. Həzrət Bəhaullah, *Kitabi-Əqdəs: Ən Müqəddəs Kitab*-da (Wilmette: Bahai Publishing Trust, 1993, 2013 nəşri), hissə. 57, s. 41.

27. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr*, №. 48.1, s. 130.

28. 27 avqust 1989-cu il tarixli məktubdan, *1986-2001 Ümumdünya Ədalət Evinin Müraciətləri: Hələdici Əsrin Dördüncü Epoxası*-nda çap edilib (Wilmette: Bahai Publishing Trust, 2010), №. 69.2, s. 132-33.

29. Yenə orada., №. 69.9-10, s. 135.

30. *Gizli Kəlamlar*, Farsca №. 82, s. 51.

31. Yenə orada., Farsca №. 80, s. 51.

32. Həzrət Əbdül-Bəha, *İlahi Sivilizasiyanın Sirri* (Wilmette: Bahai Publishing, 2007, 2016 nəşri), hissə. 46, s. 33.

33. *Gizli Kəlamlar*, Farsca №. 49, s. 39.

34. Şövqi Əfəndi, *Bəhai Xəbərləri*-ndə sitat gətirilib, №. 13 (Sentyabr 1926), s. 1.

35. Həzrət Əbdül-Bəhanın 17 noyabr 1912-ci il tarixində etdiyi söhbətdən, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, hissə. 3, s. 617.

36. 21 Aprel 2010-cu il tarixli müraciətdən, *Hərəkət Çərçivəsi: 2006-2016 Ümumdünya Ədalət Evinin Seçilmiş Müraciətləri və Əlavə Material*-da çap edilib (West Palm Beach: Palabra Publications, 2017), №. 14.16, s. 82.

37. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXXII, hissə. 1, s. 294.

38. *Gizli Kəlamlar*, Farsca №. 3, s. 23.

39. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXVIII, hissə. 1, s. 283.

40. Həzrət Əbdül-Bəha, Şövqi Əfəndi tərəfindən sitat gətirilib, *İlahi Ədalətin Gəlişi* (Wilmette: Bahai Publishing Trust, 2006, 2018 nəşri), hissə. 40, s. 39.

41. *Gizli Kəlamlar*, Ərəbcə №. 36, s. 12.